REDAKSİYA HEYYƏTİ:

Baş redaktor: **prof.Y.Ş.Kərimov**

| | |
|---|---|
| **Aydın Əhmədov** | *Azərbaycan Respublikası Təhsil Nazirliyinin kənd rayonları üzrə ümumi təhsil şöbəsinin müdiri* |
| **Faiq Şahbazlı** | *Azərbaycan Respublikası Təhsil Nazirliyinin dərslik və nəşriyyat şöbəsinin müdiri* |
| **Arif Muradov** | *Azərbaycan Respublikası Təhsil Muzeyinin direktor müavini* |
| **Nərminə Alnağıyeva** | *Azərbaycan Respublikası Təhsil Nazirliyinin məktəbəqədər təhsil sektorunun müdiri* |
| **Asəf Zamanov** | *Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanma İnstitutunun direktoru, fiziki-riyaziyyat elmləri doktoru, professor* |
| **Nurlana Əliyeva** | *Azərbaycan Dövlət Pedaqoji Kollecinin direktoru, filologiya elmləri doktoru,professor* |
| **Vaqif Əmraslanov** | *Bakı Sosial-Pedaqoji Kollecinin direktoru, tarix üzrə fəlsəfə doktoru* |
| **Vidadi Xəlilov** | *Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun məktəbəqədər və ibtidai təhsil şöbəsinin müdiri, pedaqoji elmlər doktoru,professor* |
| **Ramiz Əliyev** | *Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun psixologiya və yaş fiziologiyası şöbəsinin müdiri, psixologiya elmləri doktoru, professor* |
| **Mircəfər Həsənov** | *Azərbaycan Müəllimlər İnstitutunun ibtidai təhsilin metodikası kafedrasının müdiri, pedaqogika üzrə fəlsəfə doktoru, professor* |
| **AzadxanAdıgözəlov** | *Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi, pedaqoji elmlər doktoru, professor* |
| **Həqiqət Hacıyeva** | *Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi, biologiya üzrə fəlsəfə doktoru, dosent* |
| **Zemfira Əsədova** | *Nizami rayonu, 175 nömrəli körpələr evi-uşaq bağçasının müdiri* |
| **Esmira Ağayeva** | *İ. Əfəndiyev adına Elitar Gimnaziyanın ibtidai siniflər üzrə direktor müavini* |
| **Bibixanım İbadova** | *Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun ibtidai təhsil kurrikulumu şöbəsinin müdiri, pedaqogika üzrə fəlsəfə doktoru* |
| **Könül Həsənova** | *Nəsimi rayonu, 111 nömrəli körpələr evi-uşaq bağçasının tərbiyəçisi* |
| **Xalidə Talıbova** (məhsul katib) | *Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun aparıcı elmi işçisi, pedaqogika üzrə fəlsəfə doktoru.* |


---

Yığılmağa verilmiş 19.08.2011. Çapa imzalanmış 19.09.2011.
Kağız formatı 70x100 1/16. Şərti çap vərəqi 7.
Sifariş№ 08. Tiraj 1000. Qiyməti 2 manat 50 qəpik.
Redaksiyanın ünvanı: AZ 1010. Bakı, Zərifə Əliyeva küçəsi, 40.
Tel. 493-84-41, mob. (050) 370-60-11.

---

«RS Poliqraf» MMC-nin mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur.
Ünvan: Bakı, A.Məmmədov , 113.

# BU NÖMRƏDƏ


Təhsilin bir nömrəli problemi....4

*Yeni pedaqoji texnologiyalar*

**Katseviç N.F.** Kiçikyaşlı məktəblilərin idrak prosesinin inkişafında intellektika dərslərinin rolu.... 7

**İsmayılzadəN.** İnformasiya texnologiyalarının tətbiqinə dair....15

**Mirzəyeva R.** Təlimdə nailiyyət qazanmağın yolları....18

**Bəhmənova C.** İnteraktiv təlim üzrə işin təşkili....21

**Məcidova A.** Şagirdlərdə hansı riyazi keyfiyyətlər inkişaf etdirilməlidir?....25

**Голубева Е.А.** Интегрированный урок математики и трудового обучения....30

**Mustafayev M. Verdizadə H.** Təhsil sistemində qiymətləndirmə....36

**Talıbova P.** Kiçikyaşlı məktəbli şəxsiyyətinin inkişafında özünüqiymətləndirmənin rolu ....40

*Məktəbəqədər təhsil*

**Cəfərova L. Qafarova İ.** Məktəbəqədər təhsil müəssisələrində metodik işin təşkili....44

**Abdullayeva K.** Məktəbəqədər yaş dövründə əqli tərbiyə və inkişaf....48

**Baxışova Ş. Qafarova İ.** Beşyaşlıların nitqinin inkişaf etdirilməsi üzrə işin təşkili yolları ....53

**Orucova C.** Otaq bitkilərinə qulluq....58

*Fənlərin tədrisi və qabaqcıl təcrübə*

**Kərimova E.** Linqivstik təhlil probleminin mövcud proqramlarda qoyuluşu....64

**Muradova T.** Ekskursiya şagirdlərin dünyagörüşünün formalaşmasının vasitəsi kimi....69

**Məmmədov V.** Tənliklər və bərabərsizliklərin öyrədilməsinin şagirdlərin riyazi biliklərinin inkişafında rolu....72

*D Ə R S  N Ü M U N Ə L Ə R İ*

**Babayeva F.** Toplananların yerini dəyişməsini necə öyrədirəm....77

**Zəkiyeva L.** II sinifdə oxu dərsi....80

**Abbasova F.** IV sinifdə həyat bilgisindən açıq dərsin icmalı....84

**Abdullayeva Z.** Xocalı faciəsinə həsr olunmuş dərs....87

**Zeynalova S.** III sinifdə N.Gəncəvinin "Kərpickəsən kişinin hekayəti" mətninin tədrisi....90

*Tərbiyə məsəllələri*

**Rəhimova S.** Uşaqların mənəvi tərbiyəsi üzrə işin təşkili....93

**Hacıyeva H. Məmmədova X.** Sinifdənxaric tədbirlərdə tibbi-gigiyenik tərbiyə....97

*Defektologiya məsələləri*

**Dostuzadə D.** Eşitməsi qüsurlu uşaqlara hərəkət bildirən sözlərin mənimsədilməsi....101

**Musayeva S.** Nitqi qüsurlu uşaqların səs təhlilinə hazırlanması....106

*Sinifdənxaric işlər*

**Kərimova N.** Sinifdənxaric tədbirlərin təşkili....113

*Təhsilimizin tarixindən*

**Bəşirov V.** Bir ömrün məşəli (İsmayıl bəy Qaspralı – 160)....117

# TƏHSİLİN BİR NÖMRƏLİ PROBLEMİ

Böyüməkdə olan nəslin sağlamlığı və təhsili yetkin cəmiyyətin formalaşmasının əsasını təşkil edir. Bu baxımdan məktəbəqədər yaşlı uşaqların məktəb təhsilinə hazırlıq səviyyəsi – məktəb yetkinliyi yaşı təhsil işçilərini, valideynləri narahat edir. Çox təəssüf ki, ölkəmizdə "məktəb yetkinliyi" yaşının tələblərini nəzərə almaqla uşağın məktəbə hazırlanması üzrə dövlət sistemi yaradılmamışdır. Bunun nəticəsidir ki, altıyaşlıların məktəbə hazırlanması və seçilməsinin effektiv qaydası yoxdur.

Uşağın məktəbə hazırlıq səviyyəsi bir çox hallarda səriştəsi olmayan şəxslər tərəfindən yoxlanır və qərar verilir. Məktəblərin əksəriyyətində uşağın bioloji yaş dövrü – 6 yaşının tamam olması haqqında, sağlamlığının vəziyyəti haqqında arayış tələb olunur. Məktəblərin bir qismində uşağın fiziki inkişafı, "baza kompetensiyası" həcmində bilik və bacarıqları, qabiliyyətləri test yoxlaması yolu ilə öyrənilir.

Son illərdə I sinfə qəbul edilənlərin sənədləri ilə tanışlıq göstərir ki, qəbul, adətən, formal xarakter daşıyır. Məktəblərin əksəriyyətində bioloji yaşa aid sənəd əsas götürülür. Onların əqli qabiliyyətləri nəzərə alınmır.

Bu gün respublikada məktəbəqədər yaşlı uşaqların yalnız 12,6 faizi ictimai təhsil müəssisələrinə cəlb olunur. Davamiyyətin zəifliyi nəzərə alınarsa, bu faiz 10-u qalxmır.

Təhsil məktəbəqədər müəssisələrdən başlanır. Biz isə ikinci mərhələdən, ibtidai təhsildən işə başlayırıq. İbtidai siniflərdə islahat başa çatdıqdan sonra məktəbəqədər təhsil müəssisələrinin proqramlarının (kurikulumların) yeniləşməsinə başlanması bunu sübut edir. Bunun nəticəsidir ki, təhsilin başlanğıcında bünövrə möhkəm qoyulmur və şagirdlər sonrakı mərhələlərdə yaxşı oxuya bilmirlər.

Şəxsiyyətin inkişafına qayğı, humanizm prinsipi yetirməyən uşağın ikinci ilə saxlanmasına imkan vermir. Vaxtilə ikiilliyə qarşı mübarizənin aparılması mühüm pedaqoji problem idi. Təcrübə göstərir ki, uşağin eyni sinifdə təkrarən oxuması onu pisikdirir, həvəsdən salır, kollektivdə hörmətini azaldır. Belə uşaqlar, adətən, sonralarda yaxşı oxumurlar. Ona görədə sinif müəllimi gərgin əmək sərf etməli, hər bir dərsdə proqram materialını hər bir şagirdə öyrətməlidir. I sinifdə hazırlıqsız gələn şagirdlərlə belə nəticə əldə etmək mümkünmü?

İnkişaf etmiş qabaqcıl ölkələrdə bu problem necə həll olunur? Bir nümunəni nəzərdən keçirək. Almaniya Federativ Respublikasında ikiillik geniş yayılmışdır. Oranın məktəblərində hər 5 nəfərdən biri, başqa sözlə, təhsil alanların 20 faizi ibtidai siniflərdə bu və ya digər sinfin proqramını azı bir dəfə təkrarlamaq üçün sinifdə saxlanır. Aparılmış tədqiqata görə I sinifdə oxuyanların təxminən 1,8 faizi, II sinifdə oxuyanların 3,3 faizi, III-IV sinifdə oxuyanların 5 faizə qədəri sinifdə saxlanır. Yuxarı siniflərdə ikiillik təhsil şagirdlərin taleyinə daha neqativ təsir göstərir.

Bunu nəzərə alaraq Qərbi Almaniyada son illərdə məktəbəqədər təhsil müəssisələrinin sayı 25 faiz artırılmışdır. Qəbul könüllü, pulsuzdur. Məktəbə qəbul uşağın hazırlığı və valideynlərin arzusundan asılı olaraq 6-7 yaşdan başlanır. (İsveç və Finlandiyada I sinfə qəbul 7 yaşdandır.) Bundan məqsəd uşaqların I sinfə tam hazır gəlmələrini təmin etməkdir.

Ölkəmizin coğrafi şəraiti uşağın intellektinin daha tez inkişafına şərait yaradır. Bununla belə, respublikamızda 6 yaşdan təlimin mümkünlüyü eksperimental yolla sübut olunmuşsa da, uşaqların məktəb yetkinliyi səviyyəsini nəzərə alaraq 7 yaşdan gələnlərə də etiraz edilməməlidir. I sinfə qəbul zamanı hazırlıqlı 5 yaşlıların təhsilə qoşulmalarıda istina edilmir.

I sinfə qəbul yaşında tərəddüdün, qeyri-sabitliyin əsas səbəbi aşağıdakılardır:

- sosiumda dəyişikliyin sürətlənməsi;
- bu məsələ üzrə mütəxəssislərin mühakimələrində fikir müxtəlifliyi, həmçinin tədqiqatların eynimənalı olmaması, bir-birinə zidd olması;
- nəzəriyyə və praktika arasında fərq, tez-tez alimlərin proqnozlarının və nəticələrin üst-üstə düşməməsi.

Müşahidələr göstərir ki, I sinfə vaxtından əvvəl qəbul olunmuş uşaqlar təlim dövründə böyük çətinliklərlə qarşılaşır və sonrakı siniflərdə təkrarən təhsil almaq məcburiyyətində qalırlar.

Lazımi hazırlıq keçdikdən sonra qəbul olunan uşaqlarda özünəinam yüksək olur, onlar səylə çalışır, eyni sinifdə iki il oxumağı qəbahət hesab edirlər. Göstərilən faktlar bu və ya digər ölkələrdə bənzər olsa da, elə ölkələr var ki, 5-6 yaşdan təlimə üstünlük verirlər. Həmin ölkələrdə məktəbəqədər, hətta məktəbəqədərki yaşdan (bağça dövründən)əvvəl – 3-4 yaşdan uşaqların məktəbə hazırlanması üzrə iş gedir.

Məktəbəqədər tərbiyə müəssisəsinin məktəbə hazırlıq sinfini, uşaq bağçaları və məktəbdə təşkil olunmuş hazırlıq qrupu və sinifləri "məktəb uşaq bağçası" adlandırmaq olar. Bu hazırlıq strukturunun qarşısında aşağıdakı vəzifələr qoyulur:

- təlimin oyun formasından istifadə etmək;
- uşaqların müəyyən bacarıq və vərdişlərə yiyələnmələrini təmin etmək;
- uşaqlarda sosial davranış vərdişləri formalaşdırmaq;
- oxu, yazı, hesablama vərdişlərinin inkişafı üçün zəmin hesab olunan nitq və təlim vərdişlərini inkişaf etdirmək.

Bu qruplarda uşaq həyatının müxtəlif sahələri (təlim, koqnitiv, hərəki, sosial, küçə hərəkətiqaydaları, telefon, televizor, kompyuter və s. ilə davranma və s.) üzrə iş gedir. Sosial-emosional dairədə aşağıdakı keyfiyyətlərin inkişafına diqqətin yönəldilməsi lazım bilinir.

- uşaqlarvə böyüklərlə ünsiyyət qabiliyyəti;
- münaqişəsiz davranış;
- özünüdərketmə və kollektivdə davranış;
- diqqətin konsentrləşdirilməsi və davamlılığı;
- danışığın məzmununa diqqətli münasibət;
- bir qrup uşaq tərəfindən təklif olunmuş göstərişi yerinə yetirmək;
- emosional tənzimlənmə qabiliyyəti;
- hər şeyi bilmək arzusunun nümayiş etdirilməsi;

Məktəbəhazırlığa qədərki dövrdən məktəb hazırlığına körpü yaradan kompetensiyalar sahəsində nitq, oxu və yazı texnikasına hazırlıq, hesablama mühüm yer tutur.

- Nitq: düzgün (zəngin) nitqi dinləmək və eşitmək; başqa adamlara müraciət etməyi, söhbətə başlamağı, öz mövqeyini müdafiə etməyi, dediklərini, dinlədiklərini anlamağı; salamlaşmağı, təşəkkür etməyi, üzr istəməyi bacarmaq; ünsiyyət prosesində qarşı tərəfin narazı qaldığını anlamaq.
- Oxu: körpəlikdən oxunanı dinləməyi bacarmaq; oxunun fiziki, emosional və dərketmə inkişafının növü olduğunu anlamaq; ən zəruri şeyləri oxumağı bacarmaq, şeir oxumaq, onun məzmunu, qəhrəmanı haqqında şəxsi mülahizəsini bildirmək; Azərbaycan və başqa xalqların nağıllarını bilmək.

- Yazı:qələmi düz tutmaq, hərflərin çap şəklini yazmaq; çap nəşrlərdə tanış hərfləri tapmaq; oyun zamanı başqa uşaqların nə "yazdıqlarını", "oxumağı" bacarmaq.

Uşağın məktəbə hazırlanması üzrə iş başa çatdıqdan sonra onun hazırlıq səviyyəsinin öyrənilməsi üçün standart anket doldurulur. Anket belə formalaşdırılır:

- məktəbə danışıqsız, tam hazırdır;
- məktəbə hazırdır, lakin azacıq çatışmayan cəhətlər var.
- hazırlığızəifdir;
- məktəbə hazır deyil.

Bu anketdə inkişaf səviyyəsi aşağıdakı şkala ilə qeydə alınır:

- qabaqlayıcı inkişaf ;
- inkişaf səviyyəsi yaşa uyğundur;
- inkişafda yüngül və ya orta ləngimə var.
- inkişafda güclü ləngimə var.

Proqnozlaşdırmanın zəif inkişafı bu sahədə həqiqəti aşkara çıxarmağa və uşağa vaxtında kömək göstərməyə imkan vermir. Kontingent müxtəlif (başqa millətin, azsaylı xalqların, etnik qrupların, psixoloji çatışmazlıqları olanların nümayəndələri) olanda obyektiv çətinliklər qarşıya çıxır.

Məktəbdə müvəffəqiyyətsizliyin, uğursuzluğun səbəbini məktəbəqədər yaşlı uşaqların uşaq bağçalarına cəlb olunmamasında görmək lazımdır. Uşaqların təlimə hazırlıqlı gəlmələri məktəbi çətin oxuyan uşaqlar problemindən azad edir.

Bütün uşaqların eyni metod və priyomlarla, eyni vaxtda məqsədə nail ola biləcəkləri haqqında fikir çoxdan köhnəlib. Məktəb şagirdlərin ilkin qabiliyyətlərinin qiymətləndirilməsindən deyil, onlarda həmin qabiliyyətləri inkişaf etdirmək üçün şəraitin yaradılması vəzifəsindən çıxış etməlidir. Uşağın qabiliyyətinə təlimin nəticəsi kimi baxılmalıdır.

Məktəblilərin zəif mənimsəmələrinin səbəblərindən biri fikri bacarıq və vərdişlərə kifayət qədər yiyələnməmələridir.

Zəruri anlayışlar fondu və onların məntiqi işlənməsinin müvafiq qaydaları zənginləşir, elmi-texniki tərəqqi ilə birlikdə inkişaf edir. Məktəb bu dəyişiklikliyə təlimin məzmununun və metodlarının dəyişməsi ilə cavab verməlidir. Bu fond məktəblilərin əqli inkişafının əsas determinantı ilə şərtlənir, lakin onda sözün geniş mənasında uşağın inkişaf faktoru olan başqa, hər şeydən əvvəl, sosial şərt özünü göstərir. Şagird orada cəmiyyətin gələcək üzvü kimi, sosial varlıq kimi yaşayır və tərbiyə olunur.

Şagirdlərin fikri bacarıq və vərdişləri daha yaxşı mənimsəmələrinə kömək etmək üçün tələb olunan psixoloji diaqnostika keçirməyə kömək göstərən metod tapmaq zəruridir. Təəssüf ki, bu məqsədə, uşaqların əqli inkişafına xidmət edən ənənəvi testlər az effektlidir. İndi şagirdlərin biliklərə sürətlə yiyələnmələrini təmin edən metodlar lazımdır. Başqa sözlə, diaqnostik tədqiqatın köməyi ilə əldə edilən infornasıya birbaşa göstərməlidir ki, bu və ya digər şagirdlə hansı korreksiya işi tələb olunur, qarşıya çıxan çətinliyin, əqli inkişafdakı problemin öhdəsindən gəlmək üçün ona necə kömək edilməlidir.

İbtidai təlim sosial durumundan, qabiliyyət və meylindən asılı olmayaraq, bütün uşaqlar üçün təhsilin ən mühüm mərhələsidir. Ona görə də uşaqların bu mərhələyə hazır olmaları təhsilin bir nömrəli problemidir.

Katseviç N.F.

# KİÇİKYAŞLI MƏKTƏBLİLƏRİN İDRAK PROSESİNİN İNKİŞAFINDA İNTELLEKTİKA DƏRSLƏRİNİN ROLU

(I sinif)



I sinif uşağın həyatında mürəkkəb dövrdür. Bu dövr yeddi yaşın böhranı, yeni şəraitə adaptasiya ilə bağlıdır. Bu yaşın mürəkkəbliyi iradi fəaliyyətin tənzimlənməsi, yaddaşın, diqqətin və təfəkkürün zəif inkişafı ilə bağlıdır. Bu faktoru nəzərə alaraq uşaqların çoxunda uşaq bağçasına getmədikləri üçün başqa uşaqlarla ünsiyyət vərdişləri olmur. Ayrı-ayrı fənlərin tədrisi üçün də idrak proseslərinin inkişafı zəruridir. Biz hər bir uşağın xüsusiyyətlərini nəzərə alır və ona diqqət yetiririk. Müəllim kollektivi qərar qəbul etmişdir ki, ibtidai siniflərdə **məntiq, intellektika, ritorika** üzrə başlanğıc kursu keçirilsin.

Mən intellektika kursu üzərində dayanmaq istəyirəm. Kursun məqsədi fənlərin tədrisində uşaqlara öz biliklərindən istifadə etməyi öyrətməkdir. Məqsəd müqayisə etməyi, ümumiləşdirməyi, qanunauyğunluqları tapmağı, təsnif etməyi, tərif verməyi, əqli nəticəyə gəlməyi, mühakimə yürütməyi, nəticə çıxarmağı, yaşlılarla, yoldaşları ilə konstruktiv ünsiyyət saxlamağı öyrətməkdir. İntellektika dərsləri inkişafetdirici kursdur. O, qeyri-standart formada (səyahət dərsi, tapmaca və məsəllər dərsi, oyun şəklində) təşkil olunur. Bu kursu məktəb psixoloqu təşkil edir. İntellektika dərsində uşaqların inkişafı oyun və tapşırıqların rəngarəngliyi ilə şərtlənir və təmin olunur. Onların hər biri özü ilə daha mürəkkəb tapşırıqlara kiçik bir addım aparır. Uşaq ilk dərslərdən ondan intellektual güc, məhsuldar fəaliyyət tələb edən situasiyaya düşür.

Mən dərsdə uşaqlara öz fikirlərini söyləməyə, münasibətlərini bildirməyə imkan verirəm. Dərsdə onların təkliflərini özləri ilə müzakirə edirəm. Səhvə yol verilərsə, sadəcə olaraq göstərməklə kifayətlənmir, həm də düzəldirəm.

İntellekt dərsi uşağın naliyyətlərinə istiqamətlənir. Bütün tapşırıqlar qiymətləndirici deyil, inkişafetdirici xarakter daşıyır.

İntellektika kursu üzrə tapşırıqlar sistemi elə qurulub ki, uşaq özünün idrak proseslərinin inkişafında tədricən irəliyə hərəkət etsin. Bu fənn mahiyyət etibarilə riyaziyyat və məntiq fənlərinin sintezindən ibarətdir, lakin nəticə etibarilə məhz bu sahədə uşaqların bacarığı və inkişafı başqa fənlərdə də əqli-fəaliyyətin yaxşılaşmasını təmin edir. Uşaqlara təqdim olunmuş tapşırıq onlardan yaradıcı yanaşma tələb edir: «Olmayan heyvanın şəklini çək.», «Sübüt et.», «Öz versiyanı təklif et.», «Öz variantını düşün.» və s. Belə tapşırıq

uşağın fantaziyasını, təxəyyülünü, iradi fəaliyyətini, hisslərini, emosional intellektini bərpa edir və inkişaf etdirir.

Dərsin daha uğurlu forması cütlərlə və qruplarla işdir. O, uşaqlara konstruktiv ünsiyyəti, müstəqil düşünmək bacarığını, başlıcası, mübahisəsiz, dava-dalaşsız razılığa gəlməyi öyrədir. Materialın verilmə səviyyəsi sinifdə xeyirxahlıq atmosferinin, bir-birinə inamın, psixoloji konfortun yaranması ilə birləşir. Belə müsbət əhvali-ruhiyyə uşaqlarda öz qüvvələrinə inam yaradır, yazı taxtası qarşısında və yerindən cavab verməkdən əvvəl həyəcanlanmanın səviyyəsini aşağı salır, özünüqiymətləndirməni yüksəldir. Məlum olduğu kimi, psixoloji konfort yalnız biliklərin mənimsənilməsi üçün deyil, həm də uşaqların fizioloji vəziyyətləri bundan asılı olur. Əgər tədrisdə hər hansı müvəffəqiyyət yaşlılar qarşısında qorxuya, uşağın şəxsiyyətinin alçalmasına səbəb olursa, o, heç bir fayda vermir.

İkinci il apardığımız intellekt kursu ilkin nəticələrə gəlməyə imkan verir: uşaqlarda özlərinə inam xeyli artmışdır. Onlar öz nöqteyi-nəzərlərini qorumağı öyrənmişlər. Şəxsi uğursuzluqlardan qorxmurlar. Uşaqların çoxunda özünüqiymətləndirmə səviyyəsi yüksəlmişdir. Belə ki, bu dərslərdə uşaqlar özlərini daha müvəffəq hesab edirlər. Kollektiv formalı iş nəticəsində uşaqlar bir-birinə həssas, qayğıkeş münasibət bəsləyirlər.

Dərslərimdə qrupları necə təşkil edirəm:

1. Sinifdə 13 uşağın olduğunu nəzərə alaraq qrupa 4 nəfərdən az daxil olmur.
2. Qruplar üzrə liderləri müəyyənləşdirirəm.
3. Çalışıram ki, qrupda oğlanlar və qızların sayı təxminən bərabər olsun.
4. Hər qrupda uşaqların, heç olmasa, bir dostunun olması vacibdir.

Qrupların müəyyən olunması:

- işləri bölüşdürmək üçün;
- problemin həll edilməsi və qərarın qəbul olunması üçün;
- informasiyanın işlənməsi üçün;
- uşaqlarda məsuliyyət və aidiyyat, iştirak etmə hissini qaldırmaq üçün.

Uşaqların qruplarda işi pedaqoq tərəfindən məsuliyyət tələb edir. Qrupun işini müşahidə etmək vacibdir.

- Uşaqlar necə əyləşmişlər?
- Onlar diqqətlidirlər, yoxsa yayınırlar?
- Onlar fəal, yoxsa qeyri-fəaldirlar?
- Diqqətləri verilmiş problemə, yoxsa başqa müzakirəyə yönəlmişdir?
- Müzakirədə iştirakdan imtina edən uşaqlar varmı?
- Onlar bir-birini dinləyirlərmi?
- İşin gedişində hörmət, xeyirxahlıq, əməkdaşlığa hazırlıq nümayiş etdirilirmi?

Konkret misallara keçək.

**Dərs 1**

**Mövzu: təfəkkürün, diqqətin, yaddaşın, nitqin inkişafı.**

**Dərsin tipii:** səyahət-dərs.

**Məqsədlər:**

- şifahi tapşırıqları yerinə yetirmək bacarığının inkişafı.
- özünənəzarət elementlərinin formalaşması;
- fəza təsəvvürlərinin inkişafı;
- məntiqi təfəkkürün inkişafı;
- diqqətin inkişafı (diqqəti cəmləşdirmək bacarığı);
- təhlil etmək və ümumiləşdirmək bacarığının inkişafı;
- görmə və eşitmə yaddaşının inkişafı;
- təfəkkürün çevikliyi və orijinallığının inkişafı.

**Dərsin gedişi**

–Uşaqlar! Biz bu gün hava şarı ilə diqqət (!), yaddaş (*), təfəkkürün (   ) yaşadığı planetə uçaq.

**1. Əl-qolu, bədəni hərəkət etdiririk.**

– Eyni vaxtda yüngül və tüklü, dadlı və yumru nə ola bilər?

**2. Diqqəti inkişaf etdiririk** (1-dən 9-dək ədədləri tapmaq).

| | | |
|---|---|---|
| 7 | 9 | 2 |
| 4 | 6 | 8 |
| 3 | 1 | 5 |

**3. Diqqəti və eşitmə yaddaşını inkişaf etdiririk.**

– İndi mən sözlər deyəcəyəm. Əgər onların arasında giləmeyvəni bildirən söz eşitsəniz, əllərinizi 1 dəfə, meyvə adını bildirən söz eşitsəniz, 2 dəfə bir-birinə vurun: *kələm, çiyələk, alma, armud, qaraqat, moruq, kök, kartof, şüyüd, qaragilə, gavalı, quşüzümü, balqabaq, ərik, portağal.*

– Mən adlarını çəkdiyim meyvələri kim yadda saxlayıb?

**4. Görmə yaddaşını inkişaf etdirək. Ümumiləşdirməyi və kənar etməyi, istisna etməyi öyrənmək.**

– Şəkillər verilib. Onları yadda saxlayın: *banan, armud, alma, qarpız, ananas, ərik.*

– Hansı şəkil artıqdır və niyə? Qalan şəkilləri bir sözlə necə adlandırmaq olar?

**5. Təfəkkürün çevikliyini inkişaf etdirək.** Qrupla iş. Bu şəkillər nəyə oxşayır?

1-ci komanda



2-ci komanda



**6. Şən dəyişmə.**

Andryuşka iki cərgə oyuncaq düzüb:
meymunla yanaşı yastıdaban ayı;
tülkü ilə yanaşı çəpgöz dovşan;
onların ardınca kirpi və qurbağa.
Andryuşka neçə oyuncaq qoyub?

**7. Təfəkkürü inkişaf etdirək.**

Şəkillər təqdim olunur: *alma, şaftalı, qarpız, albalı, gavalı.*
- Əşyalar arasında ümumi cəhət nədir? (Top əlavə edirik.)
- Əşyalar arasında nə ümumidir (yumru forma)
- Hansı əşya artıqdır və nə üçün? (Top. O, yeyilmir.)

**8. Sahə təsəvvürünü inkişaf etdirək. Müstəqil iş.**

Tapşırıq: «Düzgün rənglə».




- Şəkilləri verilmiş fiqurlara bax. Onların adlarını de.
- Dairə ilə düzbucaqlı arasında olan fiquru yaşıl rənglə .
- Üçbucaqdan sağ tərəfdəki fiquru qırmızı rənglə rənglə.
- Düzbucaqlı ilə kvadrat arasındakı fiquru sarı rənglə rənglə.
- Sırada axırıncı yerdəki fiquru göy rənglə rənglə.
- Üçbucaqlıdan sol tərəfdəki fiquru narıncı rənglə rənglə.
- Düzbucaqlıdan sağ tərəfdə hansı fiqur var?
- Bəs kvadratdan sol tərəfdə?
- Düzbucaqlı ilə ovalın arasında hansı fiqur yerləşib?
- Bəs üçbucaqlıdan əvvəl?
- Bəs ovaldan sonra?

**9. Dərsin refleksiyası.**

- Hansı tapşırıq xoşuna gəldi?
- Hər biriniz üçün nə mürəkkəb oldu?
- Komandalarda necə işlədilər?

## Dərs 2

**Mövzu: Təfəkkür qəribə planetdir.**

**Dərsin tipi:** səyahət dərsi.

**Məqsədlər:**

- uşaqlarda şəxsi əqli imkanların refleksiyasının inkişafına təsir etmək;
- birlikdə (qrupda) fikirləşmək bacarığını inkişaf etdirmək;
- məntiqi fikirləşmək, yaradıcı düşünmək bacarığını inkişaf etdirmək;
- ümumiləşdirmə üzrə fikri əməliyyat aparmağı inkişaf etdirmək;

- anlama təfəkkürünü inkişaf etdirmək;
- assosiativ təfəkkürü, fantaziya və təxəyyülü inkişaf etdirmək;
- təfəkkürün çevikliyini inkişaf etdirmək;
- intellektual qabiliyyəti inkişaf etdirmək;
- yaddaşı və diqqəti inkişaf etdirmək.

**Dərsin gedişi**

– Uşaqlar, bizə yer planetinə qəribə Təfəkkür planetindən yad planetlilər uçub gəliblər (şəkillər asılır). Onlar sizinlə dostluq etmək istəyirlər. Onlar üçün maraqlıdır ki, siz necə oxuyursunuz? Başqa planetlilər öz təcrübələrini bizimlə bölüşdürmək istəyirlər. Bunun üçün onlar bizə maraqlı tapşırıq gətirmişlər. Gəlin biz qonaqlarımıza intellektika dərslərində necə inkişaf etməyinizdən danışaq.

Uşaqların cavabları:
– Yaddaşımızı inkişaf etdiririk.
– Təxəyyülümüzü inkişaf etdiririk.
– Diqqətimizi inkişaf etdiririk.
– Nitqimizi inkişaf etdiririk.
– Təfəkkürümüzü inkişaf etdiririk.

Müəllim:
– Əhsən! Bugünkü dərsimiz təfəkkürün inkişafına həsr olunub.

Başqa planetdən gələnlər məndən xahiş etdilər ki, sizə üç söz sütunu göstərim. Onlar üçün maraqlıdır ki, siz hər bir sütundakı artıq sözü tapa bilərsinizmi?

1. Tapşırıq: artıq sözün çıxarılması (ümumiləşdirmə fikri əməliyyatının inkişafı). Frontal iş.

Yazı taxtasında üç söz sütunu var:

| 1 | 2 | 3 |
|---|---|---|
| qəzəblənmək | sıçramaq | sevinmək |
| sözləşmək | qaçmaq | fikirləşmək |
| incitmək | tullanmaq | təccüblənmək |
| məyus olmaq | mühakimə yürütmək | şənlənmək |
| dərindən düşünmək | fırlanmaq | həzz almaq |

1) Birinci sütundakı sözləri oxuyun. Necə fikirləşirsiniz, bu sözlərin hansı artıqdır və nə üçün? (*düşünmək* sözü artıqdır). Bəs qalan sözləri bir sözlə necə adlandıra bilərik? (*pis hərəkət*).

*Düşünmək* sözü yazı taxtasından asılır.

2) İkinci sütundakı sözləri oxuyun və artıq sözü tapın. (Artıq söz *mühakimə yürütməkdir*. Qalan sözlər insan və heyvanların hərəkətlərini bildirir).

*Mühakimə yürütmək* sözləri yazı taxtasından asılır.

3) Üçüncü sütundakı sözləri oxuyun və artıq sözü tapın.

– *Fikirləşmək* sözü artıqdır. Qalan sözlər müsbət hissləri bildirir. *Fikirləşmək* sözü yazı taxtasından asılır.

– Uşaqlar! Bugünkü dərsdə bizim üçün başlıca sözlər *düşünmək, mühakimə yürütmək, fikirləşmək* oldu. Bu anlayışları hansı sözlə ümumiləşdirmək olar?

Müəllim uşaqların bütün mülahizələrini dinləyir:

– düşünmək;
– fikirləşmək;
– hesab etmək (mən belə hesab edirəm ki,);
– fikrini cəmləşdirmək;
– xəyal etmək, arzulamaq;
– anlamaq;
– seçmək, ayırd etmək;

– Deməli, bu gün biz intellekt dərsində düşünəcək, fikirləşərək, fikri cəmləşdirəcək, xəyal edəcək, anlayacaq, ayırd edəcəyik.

2. Frontal iş.

– Uşaqlar! Qarşımızda başqa planetdən gələnlərin yaşadıqları ev var. Evin sahibi tabaşirdir. Siz onun qonağı olmaq istəyirsinizsə, tabaşirin və stolunuzun üstündəki əşyaların ümumi əlamətlərini və xassələrini tapın.

Uşaqların stollarının üstündə aşağıdakı əşyalar var: tabaşir parçası, karandaşlar, bir vərəq ağ kağız, kəsilmiş həndəsi fiqurlar (dairə, üçbucaq, düzbucaqlı), bir parça çörək.

Xassə və fəaliyyət

| | |
|---|---|
| karandaş və tabaşir | Tabaşirlə yazırlar, şəkil çəkirlər.<br>Karandaşla da yazırlar və şəkil çəkirlər. |
| | |

Əlamətləri

| | |
|---|---|
| tabaşir və ağ kağız vərəqi | Rənginə görə oxşardır (ağdır). |
| tabaşir və düzbucaqlı | Formaca oxşardır (düzbucaqlıdır). |

–Uşaqlar! Tabaşir düzbucaqlı paralelepiped şəklindədir, lakin siz tabaşiri formaca müqayisə edəndə onun bir tərəfinə baxa bilərsiniz. Afərin, uşaqlar! Biz cəsarətlə evə daxil olub, bizim dostlarımızın daha hansı tapşırıq hazırlamaları ilə tanış ola bilərik.

3. **Təhlil və tərkib fikri əməliyyatın inkişafı. Fərdi iş.**

–Uşaqlar! Yazı taxtasında siz *lobya, saçlar, yol, fantaziya, rəf, təpə, qabaq, üst, yüksəklik, qarağat, ailə* sözlərini görürsünüz. (Uşaqların stollarının üstündə həmin sözlər yazılmış kartoçkalar var). Gəlin onları oxuyaq. Bütün sözlər sizə tanışmı?. *Qalaq* sözünün mənasını siz necə başa düşürsünüz? (çoxlu ərzaqın, başqa əşyaların qoyulduğu yer: məsələn, qızıl qalağı,). *Təpə* sözünün mənasını siz necə başa düşürsünüz? (təpə insanın başı, ağacın başı).

**Tapşırıq:** sizə verilmiş sözlərdən bacardığınız qədər çox söz düzəldin. Belə söz var, ona «matryoşka (kəndli qadın paltarında) söz» deyirlər.

**5. Qrup işi. Hər bir qrupun qarşısında mürəkkəb ləkələri olan vərəq qoyulub.**

– Gəlin indi sizinlə fantaziya yaradaq. Yad planetlilər bizə təsvir hədiyyəsi gətiriblər, lakin bunun nə olduğunu deməyiblər. Sizin vəzifəniz komandanın bütün üzvlərinin fikirlərini dinləmək, hər bir komandadan kimin çıxış edəcəyi barədə qərara gəlməkdir. (Uşaqlar öz fikirlərini deyir, vərəqləri yazı taxtasına yapışdırırlar).

- 1-ci qrupun versiyası: bənövşəyi rəngdə kukla, insan fiquru, şam, raket, ayı, kəpənək, zınqırov; qırmızı rəngdə divan, kareta, qırmızı şlyapa.
- 2-ci qrupun versiyası: narıncı rəngdə çiçək, alov, vaza, çilçıraq, fəvarə, yelpic; yaşıl rəngdə raket, ulduz, təyyarə, dinozavr.
- 3-cü qrupun versiyası: göy rəngli dovşanlar qucaqlaşırlar, itlər müxtəlif tərəflərə baxırlar; çəhrayı samovar, cücü, böcək.

– Bəs siz necə düşünürsünüz, nə üçün vərəqdə bir şəkil çəkilib, siz isə bir neçəsini görürsünüz? (Hər kəs aləmi bir cür görür). İndi çalışın bu təsvirləri çəkməyi davam etdirəsiniz. Onları sehrli, əfsanəvi şəkillərə çevirin. (Uşaqların cavabları yazı taxtasının qarşısında müzakirə olunur.)

– Afərin! Sizdə təxəyyül və fantaziya çox yaxşı inkişaf etmişdir. Siz bu gün çox yaxşı mühakimə yürütdünüz, düşündünüz, fikirləşdiniz, götür-qoy etdiniz.

**6. Qrup işi.**

1) – Uşaqlar! Gəlin öyrənək, yad planetlilər bizdə nə vaxta qədər qonaq olacaqlar? Bunun üçün biz məsələni həll etməliyik. 11 ədədi verilmişdir:

– Əgər bu yolda dairələr rastlaşarlarsa, ədəd 1 dəfə böyüyür.

– Əgər üçbucaqlar rastlaşarlarsa, ədədi 5 vahid azaldacağıq.

– Əgər kvadratlar rastlaşarlarsa, ədəd əvvəlki kimi qalır.

11 → ○ → □ → ○ → □ → △

2) –Uşaqlar, yad planetlilər sirli muncuq gətiriblər. Onlar sözlərə çevrilə bilər. Bunu oxumaq üçün biz əlifba sırasını bilməliyik.

- Birinci «muncuqda» M hərfini yazın.
- Üçüncü «muncuqda» əlifba sırasında M hərfindən əvvəl gələn hərfi sol tərəfdə yazın.
- Sonuncu «muncuqda» əlifbanın birinci hərfini yazın.
- Beşinci «muncuqda» əvvəldə və axırında D hərfini yazın.
- İkinci «muncuqda » axırda əlifba sırasında birinci hərfdən sonra gələn hərfi yazın.
- Sonra gələn «muncuqda» İ hərfini yazın.
- İkinci və dördüncü hərflər eynidir və əlifbada N hərfindən sonra gəlir.
- Sizcə, D və İ hərfləri arasında hansı hərfi yazmaq olar ki, bitmiş söz alınsın?



*Qeyd.* Bizim əlifbamıza uyğun buna bənzər tapşırıq vermək mümkündür:

• Birinci, altıncı və axırıncıdan əvvəlki «muncuqda» əlifba cədvəlindəki birinci hərfi yazın.

• Üçüncü «muncuqda» əlifba cədvəlində *f* hərfindən əvvəlki hərfi yazın.

• Axırıncı «muncuqda» əlifba cədvəlində *m* hərfindən sonrakı hərfi yazın.

• Beşinci «muncuqda» əlifba cədvəlindəki ikinci hərfi yazın.

• İkinci «muncuqda» əlifba cədvəlindəki sonuncu hərfi yazın.

• Səkkizinci «muncuqda» *c* hərfini yazın.

• Ondan əvvəlki «muncuqda» əlifba cədvəlində *z* hərfindən əvvəlki hərfi yazın.

• Dördüncü «muncuqda» əlifba cədvəlində *f* hərfindən sonrakı hərfi yazın.



3. Cədvələ diqqətlə baxın. Yerləşmiş rəqəmləri təhlil edin. Boş xanalara elə rəqəmlər yazın ki, bütün istiqamətlərdə cəm eyni (15) olsun. Fikrləşin, nədən başlamaq lazımdır.

| | | |
|---|---|---|
| | 9 | 4 |
| | | 3 |
| 6 | | |

**6. Dərsin refleksiyası.**

– Dərsdə nə planlaşdırılmışdı? Nə çətin idi?

– Qrupda əlbir işləmək alındımı? Razılığa gəlməyi bacardınızmı?

Məqalə rus dilindən tərcümə olunmuşdur. Вах. Современный урок: начальная школа, М.,2010, №6.

# İNFORMASİYA TEXNOLOGİYALARININ TƏTBİQİNƏ DAİR

**Nizami İsmayılzadə,**
ARTPİ- nin əlavə təhsilin nəzəri problemləri
şöbəsinin böyük elmi işçisi

**Açar sözlər**: ibtidai məktəb, informasiya texnologiyaları, müəllimin fəaliyyəti, əyanilik prinsipi, şagirdlərin fəallaşdırılması, kompyuter və müəllim, kompyuter və şagird.

**Ключевые слова:** начальная школа, информационная технология, деятельность учителя, принцип наглядности, повышение активности учащихся, компьютер и учитель, компьютер и ученик.

**Key words:** primary school, information technology, activities tension teacher, the principle of visibility, increase in student and teacher computer, the computer and the student.



Son illər respublikanın təhsil sistemində informasiya və kommunikasiya texnologiyaları geniş tətbiq edilməkdədir. Ölkə prezidenti cənab İlham Əliyevin 2008-ci il, 10 iyun tarixli sərəncamı ilə təsdiq edilmiş «2008-2010-cu illərdə Azərbaycan Respublikasında təhsil sisteminin infomasiyalaşdırılması üzrə dövlət proqramı»na əsasən təhsil sisteminin informasiya və kommunikasiya texnologiyaları ilə təchizi daha sürətlə həyata keçirilir. Dövlət proqramının əsas komponentlərindən biri də bu sahədə kadr hazırlığı problemi ilə əlaqədardır. Aydın məsələdir ki, pedaqoji kadr hazırlığı zəif olduqda təlim prosesi də keyfiyyətsiz olacaq. Kadr hazırdığının gücləndirilməsi və normativ-hüquqi bazasının təkmilləşdirilməsi bu gün aktual məsələlərdən biridir. Proqramın ən mühüm komponentlərindən biri pedaqoji kadrların təhsilinin təkmilləşdirilməsi və kompyuterlə işləmək bacarığının artırılmasıdır. Bu gün kompyuterin tətbiqi təlimin daha səmərəli şəkildə həyata keçirilməsinə imkan yaradır. Müəllim kifayət qədər kompyuter savadına malik olmasa, kompyuterin təlimdə tətbiqinə etinasız yanaşacaq və uğurlu nəticələr qazana bilməyəcəkdir. Təəssüf ki, bəzi müəllimlər, ümumiyyətlə, təlim vasitələrinə, o cümlədən, informasiya texnologiyalarına etinasız yanaşırlar. Belə müəllimlər kompyuter savadına lazımi səviyyədə yiyələnmirlər. Bununla belə, informasiya texnologiyalarının köməyi ilə tədrisi daha səmərəli quran və uğurlu nəticələr qazanan müəllimlər çoxdur.

İnformasiya texnologiyalarının tətbiqi müəllimi texniki işin ağırlığından xilas edir və yaradıcı fəaliyyətə daha çox vaxt ayırmağa imkan verir. Nəticədə faktik materiala dair biliklərin yoxlanması üçün mürəkkəb olmayan müxtəlif nəzarətedici vasitələr müvəffəqiyyətlə tətbiq olunur. Beləliklə, tədris materialı üzrə şagirdlər arasında sürətlə və vaxta qənaət etməklə sorğu aparmaq mümkün olur.

İnformasiya texnologiyalarının tətbiqinin səmərəliliyini düzgün qiymətləndirməkdən ötrü qavramanın psixoloji xüsusiyyətlərini bilmək vacibdir. Müəllim bir tərəfdən məlumat mənbəyi kimi informasiya texnologiyalarının təhsilləndirici, tərbiyələndirici, inkişafetdirici imkanlarına, digər tərəfdən şagirdlərin verilən biliyi mənimsəmə imkanlarına diqqət yetirməlidir.

İnformasiya texnologiyaları məktəblilərin təliminin təsvirlərlə əyaniləşdirərək, təlimdə elmi səhihlik prinsipini təmin edir, əşyaların başlıca əlamətlərini nümayiş etdirir. Beləliklə, informasiya texnologiyaları təlim prinsiplərinin müvəffəqiyyətlə həyata keçirilməsinə, şagirdlərin ən mürəkkəb proqram materiallarını asanlıqla başa düşmələrinə, qazanılmış biliklərin möhkəmləndirilməsinə şərait yaradır.

İnformasiya texnologiyalarının köməyi ilə problem-situasiya yaradılır və təfəkkürün fəallığı təmin olunur. Şagirdlər yeni biliklərin müstəqil əldə edilməsi üzrə axtarışlara cəlb olunurlar. Bu zaman əşya, fakt və hadisələri, onların oxşar və fərqli cəhətlərini ayırd etməyə kömək göstərən dinamik ekran vasitələri əvəzsiz rol oynayır. Beləliklə, məlum olur ki, informasiya texnologiyaları müəllim tərəfindən verilən hər hansı bir informasiyanı sadəcə əyaniləşdirən vasitə olmayıb, həm də sistemə salınmış materialları öyrənənlərə səmərəli yolla çatdıran vasitədir.

İnformasiya texnologiyalarının tətbiqi, adətən, müstəqil pedaqoji vasitə olmaqla dərsin məqsədinə uyğunlaşdırılmalıdır. Müəllim proqram materiallarını bu texnologiyaların köməyi ilə aydın və maraqlı şəkildə şagirdlərə çatdırır. İnformasiya texnologiyalarından istifadə, ənənəvi təlimdən fərqli olaraq, xüsusi hazırlıq tələb edir. Odur ki, bu istiqamətdə müəllim tərəfindən zəruri hazırlıq işləri görülməsə, informasiya texnologiyalarının tətbiqi lazımi nəticə verməyəcək.

Suallar ortaya çıxır: kompyuterlə iş prosesində müəllim hansı rolu oynayır? Kompyuter müəllimin rolunu azaltmırmı? Kompyuterin məktəbə gətirilməsi heç də onun müəllimin vəzifəsini yerinə yetirməsi məqsədini daşımır. Kompyuter müəllimi əvəz etmir. Müəllim yenə də təlim prosesində əsas sima olaraq qalır. İnformasiya texnologiyaları onu qismən əvəz edir, onun fəaliyyətini səmərələşdirir. Müəllim kompyuterdən istifadə etməklə az bir zamanda məktəblilərə hər hansı mövzuya aid çoxlu bilik, nəzəri məlumat verir. Kompyuterlərin aşağı siniflərdə tətbiqi imkanları daha genişdir.

İnformasiya texnologiyalarından zəruri hallarda istifadə edilməlidir. Texniki vasitələrdən yerli-yersiz istifadə o qədər də böyük səmərə vermir. Müəllim dərsə hazırlaşarkən informasiya texnologiyalarından necə istifadə edəcəyini əvvəlcədən planlaşdırmalıdır. Bu da, təbii ki, tədris fənninin xüsusiyyətlərindən, dərsin qarşısında duran didaktik vəzifələrdən, proqram materialından, məktəbin maddi bazasından və şagirdlərin yaşından çox asılıdır. Bunları nəzərə almaqla müəllim informasiya texnologiyalarından elə istifadə etməlidir ki, şagirdləri müstəqil biliklər qazanmağa, tədqiqat aparmağa həvəsləndirsin.

Doğrudur, kompyuterin ekranı kiçikdir, lakin indi əlavə qurğu buraxılır ki, onun vasitəsilə monitorda olan təsvir ekrana proyeksiya edilərək böyüdülür. Müəllim çalışmalıdır ki, şagird kompyuterin yaddaşına dəyişiklikləri daxil etmək, yol verilən səhvləri düzəltmək, xarici qurğuları kompyuterə qoşmaq, qurğunu işə salmaq, dayandırmaq və s. bacarıqlara yiyələnsin.

Təlimin kompyuterləşdirilməsi hər hansı ümumtəhsil fənni üzrə bilik, bacarıq və vərdişlərin qazanılmasına, əldə olunmuş bilik və məlumatların möhkəmləndirilməsinə, məktəblilərin idraki və yaradıcı qabiliyyətlərinin inkişafına, təlim-tərbiyədə idarəetmənin optimallaşdırılmasına kömək göstərir.

Belə üstün cəhətlərinə baxmayaraq, kompyuter heç də bütün təlim problemlərini yerinə yetirməyə qadir deyil, lakin bu da bir həqiqətdir ki, heç bir digər informasiya vasitəsi didaktik imkanlarına görə kompyuterlə müqayisə edilə bilməz. Bu üstünlük displeyin imkanları ilə bağlıdır.

İnformasiya və kommunikasiya texnologiyalarının tətbiqində mühüm şərtlərdən biri də müəllimin şəxsi kompyuterinin olmasıdır. Bu şərt yerinə yetirilərsə, müəllim dərsə hazır gələr, tədrisi daha səmərəli təşkil edər. Fikrimizcə, imkanı olmayan müəllimləri müəyyən güzəştlərlə kompyuterlə təmin etmək faydalı olar.

**Ədəbiyyat**

1. Cəfərova İ.Ə. Ümumtəhsil məktəblərində informasiya texnologiyalarından istifadə biliyin mənimsənilməsinin vasitəsi kimi. Diss. Bakı, 2008

2. Seyidov E. Təlim texnologiyaları və dəstəkli təhsil. «Azərbaycan məktəbi»,2003, №4

3. Orucəliyev N. Pedaqoji prosesdə kompyuter texnologiyalarının üstünlükləri haqqında. «Azərbaycan məktəbi», 2001, №2

4. Синти Гутман. Образование в информационном обществе. Издание ЮНЕСКО для Всемирного Саммита по информационному обществу. Санкт-Петербург, 2004

**Овнедрении информационных технологий.**

**Резюме**

В статье рассматриваются вопросы использования ИКТ в процессе преподавания в средних общеобразовательных школах. Характеризуются специфические формы и методы внедрения ИКТ в преподавании отдельных дисциплин. Особое внимание уделяется деятельности учителя в процессе внедрения информационных технологий. Отмечается важность овладения самими учителями достаточными знаниями для рациональной организации этой работы.

**The teachers role in implementing information technology.**

**Summary**

The article discusses the use of ICT in teaching in secondary schools. Characterized by specific forms and methods of ICT in the teaching of individual disciplines. Particular attention is paid to the teacher in the process of introducing information technology. Notes the importance of mastering them selves teachers sufficient knowledge for the rational organization of this work.

# TƏLİMDƏ NAİLİYYƏT QAZANMAĞIN YOLLARI

**Rüxsarə Mirzəyeva,**
Bərdə şəhər, 8 nömrəli orta məktəbin sinif müəllimi



**Açar sözlər:** kurikulum islahatı, tədrisin keyfiyyəti, demokratikləşdirmə, humanitarlaşdırma, diferensiallaşdırma, inteqrasiya, motivasiya.

**Ключевые слова:** реформы учебных программ, качество образования, демократизация, мотивация.

**Key words:** curriculum reform, quality education, democratization, humanization, the differentiation, of the integration, motivation.

Təlimi məqsədyönlü həyata keçirmək üçün ən səmərəli vasitə dərsdir. Dərsin tipi, səciyyəvi cəhətləri ilə əlaqədar elmi-pedaqoji və metodik ədəbiyyatlarda kifayət qədər zəngin materialların olmasına baxmayaraq, bu sahədə çalışan müəllimlərin qarşılaşdıqları problemlər həmişə mövcuddur. Azərbaycan təhsilində aparılan islahat işləri məhz müəllimlərin ixtisas hazırlığını günün tələbləri səviyyəsində qurmağı reallaşdırmaqdır. Doqquz il ibtidai sinif müəllimi kimi fəaliyyət göstərdiyimə baxmayaraq, hər gün informal təhsilimi artırmaq məcburiyyətindəyəm. Buna səbəb ilk növbədə pedaqoji prosesi təhsil islahatı prinsipləri (demokratikləşdirmə, humanistləşdirmə, inteqrasiya, diferensiallaşdırma) əsasında qurmağa nail olmaqdır. Tədris olunan hər hansı mövzunun təlim məqsədlərində bilmək, anlamaq, tətbiq etmək, təhlil etmək, tərkib etmək və dəyərləndirmək kimi mərhələləri gerçəkləşdirməklə biz təhsil islahatının prinsiplərindən faydalanmış oluruq. Deməli, dərsin keyfiyyətli alınması üçün bir-biri ilə qırılmaz şəkildə bağlı olan amillərdən səmərəli istifadə olunmalıdır. Dərsdə iştirak edən şagirdlərin şəxsiyyətyönümlü olmaları təkcə müəllimin fəaliyyəti ilə bitmir. Burada maraqlı olan bütün tərəflərin həmin prosesdə fəal iştirakı və şəffaflıq təmin olunmalıdır (demokratikləşdirmə).

Digər tərəfdən, öyrənənlərə qarşı münasibət dəyişməlidir. Şagirdin maraqları (motivasiya) həmişə önə çəkilməli, onun şəxsiyyətinə, əqli və fiziki imkanlarından, qabiliyyətlərindən asılı olmayaraq, ehtiram göstərilməli, istedad və bacarıqlarının üzə çıxarılmasına şərait yaradılmalıdır (humanistləşdirmə).

Artıq təhsilin məzmununun yeniləşməsi, kurikulum islahatının aparılması zərurəti reallaşmışdır. Üç ildir ki, I-III siniflərdə kurikulumun tələblərinə uyğun tədris işi aparılır. Burada başlıca məqsəd tədris edilən fənlərdə milli-mənəvi və bəşəri dəyərlər əsasında şəxsiyyətin inkişafına nail olmaqdır (humanitarlaşdırma).

Fənn kurikulummlarının hazırlanması və tətbiqi şagirdlərin müvafiq sistemli bilik, bacarıq, vərdişləri qazanmalarını təmin edir. Müxtəlif fənlərin tədrisi zamanı onların arasında mövcud olan təbii əlaqələrdən istifadə edərək öyrənənlərdə qlobal

düşüncə tərzinin, həmrəylik və məsuliyyətin formalaşması həyata keçirilir (inteqrasiya).

Təəssüf ki, tədris işi uzun illər öyrənənlərin fərdi xüsusiyyətləri, fiziki və əqli imkanları kifayət qədər nəzərə alınmadan aparılmışdır. Şagirdlərin təlim fəallığını şərtləndirən temperament (sanqvinik, fleqmatik, xolerik, melanxolik) ilk gündən müəyyən olunmaqla onların səviyyəyə görə potensialları nəzərə alınmalıdır (diferensiallaşdırma). Kurikulumda portfolionun tətbiqi mühüm əhəmiyyət daşıyır. Biz şagirdlərin tədris ili boyu şəxsi maraq, arzu, istək və tələbatlarının nəzərə alınmasına (fərdiləşdirmə) müvəffəq olmalıyıq. Bütün bu qeyd olunan cəhətlərin pedaqoji prosesdə həlli müasir təlim prinsiplərini dərindən mənimsəmək, peşə fəaliyyətini həmin əsasda qurmaqdan asılıdır.

Vaxtilə öyrəndiyimiz təlim prinsipləri, demək olar ki, qarşıya qoyulan məqsədlərin həllində əhəmiyyətli rol oynaya bilmir. Deməli, müəllim pedaqoji prosesdə dərsin mövzusuna müvafiq məqsədi nəticəyə uyğun şəkildə qurmaq bacarığı qazanmalıdır. Həmin prinsiplərin mahiyyəti ilə bağlı bəzi mülahizələrimi söyləməyi vacib sayıram. Bir qayda olaraq, prinsiplərdən istifadə mexanizmini tətbiq edərək onun məqamını müəyyənləşdirmək daha məqsədəuyğundur. II sinifdə Azərbaycan dili fənnindən "Mürəkkəb sözlər" mövzusunu tədris edərkən fəal təlimlə bağlı olan strategiyalardan faydalanıram. Bu zaman əsas diqqəti şagirdlərin fəallığına yönəltməyə çalışıram. Dərsin mərhələlərinə uyğun olaraq motivasiya yaradıram. İKT-dən istifadə edərək proyektor vasitəsilə aşağıdakı sözlərin görüntüsünü yazı taxtasına gətirirəm: *dəvə – quş; balıq – qulaq; it – burun; çoban – yastıq; ayaq – qab; kəklik – ot.*

Induktiv tipə aid olan bu dərsdə şagirdləri anlayışın çıxarılması üçün düşünməyə təhrik edərək, problemin (mürəkkəb sözlərin yaranması, onların fərqləndirilməsi, cümlədə işlənməsi yolları) həllində onların bərabərhüquqlu subyekt kimi tərəfdaşlığını təmin edirəm.

Növbəti mərhələdə iştirakçıları, fəal idrak prinsipinə uyğun olaraq, yeni biliklər qazanmağa sövq etmək üçün yazı taxtasında ox işarəsi ilə qeyd olunan sözlərdən hansı yeni sözlərin alındığını soruşuram. Şagirdlər çətinlik çəkmədən *dəvəquşu, balıqqulağı, itburnu, çobanyastığı, ayaqqabı, kəklikotu* sözlərini söyləyirlər.

Inkişafetdirici təlim prinsipini həyata keçirməklə şagirdlərin təfəkkürünü formalaşdırmaq, müstəqil şəkildə bilik və bacarıqların mənimsənilməsinə kömək edən bir qədər mürəkkəbləşdirilmiş tapşırıqların icrasını həyata keçirməyi onlara təklif edirəm, məsələn, yeni sözlər necə yarandı? Onları necə adlandırmaq olar?

Fikirlər dinlənilir, təhlil aparılır və gözlənilən nəticə əldə edilir. Yardımçı sualların köməyi ilə "mürəkkəb sözlər" cavabı səslənir. Mövzunu daha da genişləndirmək üçün tədqiqat sualı qoyulur:

–Mürəkkəb sözlər necə yaranır?

Burada qabaqlayıcı təlim prinsipinin imkanlarından istifadə olunur. Bu zaman şagirdlər problemli sualın həlli üçün zəruri olan informasiyaları müstəqil əldə etmək üçün və onların düzgün istifadə və tətbiqinə şərait yaratmaqla qruplarda

tədqiqat işi aparırlar. Təlim məqsədinə uyğun olaraq qruplara işçi vərəqləri paylanır. Bir qrupun işçi vərəqini nümunə göstərirəm.

### İşçi vərəqi 1

1. Verilmiş sözlərdən mürəkkəb olanlarını seçib, altından xətt çəkin.

Balıqçı, tozsoran, sənətkar, qaragöz, quşüzümü, kitabxana, Günay, acgöz, dəmirçi, Aygün.

2. Birinci tapşırıqda verilən mürəkkəb sözlərdən üçünü cümlədə işlədin.

Şagirdlər bu mərhələdə təlim-tərbiyə sisteminin çevikliyi, əməkdaşlıq, dialoqlu təlim prinsiplərindən kompleks şəkildə istifadə etməklə axtarışlara səfərbər olunurlar. Yaranan əməkdaşlıq (müəllim – şagird, şagird – şagird) şagirdlərin özünə inamını artırır. Bu zaman ən incə məqam müəllimin şagirdi dəstəkləməklə təlim üçün daha əlverişli mühit yaratmağa müvəffəq olmasıdır. Şagirdlərin məlumat mübadiləsi, müzakirəsi, eləcə də nəticə və ümumiləşdirmə aparmalarında bir-biri ilə qırılmaz surətdə bağlı olan müasir təlim prinsiplərindən düzgün faydalanmaq başlıca şərtdir. Dərsin müasirliyi məhz prinsiplərin reallaşmasını təmin edən fəal təlim strategiyalarından lazımınca dəyərlənməsi ilə səciyyələnir. Şagirdlərin kollektiv, qruplarla, cütlərlə və fərdi işləri meyar cədvəli üzrə qiymətləndirilir.

Müasir təlim prinsiplərinin tətbiqi müəllimdən ixtisasartırma istiqamətində informal təhsil almağı tələb edir. Buna nail olmaqla kurikuluma əsaslanan tədrisdə nailiyyət qazanmaq mümkündür.

### Ədəbiyyat

1. Ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün fənn kurikulumları. Bakı, "Təhsil", 2008.
2. Azərbaycan Respublikasında ümumi təhsilin konsepsiyası. (milli kurikulumu) . "Azərbaycan məktəbi", 2007, №2.
3. Kərimov Y.Ş., Kərimova E.Y. II sinifdə Azərbaycan dili dərsləri. Bakı, "Nasir", 2005.
4. Kərimov Y.Ş. "Təlim metodları". Bakı, "RS Poliqraf" MMC, 2009.

### Пути достижения успеха в обучении.

**Резюме**

В статье рассказывается о способах достижения успеха в современном обучении Следует отметить, что для претворения в жизнь целесообразного обучения оно должно быть построено на основе принципов реформы образония (демократизация, гуманитаризация, интеграция, дифференциация ). В статье так же освещается тема «Сложные слова» во II классе.

### The ways to achieve success in today's training.

**summary**

This article shows you how to succeed in today's education should be noted that forimplementation of appropriate training it should be ¬ Th is built on principles of reform ofeducation (democratization, humanization, integration, differentiation). The article alsohighlights the theme of "Compound words" II in the classroom.

# İNTERAKTİV TƏLİM ÜZRƏ İŞİN TƏŞKİLİ

**Cəmilə Bəhmənova,**
AMİ-nin baş müəllimi



**Açar sözlər:** interaktiv təlim, planlaşdırma, tədqiqat, dərsin quruluşu, dərsin tipləri, motivasiya, qiymətləndirmə və refleksiya, metodlar və priyomlar.

**Ключевые слова:** интерактивный метод обучения, планирование, исследование, структура урока , типы уроков, мотивация, оценивание и рефлекция, методы и приемы.

**Key words:** interactive method of teaching, planning, research, lesson structure, the types oflessons, motivation, evaluation and reflektsiya, methods and techniques.

Təlim keyfiyyətinin yüksəldilməsinə xidmət edən interaktiv təlim metodu hər bir müəllim tərəfindən həyata keçirilməlidir. Bu metodu həyata keçirmək üçün müəllimin ilk növbədə planlaşdırma bacarığı olmalıdır. Dərsin uğuru onun bütün mərhələlərinin əvvəlcədən düzgün planlaşdırılmasından asılıdır.

İnteraktiv təlim metodu yeni biliklərin kəşfi məqsədilə tədqiqatın aparılmasına əsaslanır. Buna görə də dərs tədqiqatın aparılma qanunlarına uyğun qurulur.

İnteraktiv dərsin quruluşu aşağıdakı kimidir.

**Dərsin mövzusu:**

**Standart:...**

**Təlimin məqsədi:** öyrədici, inkişafetdirici, tərbiyəedici.

**Dərsin tipi:** induktiv (deduktiv).

**Dərsin növü:** bədii, elmi.

**İş forması:** cütlərlə (böyük və ya kiçik qruplarla, fərdi) iş.

**Metod və priyomlar.**

**İnteqrasiya:** fəndaxili, fənlərarası.

**Resurslar:** istifadə olunan ləvazimatlar.

**Dərsin mərhələləri**

**I mərhələ: Motivasiya** (5 dəq.). Motivasiya hər hansı bir fəaliyyətin mexanizmini işə salan sövqedici vasitədir. İnteraktiv dərsdə motivasiya onun vacib komponenti, təfəkkür prosesini hətəkətə gətirən və şagirdlərin idrak fəallığına təkan verən prosesdir.

**II mərhələ: Tədqiqat sualı** (2 dəq.). Bu zaman mövzu ilə bağlı problem qoyulur.

**III mərhələ – Tədqiqatın aparılması** (15 dəq.). Tədqiqat işi fərziyyələri yoxlamaq və tədqiqat sualına cavab tapmaq üçün faktların axtarılmasıdır. O, müxtəlif formalarda aparıla bilər. Əsas üsul tədqiqat sualını geniş şəkildə açıqlayacaq müxtəlif tipli və təfəkkürün bütün növlərini inkişaf etdirən tapşırıqların və ya sualların verilməsidir.

**IV mərhələ – İnformasiya mübadiləsi və müzakirənin təşkili** (12 dəq.). Şagirdlər arasında aparılan informasiya mübadiləsi və tədqiqat işinin təqdimatı onlarla birlikdə müzakirə olunur. Müxtəlif faktlar arasında əlaqələr axtarılır, onların təsnifatı, sistemləşdirilməsi həyata keçirilir.

**V mərhələ – Nəticənin çıxarılması** (5 dəq.). Müəllim şagirdlərlə birlikdə müzakirə olunan informasiyanı ümumiləşdirir və dərsi tədqiqat sualına cavab verən son nəticə ilə yekunlaşdırır. Nəticə fərziyyələrlə müqayisə edilir. Onların təsdiq və ya ya təkzib edilməsi haqqında qərar çıxarılır.

**VI mərhələ – Yaradıcı tətbiqetmə. Ev tapşırığı** (3 dəq.). Sinifdə və ya evdə uşaqların bacarığına uyğun, təcrübə və biliklərin tətbiqi yollarının dərk olunmasına kömək edən tapşırıqlar verilir. Biliklərin mənimsənilməsinin başlıca meyarı onun yaradıcı surətdə tətbiqidir. Yaradıcı tətbiqetmə biliyi möhkəmləndirir, onun praktik əhəmiyyətini açıb göstərir. Müəllim şagirdlərə yeni biliklərin yaradıcı sürətdə tətbiqinə dair çalışmalar verməlidir.

**VII mərhələ – Qiymətləndirmə və refleksiya** (3 dəq.). (Dərsin hər mərhələsində aparıla bilər.) Dərs başa çatdıqdan sonra göstərilən fəaliyyətlərdən biri refleksiyadır. Refleksiya – artıq başa çatmış prosesin şüurda inikasıdır. Təlim prosesinin refleksiyası biliklərin mənimsənilməsinin bütün mərhələlərini təhlil etməyə və dərindən başa düşməyə imkan verən başlıca yollardan biridir. Refleksiyanı həyata keçirmək üçün şagirdlərə onları yeni bilginin kəşfinə gətirib çıxarmış təlim prosesinin mərhələlərini izləməyə kömək edə biləcək bir neçə sual vermək kifayətdir (Biz kəşfə necə gəlib çıxdıq? Biz nə edirdik? Qarşıya qoyulmuş problemin həllində sizə nə kömək etdi? və s.). Beləliklə, şagird öz tədqiqat fəaliyyətinin əsas mərhələlərini dərk etmiş olur.

Nümunə üçün II sinifdə "Şuşa" mətninin tədrisi üzrə dərsin təşkilini nəzərdən keçirək:

**Mövzu:** "Şuşa".

**Standartlar: 1.1.2.** – Dinlədiyi fikrə münasibətini bildirir.

**2.1.4.** – Öyrəndiyi yeni sözləri cümlə içərisində işlədir.

**2.2.5.** – Kiçikhəcmli mətnləri müəyyən olunmuş tələblərə uyğun düzgün, sürətli, ifadəli, şüurlu oxuyur.

**Məqsəd:**

- Şuşa haqqında şagirdlərin biliklərini dəqiqləşdirmək və onlara yeni məlumatlar vermək;
- şagirdlərdə vətənə sevgi, məhəbbət, şəhidlərə hörmət, düşmənlərə nifrət hissini möhkəmləndirmək.
- işğal olunmuş torpaqların azad olunacağına əminlik yaratmaq.

**Dərsin tipi:** induktiv.

**İş forması:** kiçik qruplarla iş.

**Metodlar və priyomları:** BİBÖ, beyin həmləsi.

**Fəndaxili inteqrasiya:**

**Resurslar:** Azərbaycan Respublikasının xəritəsi, Şuşa şəhərini əks etdirən şəkillər, işğal olunmuş rayonları əks etdirən plakat, işçi vərəqləri

**Canlandırma mərhələsi:** Azərbaycanın hansı şəhər və rayonlarını tanıyırsınız? Şagirdlər dairə şəklində dayanırlar. Hər şagird Azərbaycanın bir rayonunun adını deyir. Müəllim şagirdlərin cavablarını yazı taxtasında yazır.

**Dərsin gedişi**

**1. Motivasiya** (5 dəq.)

Şagirdlər Zülfiyyə Xanbabayevanın ifasında "Şuşanın dağları" mahnısını dinləyirlər.

Müəllim:

– Uşaqlar, sizcə, niyə bu mahnını dinlədik?

Şagirdlərin fərziyyələri dinlənilir. Müəllim yazı taxtasında mövzunun adını yazır və BİBÖ-nün cədvəlini çəkir.

**2. Tədqiqat sualı** (2 dəq.). Şuşa şəhəri haqqında nə bilirsiniz? Şuşa şəhəri hansı ölkəyə aiddir? Tədqiqat sualı yazı taxtasına yazılır.

**3. Tədqiqatın aparılması** (15 dəq.). Şagirdlər kiçik qruplara bölünürlər. "Şuşa" mətni şagirdlərə paylanır. Mətnlə tanış olmaq üçün şagirdlərə 5 dəqiqə vaxt ayrılır. Sonra materiallar yığılır. Hər qrupa işçi vərəqləri verilir, vaxt müəyyənləşdirilir.

**I qrupun sualı:** Şəhərə bu ad kimin tərəfindən və nəyə görə verilmişdir?

Cavab:

– Şuşa Azərbaycanın ən gözəl şəhərlərindən biridir. Şəhərə "Şuşa" adını Qarabağ xanı Pənahəli xan vermişdir. Bu ad şəffaf dağ havasının rəmzi olan "şüşə" sözündən götürülmüşdür. Keçmişdə xanın şərəfinə bu şəhəri "Pənahabad" da adlandırırdılar.

**II qrupun sualı:**

Şuşa şəhəri nələri ilə məşhurdur?

Cavab:

– Qədim, yaraşıqlı, keçilməz divarları, məşhur bulaqları, mineral suları, Şuşadan başqa heç bir yerdə bitməyən xarı bülbül çiçəyi, Cıdır düzü, təmiz, saf havası ilə məşhurdur.

**III qrupun sualı:** Şuşada hansı memarlıq və incəsənət abidələri vardır?

Cavab:

– Şuşada 170 memarlıq abidəsi, 160 incəsənət abidəsi, şairə və rəssam Xurşudbanu Natəvan, dahi bəstəkar Üzeyir Hacıbəyov, görkəmli müğənni Bülbülün ev muzeyləri, qala divarları və s. kimi abidələr olmuşdur.

**IV qrupun sualı:** Niyə Şuşanı "Şərqin konservatoriyası" adlandırırlar?

Cavab: –Şuşa musiqinin beşiyidir. Bu şəhər Azərbaycana görkəmli sənətkarlar bəxş etmişdir. Xalqımızın layiqli övladları – Bülbül, Xan Şuşinski, Seyid Şuşinski, Üzeyir Hacıbəyov kimi sənətkarlar bu torpaqda yetişmişlər.

**V qrupun sualı:** Şuşa faciəsi haqqında nə deyə bilərsiniz?

Cavab:

–1992 ci il, mayın 8-də Ermənistan Şuşanı işğal etdi, tarixi abidələri viran qoydu.

Qarabağ və Şuşa Azərbaycan dövlətinin ayrılmaz hissəsidir. Atalar deyiblər ki, torpaqdan pay olmaz. İnanırıq ki, dövlətimiz yaxın gələcəkdə Şuşanı və bütün Qarabağı qaytaracaq. Cıdır düzündə yenidən mahnı bayramı keçirəcəyik.

**4. İnformasiya mübadiləsi və müzakirənin təşkili.** (13 dəq.)

Hər qrupun lideri öz işləri haqqında məlumat verir və işçi vərəqlərini yazı taxtasından asır. Qrupların işləri müzakirə edilir. Şagirdlər müəllimə diqqətlə qulaq asır və müzakirədə iştirak edirlər. Bir qrupun işi müzakirə olunarkən başqa qrupun uşaqları sual verə və təklif irəli sürə bilərlər. Müəllim diqqəti tədqiqat sualına yönəldir.

**5. Nəticə və ümumiləşdirmə.** (5 dəq.)

Təkrarən BİBÖ texnikasına qayıdılır. Şagirdlərin yeni öyrəndikləri üçüncü sütunda qeyd edilir.

| Bildiklərimiz | İstəyirik bilək | Öyrəndiklərimiz |
|---|---|---|
| Şuşa Azərbaycanın qədim şəhəridir. | Şuşa nə vaxt azad olacaq?. | Şuşanı mütləq azad edəcəyik. |
| Şuşanı Ermənistan işğal edib. | Şuşada tarixi abidələr durur-mu?. | Qələbəni Cıdır düzündə qeyd edəcəyik . |

Müəllim:

– Şuşa haqqında daha nə deyə bilərsiniz?

Şagirdlər:

– Qədim Şuşa bir çox ölkələrlə ticarət edirmiş.

– Şuşada Soyuq bulaq, Qotur bulaq, İsa bulağı, məşhur Turşsu yaylağı olduğunu deyə bilərik.

– Şuşanın işğalı zamanı 200 nəfər şəhid olmuşdur.

Müəllim:

– Deyə bilərsinizmi, daha hansı rayonlarımız işğal olunub?

Şagird:

– Xocalı, Ağdərə, Xocavənd.

– Ağdam, Füzuli, Laçın.

– Cəbrayıl, Qubadlı, Zəngilan, Kəlbəcər.

**6. Produktiv tətbiqetmə.** (2 dəq.)

a) Siz Şuşanı almaq üçün nələr edərdiniz?

b) Valideynlərinizdən xarı bülbül gülü haqqında məlumat alın.

c) Şuşa haqqında şəkillər, yeni məlumatlar toplayın.

d) Azərbaycanın hansı milli pulunda xarı bülbül gülünün şəkli var? (20 manatlığın üzərində.)

**7. Qiymətləndirmə və refleksiya.** (3 dəq.)

| № | Qruplar / Meyarlar | 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|---|---|
| 1 | Mövzuda əsas ideyanı tapır. | | | | | |
| 2 | Sürətli, düzgün, ifadəli, şüurlu oxuyur. | | | | | |
| 3 | Düzgün nəticə çıxarır. | | | | | |
| 4 | Əməkdaşlıq edir. | | | | | |

Qiymətləndirmə və refleksiya dərsin bütün mərhələlərində aparıla bilər.

**Ədəbiyyat**


1. Ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün fənn kurikulumu. Bakı, 2008.
2. Z.Veysova. Fəal və interaktiv təlim. (Müəllimlər üçün vəsait.) Bakı, 2007.
3. Y.Ş.Kərimov. Təlim metodları. Bakı, 2009.
4. "Kurikulum", 2008, №1.


**Организачия работы по интерактивному обучению.**


**Резюме**

Интерактивный метод обучения основывается на новые исследования современных знаний. Поэтому активный метод планируется на основе соответсвующего графика. Основой берется ход урока, которая подразделяет мотивацию, проведение исследования, вывод итогов и т. д.


**Interactive training course on the structure and stages**


**Summary**

The interactive method of training is based on new researches of modern knowledge. The refore active method of the doctrine is planned on the basis of the appropriate diagram. By a basis the course of a lesson undertakes which subdivides motivation, realization of research, conclusion of results etc.

In clause the provisional text gives the text about Shusha, seized by the Armenian terrorists.


# ŞAGİRDLƏRDƏ HANSI RİYAZİ KEYFİYYƏTLƏR İNKİŞAF ETDİRİLMƏLİDİR?


**Aygün Məcidova,**

Bakı Avropa liseyinin ibtidai siniflər üzrə direktor müavini, pedaqogika üzrə fəlsəfə doktoru





**Açar sözlər:** təhsil islahatı, milli kurikulum, riyaziyyat təliminin keyfiyyəti, əşya və hadisələr, keyfiyyət və kəmiyyət, diqqət və iradənin inkişafı, yaddaş, fəza təfəkkürü, riyazi yaradıcılıq.

**Ключевые слова:** реформа образования, национальный куррикулум, качество преподавания математики, вещи и события, качество и количество, развитие внимания и воли, память, пространственное мышление, математическое творчество.

**Key words:** education reform, the national curriculum, the quality of mathematicsteaching, things and events, qualitative and quantitative, iradənin the development ofattention and memory, spatial thinking, mathematical creativity.

Müstəqil Azərbaycan Respublikasının yeni təhsil standartları əsasında tərtib olunmuş milli kurikuluma əsasən islahat uğurla həyata keçirilir. Kurikulumda deyilir: «Yeni qurulan təhsildə şagirdlərin idraki inkişafının parametrlərini nəzərə almaq, ona imkan və şərait yaratmaq əsas amil hesab edilir. Təhsili bilavasitə inkişafyönümlü bir proses kimi stimullaşdırmaq və şəxsiyyəti formalaşdırmaq əsas vəzifəyə çevrilir».

Məktəbdə riyaziyyat təliminin keyfiyyəti üç problemin həllindən asılıdır:

- İbtidai mərhələdə riyaziyyatı nə üçün öyrənmək lazımdır?
- Riyaziyyatdan nələri öyrənmək lazımdır?
- Riyaziyyatı necə öyrənmək lazımdır?

Bu problemlər riyaziyyat təliminin metodik sistemini təşkil edir. Bunun reallaşdırılması üçün şagirdi riyaziyyatı mənimsəməyə hazırlamaq lazımdır. Şagird əməyi təlim olduğu üçün ona öyrənmənin yollarını öyrətmək vacibdir. Şagirdlərin zehni əməyində müəyyən sistem və ardıcıllığa riayət etməklə onlarda aşağıdakı bacarıqlar, əqli keyfiyyətlər inkişaf etdirilməlidir:

- ətraf aləmdəki əşya və hadisələri müşahidə etməyi bacarmaq;
- əşya və hadisələri keyfiyyət və kəmiyyətinə görə müqayisə etməyi bacarmaq;
- təlim prosesində diqqət və iradənin inkişaf etdirilməsi, yaddaşın möhkəmləndirilməsi;
- fəza təfəkkürünün inkişaf etdirilməsi;
- riyazi yaradıcılığın inkişaf etdirilməsi.

Sadalanan problemlər təlim və ya müstəqil əqli fəaliyyət prosesində qarşılıqlı əlaqədə olub, biri digərini tamamlayır. Hər bir şagird riyaziyyatı öyrənərkən fənnə marağını əks etdirməli, əməyinin nəticəsinə sevinməlidir.

Yuxarıda qeyd olunan problemləri ardıcıl nəzərdən keçirək.

Riyaziyyatı öyrənmək, həmin bilikləri həyatda tətbiq etməyi bacarmaq üçün aşağıdakı bacarıq və əqli keyfiyyətlərə malik olmaq lazımdır. Şagird müşahidə etdiyi cisim və ya hadisəni digərindən fərqləndirməyi, onların xassələrini, miqdari münasibətlərini ayırmağı və riyaziləşdirməyi, obyektlərin oxşar və fərqli cəhətlərini müqayisə etməyi bacarmalıdır. Əlbəttə, şagird həm də diqqətli və iradəli olmalıdır. Möhkəm yaddaşa, fəza təsəvvürünə, mühakimə aparmaq qabiliyyətinə malik olan şagird riyazi bilikləri asanlıqla mənimsəyir.

Riyaziyyatın ibtidai kursunda şagirdlər ədədləri, onların xassələrini, onlar üzərində aparılan əməlləri, cəbr və həndəsə elementlərini, ehtimal nəzəriyyəsini, statistika elementlərini tədris proqramının tələbləri səviyyəsində mənimsəyirlər.

I-IV siniflərin riyaziyyat kursu inteqrativ kurs olmaqla onun tədrisində məsələ və misalların həlli üstün yer tutur. Nəzəri elementlərin ibtidai siniflərdə öyrədilməsi əyani, konkret-induktiv əsasda reallaşdırılır.

I sinifdən başlayaraq, şagirdlər hesab əməli nəticəsinin iki şəkildə yazılışı ilə tanış edilirlər: $a + b = c$ münasibətində c ədədi əməlin nəticəsi olub, cəmi göstərir, lakin $a + b$ ifadəsi də cəmi ifadə edir. Digər hesab əməlləri ilə əlaqədar

da buna bənzər terminlərdən istifadə olunur, məsələn, a : b = c isə, burada a : b qisməti ifadə edir, lakin c ədədi bölmə əməlinin nəticəsidir. Bu kimi terminoloji məsələlər I-IV siniflərdə hər bir hesab əməli tədris olunduğu zaman təkrarlanır.

Şagirdlər tənliklərin həlli ilə tanış olarkən əməlin nəticəsi ilə komponentləri arasındakı əlaqədən istifadə edirlər. III-IV siniflərdə həll edilən tənliklərdə əməlin komponenti təkcə konkret ədəd deyil, müəyyən ədədi ifadə də ola bilər, məsələn, (38 + 5) + x = 46; (x - 42) + 8 = 12 və s.

Təcrübə göstərir ki, şagirdlər belə misalların həllində çətinlik çəkir, mötərizə daxilindəki ifadəni riyazi əməlin komponenti kimi qəbul edə bilmirlər. Belə çətinliklərin aradan qaldırılması üçün ədədin və ya məchul daxil olan ifadələrin müqayisəsinə aid çalışmalara çox yer vermək lazımdır. Bu məqsədlə çalışma nümunələrini nəzərdən keçirək:

– İfadələri oxuyun və əməllər sırasını göstərin:

(29 + 37) : 11; (73 - 44) · 2; (77 sm – 39 sm) : 2

(99 - 34) : 13; (39 + 36) : 15; (62 kq – 34 kq) : 7

Belə çalışmalarda şagirdlərdən ifadəni həm konkret, həm də ümumi şəkildə ifadə etmək tələb olunur. 1-ci misalda: «29 və 37 ədədlər cəminin 11-ə bölünməsi» və daha konkret «cəmin ədədə bölünməsi».

– Ədədi ifadələrin yazılması və qiymətlərinin hesablanmasına aid riyazi imla:

a) Birinci toplanan 64, ikinci toplanan 29-dur. Bu ədədlərin cəmini tapın.

Bu çalışmanın digər ifadə variantları ilə də şagirdləri tanış etmək lazımdır:

– 64 ədədini 29 vahid artırın. 29 ədədini 64 ədədinə əlavə edin.

–16 ədədi 30 ədədindən nə qədər azdır? 18 ədədi 90 ədədindən neçə dəfə azdır? 90 ədədi 18 ədədindən neçə dəfə çoxdur? Alınan cavab hansı əməlin nəticəsidir?

–Ədədi ifadələri yazın və qiymətini əlverişli üsulla hesablayın:

1) 25 və 33 ədədlərinin cəmindən 3 çıxın.
2) 54 və 9 ədədlərinin cəminə 26 əlavə edin.
3) 45 ədədinə 5 və 29 ədədlərinin cəmini əlavə edin.
4) 32 ədədindən 18 və 2 ədədlərinin cəmini çıxın.

Belə çalışmalar riyazi imla xarakteri daşımaqla, əməlin komponentləri ilə nəticəsi arasındakı əlaqələrin mənimsədilməsinə xidmət edir.

Mötərizəsiz ifadələrdə əməllər sırasının yerinə yetirilməsinə aid çalışmalar şagirdlərin kobud səhvlərə yol vermələrinin qarşısını alır. Əməllər sırasına aid iki qayda – 1-ci pillə əməlləri (toplama və çıxma), 2-ci pillə əməlləri (vurma və bölmə) xüsusi qeyd olunmalıdır.

– İfadələrdə oxşar və fərqli cəhətləri göstərin, ifadələrin qiymətlərini müqayisə edin:

1) 3 • (12 – 20 : 4) və 3 • 12 – 20 : 4
2) 36 : (6 + 3 • 2) və (36 : 6 + 3) • 2
3) 73 – 17 + 29 və 73 – (17 + 29)

4) 72 : 6 • 2 və 72 : (6 • 2)

Bu çalışmalarda şagirdlərdən əməllər sırasına və komponentlərdən birinin dəyişməsilə əməl nəticəsinin dəyişməsinə aid biliklər tələb olunur. Belə ki, 1-ci çalışmadakı oxşar və fərqli cəhətlər həmin ifadələrin həm formasına, həm də ədədi qiymətlərinə görə müəyyən edilir. 1-ci halda 12 – 20 : 4 ifadəsi 3 dəfə artırılır, 2-ci halda isə həmin ifadənin azalanı 3 dəfə artırılır. Buna görə şagird verilmiş ifadələrin ədədi qiymətlərini müqayisə etməyi bacarmalıdır.

– İfadələrin qiymətlərini hesablamadan onları müqayisə edin və müvafiq işarəni (=, >, <) yazın.

1) (432 + 17 • 5) • 2 və (432 + 16 • 5) • 2

2) (876 + 90 : 18) – 420 və (876 + 90 : 16) – 420

3) (365 – 169 : 13) • 4 və (365 – 169 : 13) • 5

4) 96 : (2 • 8) və 96 : (4 • 4)

Belə çalışmalarda şagirdlər ilk növbədə mötərizə daxilindəki ifadəyə diqqət yetirməli, onları müqayisə etməli, sonra mötərizə xaricindəki vuruqları nəzərə almalıdırlar, məsələn, 17 • 5 > 16 • 5 olduğundan, 1-ci ifadənin ədədi qiyməti böyükdür.

Hesab əməlləri ilə əlaqədar ədədlərin xassələrini öyrətməyə xidmət edən çalışmalara vaxtaşırı yer vermək lazımdır.

– Buraxılmış rəqəmləri bərpa edin:

| | | | |
|---|---|---|---|
| * 8 4 * | * 1 * 9 | 3 7 8 0 | 2 * 2 |
| + | + | + | x |
| 2 * * 3 | * * 1 7 | * * * * | 6 |
| 6 5 2 9 | * 0 8 4 6 | 5 7 6 4 | 1 * 5 2 |

Belə çalışmalarda toplama, vurma əməlləri ilə əlaqədar toplama və vurma cədvəllərinə aid biliklərdən istifadə olunur.

Şagirdlərin fəza təsəvvürlərinin inkişaf etdirilməsinə aid çalışmalara, demək olar ki, hər dərsdə yer vermək lazımdır. Bu çalışmalar məzmunu etibarilə həndəsi fiqurlar və onların xassələrinə, həm də həndəsi kəmiyyətlərə aid ola bilər.

– Şəkildə bütün üçbucaqları və dördbucaqlıları göstərib adlandırın.

Göstəriş: şəkildə təsvir olunmuş həndəsi fiqurun tərkibində məsələnin tələbinə uyğun 4 üçbucaq, 5 dördbucaqlı və 1 trapesiya vardır.



Belə məsələləri əyanilәşdirməklə tərs məsələ də qurmaq olar: verilmiş hissələrə görə fiqurun bərpa edilməsi.

Verilmiş fiquru damalı kağızda təsvir edib, ayrı-ayrı fiqurların sahələrini hesablamağı şagirdlərə həvalə etmək olar. Sahə ölçü vahidi kimi 1 xana (damalı dəftərdə) götürmək olar.

– Şəkildə təsvir olunmuş fiqurun tərkibindəki üçbucaqları göstərin. Üçbucaqların bir tərəfi AB parçası olmalıdır.




Belə çalışmalar şagirdin müşahidə qabiliyyətini artırmaqla bərabər fəza təsəvvürlərini də inkişaf etdirir.

Şagirdlərin riyazi yaradıcılığını inkişaf etdirmək məqsədilə onlara aşağıdakı məsələləri vermək olar:

– Bağban yığdığı 24 kq alça ilə 32 kq gavalını hər biri 8 kq tutan yeşiklərə yerləşdirdi. Meyvələri yerləşdirmək üçün neçə yeşik lazım oldu?

Məsələnin həlli zamanı şagirdlərin qarşısında müxtəlif üsullardan istifadə etmək tələbi qoyulur.

– Bağban sıra ilə 7 alma tingi əkdi. Tinglər arasındakı məsafə 3 metrdirsə, birinci tinglə sonuncu ting arasında məsafə nə qədər olar?

Bu məsələni modelləşdirmə və hesab yolu ilə həll etmək olar. Şagird bu məsələnin həllində ən optimal variantı təqdim etməli və ümumi nəticə çıxarmalıdır.

3. 16 m uzunluğunda lenti 2; 4; 8 bərabər hissəyə ayırmaq üçün neçə dəfə kəsmək lazımdır?

Bu məsələnin həllində hesablamaya ehtiyac yoxdur. Şagird fikrini izah etməli və nəticə çıxarmalıdır.

Məqsədimiz şagirdlərin riyazi müşahidəçilik, ədədləri (fiqurları) müqayisə etmək, hesab əməllərinin xassələrinə istinadən hesablama bacarıqlarının, əqli keyfiyyətlərinin inkişaf etdirilməsinə istiqamətləndirməkdir.

**Ədəbiyyat**


1. Моро М.И. и др. Методика преподавания математики в I-IV классах. Москва, «Просвешение», 2002.
2. Фридман Л.М. Учитесь учиться математике. Москва, «Просвешение», 1985.
3. Həmidov S.S. I-IV siniflərdə riyaziyyatın tədrisi metodikası. Bakı, ADNA, 2006.
4. Məcidova A.Ə.III sinifdə riyaziyyat. Bakı, «Çaşıoğlu», 2010.
5. Ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün fənn kurikulumları. Bakı, «Təhsil», 2008.


**Какие качествы необходимы развивать при обучении математике**


**Резюме**

В статье рассмотрены следующие вопросы:

- цели обучения математике в I-IV классах;

- главные проблемы обучения математике;

- с чего начинается математическая грамотность младшешкольников;

- образцы упражнений – предназначенные практической подготовки младшешкольников.

**Which factors are necessary at mathematics training for I – IV classes pupils?**

**Summary**

There have been considered the following questions in the article:

- Learning goals of mathematics in I – IV classes;
- Main problems in learning of mathematics;
- What is beginning mathematic literacy of primary class pupils from;
- Samples of exercises – for practical preparing of primary class pupils.

# ИНТЕГРИРОВАННЫЙ УРОК МАТЕМАТИКИ И ТРУДОВОГО ОБУЧЕНИЯ

**Голубева Е.А.,**

учитель высшей квалификационной категории,
соавтор турнира способностей им.В.В.Давыдова
«Мыслю, знаю,действую»,педагогический стаж 26 лет



**Тема : Сравнение площадей** ( 3-й класс)

**Цели :** Обучающий аспект:

- научиться находить площадь фигур способом «подсчета мерок» и сравнивать площади фигур;
- учиться составлять макеты и схемы.

Развивающий аспект:

- развивать мыслительные операции анализа (при разбиении фигуры на части) и синтеза (при создании макета дома);
- расширять кругозор (знакомство с профессиями);
- развивать фантазию и воображение;
- развивать мелкую моторику.

Воспитательный аспект:

- воспитывать культуру ручного труда;
- формировать умение самооценки своей работы;
- воспитывать культуру общения и взаимодействия на уроке.

Тип урока: Урок изучения и первичного закрепления новых знании.

Оборудование:

- ножницы,клей,прямоугольник,разбитый на 10 квадратиков, модели «зеленых насаждений».
- таблички со словами.
- сайт WWW. moskarta.ru москарта.ру.

Структура урока: Этапы : актуализации (подготовительный), усвоения нового знания,первичной проверки, итог на рефлексивной основе.

Единица содержания: Способ сравнения площадей различных фигур методом подсчета мерки.

Формирование ключевых компетенций :

- учебно-познавательная (целеполагание, анализ работы,самооценка),
- коммуникативная (работа в паре).

Граница знания– незнания:

- учащиеся знают и умеют: сравнивать площади методом наложения;
- учашиеся не знают и не умеют: сравнивать площади фигур спосо – бом мерки.

## ХОД УРОКА

| Содержание деятельности учителя | Содержание деятельности ученика |
|---|---|

## 1.ПОДГОТОВИТЕЛЬНЫЙ ЭТАП

<table>
<tr><td colspan="2">Задачи этапа:<br>1.Организационный момент.<br>2.Постановка целей урока.<br>3.Актуализация опорных знаний.<br>Содержание учебного материала (СУМ): работа с квадратиками, сравнение площадей методом напожения.<br>Форма работы: фронталыная, индивидуальная.<br>Метод: репродуктивный</td></tr>
<tr><td colspan="2">Организационный момент</td></tr>
<tr><td>Ребята, сегодня у нас с вами замечательный урок. Каждый из вас сможет стать архитектором и сделать макет своего дома. К концу урока у нас появится проект нового района Москвы.</td><td></td></tr>
<tr><td>А кто такой архитектор? (После ответов вывешивается табличка: архитектор –…).</td><td>Ответы детей.</td></tr>
<tr><td>Итак, начинаем. Проверьте, пожалуйста, все ли готово к уроку и оцените себя в Листе успеха.</td><td>Ребята проверяют наличие бумаги, ножниц, клея и делают соответствующую запись в Лист успеха.</td></tr>
</table>

| Постановка целей урока. Актуализиция знаний | |
|---|---|
| Для строительства нового микрорайона нам выделили участок земли. Мы должны подготовить свои проекты и узнать, хватит ли места нашим домам на этом участке. | Сделать макеты, сравнить площади. |
| Вы умеете сравнивать площади. Как вы это делаете? Каким способом мы это делали? (Вывесить на доске слово **наложение**) | Наложением |
| Оцените свои знания и умения | Работа с Листом успеха |
| Посмотрите на наш город с высоты спутника (www.moskarta.ru) | |
| А это карта. Как изображены дома? | В виде геометрических фигур |
| Значит, наша задача – сделать макеты домов. Они будут плоскими или объемными? | Если эта карта, схема, то плоским |
| У нас на партах есть прямоугольники. Они разбиты на квадраты. Разрежьте прямоугольники на квадраты. Сравните их площади. *(Необходимо уточнить, что квадратик – это мерка, а все мерки должны быть одинаковыми. Плохие квадраты выбраковываются)* | Ученики сравнивают площади квадратов |
| А можно еще как-то сравнить? | Посмотреть |
| Такой метод называется **визуальным** *(На доске проявляется новое слово* **визуально**) | |
| А всегда ли можно сравнить площади этими способами? Я предлагаю вам ещё одну цель урока: найти способ сравнения площадей. (По ходу диалога) вывешиваются цели урока | |
| Так как нам предстоит работа в парах, напомните правила работы в паре. | • Выслушивать мнение того, с кем работаешь в паре.<br>• Работать дружно.<br>• Находить общее решение.<br>•Уметь его изложить (представить) всему классу. |

| |
|---|
| **II. ЭТАП ОТКРЫТИЯ НОВЫХ ЗНАНИЙ**<br>Задачи этапа:<br>1. Сделать макет дома.<br>2. Закрепить умение сравнивать площади методом наложения.<br>3. Найти способ сравнения площадей.<br>Содержание учебного материала (СУМ): макеты домов, которые составили ученики из квадратиков.<br>Форма работы: парная.<br>Метод: продуктивный. |

| | |
|---|---|
| **Практическая работа: выполнение аппликации** | |
| Вспомнить правила техники безопасности | Повторяют правила безопасной работы с ножницами:<br>• Ножницы на парте должны всегда лежать закрытыми.<br>• В руки ножницы берем только во время работы.<br>• Передавать ножницы ручками вперед |
| Для своего проекта вы можете использовать любое количество квадратиков | Идет работа в парах. Ученики наклеивают и вырезают свои «дома». |
| Условие: их нельзя разрезать, накладывать один на другой. Форма фигуры – ваше творчество. Старайтесь, чтобы наш город был красивым и интересным. После того, как вы наклеили квадратики, вы должны вырезать макет дома, чтобы мы могли прикрепить его на наш план микрорайона | |
| **Сравнение площадей полученных фигур** | |
| Сравните площадь своей фигуры с площадью фигуры, которая получилась у ваших соседей. Как вы это делаете? | Наложением |
| **Открытие способа нахождения площади** | |
| Всем удалось сравнить наложением? *(Подготовить макет дома, который нельзя сравнить наложением)* | Нет |
| Как быть? | Варианты ответов |
| | |

| | |
|---|---|
| Да, наши фигуры разбиты на квадраты. Перед работой мы их сравнивали. Площади этих квадратов равны. Можно их пересчитать и сравнить количество? Сосчитайте, найдите площадь своей фигуры в квадратиках. | Ученики считают площадь дома в квадратах |
| Какой мы использовали способ? | Подсчет квадратиков |
| Что для этого сделали? (*Вывешивается табличка* **«Подсчет марок»**) | Фигура была разбита на равные квадратики, мы их посчитали. |
| Важно ли то, что фигура разбита на равные квадратики? | Да |
| Итак, что мы делали? Фигура была разбита на равные квадратики, мы их пересчитали и узнали площадь фигуры в квадратиках. Квадратики – это мерка для измерения площади фигуры.В математике есть специальный знак – буква для обозначения площади.Это латинская буква S.<br>Запишем, чему равны ваши площади | Фигура была разбита на равные квадратики, мы их пересчитали и узнали площадь фигуры в квадратиках. Запись результатов на доске |

**Сравнение площадей полученных фигур**

| | |
|---|---|
| Теперь мы можем сравнить площади фигур? Как будем это делать? | Чье значение больше, та площадь и больше |
| Чей дом займет больше всего места в нашем микрорайоне? | Ученики находят самую большую площадь. |
| Чей дом займет самую маленькую площадь? | Находят фигуру с самой маленькой площадью |

**III. ЭТАП ПЕРВИЧНОЙ ПРОВЕРКИ**

Задачи этапа:

1. Проверка понимания нахождения площади способом подсчета мерок.

Содержание учебного материала (СУМ): макеты «клумб» и «зеленых насаждений».

Метод: продуктивный

| | |
|---|---|
| Давайте прикрепим макеты наших домов на план микрорайоны | Учащиеся прикрепляют свои работы |
| Красивый у нас город? Оцените свою работу | Ученики оценивают свои работы |
| Все дома нам удалось разместить? | Да |
| Что из этого следует? | Площадь участка земли больше площади домов |
| Чего не хватает нашему микрорайону? | Зелени |
| У меня есть макеты клумб, деревьев. Ваша задача найти их площадь и узнать, | Идет подсчет площадей |

| | |
|---|---|
| у кого самый большой участок зеленых насаждений | |
| Давайте озеленим наш микрорайон. | |
| Красивый город? | |
| Давайте найдем самый большой зеленый участок. | Учащиеся сравнивают площади |
| Какую площадь занимают ваши зеленые насаждения? Как это узнать? | Ответы учащихся. Подсчет суммы площадей |

**IV. ИТОГ НА РЕФЛЕКСИВНОЙ ОСНОВЕ**

Задачи этапа:

1. Дать анализ успешности достижения цели и наметить перспективу последующей работы.
2. Оценить работу каждого на уроке.

Содержание учебного материала (СУМ): листы успеха.

Форма работы: индивидуальная, фронтальная.

Метод: продуктивный, репродуктивный.

| | |
|---|---|
| Итак, что же мы делали сегодня на уроке, чему научились? | Делали макеты домов. Находили площади фигур. Сравнивали площади фигур. |
| Какие цели у нас стояли? | Закрепить способ сравнения площадей методом наложения, найти новый способ сравнения площадей |
| Как мы умели сравнивать? | Наложением |
| Нашли новый способ? В чем он заключается? | Разбить фигуры на равные квадратики, подсчитать их количества, сравнить количество квадратиков. |
| Понравилось ли вам на уроке? | |
| А нравится ли вам наш микрорайон? Чего не хватает на нашем плане? | Детских площадок, магазинов, водоема и т.д. |
| Это и будет вашим домашним заданием. Спроектировать тот объект, которого, на ваш взгляд, не хватает, и посчитать его площадь | |
| А как вы думаете? Это удобный способ нахождения площади? Почему? | Варианты ответов |
| Да, математика - наука точная и 1 см во всем мире – это 1 см, а 1 м – это везде 1 м. Значит, необходима точная мерка для измерения площади. Это задача урока математики. Найти такую универсальную единицу измерения площади и научиться ее использовать для вычисления площади геометрических фигур | |

# TƏHSİL SİSTEMİNDƏ QİYMƏTLƏNDİRMƏ

**Murtuza Mustafayev,**
ADU-nun pedaqogika kafedrasının baş müəllimi,
**Hürzad Verdizadə,**
Bakıdakı 14 nömrəli orta məktəbin müəllimi





**Açar sözlər:** monitorinq və qiymətləndirmə, kvalimetriya, strategiya, diaqnostika, təhsil standartları, qiymətləndirmə konsepsiyası, diaqnostik, formativ və summativ qiymətləndirmə.

**Ключевые слова:** мониторинг и оценивание, квалиметрия, стратегия, диагностика, учебные стандарты, концепция оценивания, диагностическое, формативное и суммативное оценивание.

**Key words:** monitoring and evaluation, kivalimetry, strategy, diagnostics, education standarts, evaluation conception, diagnostic, formative and summative evaluation.

Son zamanlar respublikamızda, bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də geniş islahatlar aparılır. «Bu islahatların əsas məqsədi, cəmiyyətin ehtiyac və tələbləri nəzərə alınmaqla, təhsilin keyfiyyətini yüksəltmək və onun inkişafını təmin etməkdir.» (Azərbaysan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası.)

Həmin islahatlarda irəli sürülən tələblərə uyğun olaraq, hazırda respublikanın təhsil sistemində şagirdlərin təlim nailiyyətlərinin qiymətləndirilməsi və monitorinqi ən aktual problemlərdən biri hesab olunur. Təlim prosesində şagirdlərin nailiyyətləri barədə obyektiv məlumatların əldə edilməsi və dövlət standartlarının monitorinqinin həyata keçirilməsi üçün müasir qiymətləndirmə mexanizmlərinin yaradılması mühüm əhəmiyyət kəsb edir.

Qeyd etmək lazımdır ki, cəmiyyətin inkişafının müxtəlif dövrlərində təlim fəaliyyətinin qiymətləndirilməsi və monitorinqi məsələsi həmişə müəyyən marağa səbəb olmuş və xüsusi tədqiqat obyektinə çevrilmişdir. Hələ keçən əsrin 80-ci illərində ilk dəfə Hollandiyada təhsil sahəsində şagirdlərin təlim nailiyyətlərinin qiymətləndirilməsi üzrə Milli İnstitutun (SİTO) əməkdaşları tərəfindən aparılan monitorinqdə hər bir şagirdin təlim prosesindəki fəaliyyəti və müəllimlərin bu işə təsir etmə imkanları öyrənilmişdir.

«Şagirdlərin biliklərinin inkişafı üzrə monitorinq» anlayışı təhsil sisteminə daxil edildikdən sonra monitorinq və qiymətləndirmə sistemi dünyanın bir çox ölkələrində geniş tətbiq olunmaga başlanmışdır. Böyük Britaniya alimi A.Et-

son, J.H.Stronq və digər tədqiqatçı alimlər ibtidai siniflərdə işin effektivliyinin monitorinqi üzrə faydalı tədqiqat işləri aparmışlar. Burada monitorinq sistemi ,əsasən, «giriş-çıxış» modeli əsasında aparılmışdır. Tədqiqat zamanı, giriş modelinə uyğun olaraq,şagirdlərin ailədə sosial-iqtisadi şəraiti, hər bir şagirdin qabiliyyətlərinin ümumi xarakteristikası öyrənilmiş, məktəbin ümumi şəraiti, maddi-texniki bazası və təlim-tərbiyənin səviyyəsi də nəzərə alınmışdır. Bu isə, hər bir məktəbdə təlim sahəsində qazanılmış nəticələrin müəyyənləşdirilməsinə, səmərəli təhsil sisteminin qurulmasına imkan verir.

Rusiyada isə keçən əsrin sonlarında şagirdlərin ümumi hazırlığının, təlim nailiyyətlərinin qiymətləndirilməsi məqsədi ilə monitorinq keçirilmiş və şagirdlərin ümumi hazırlığı üzrə monitorinq sisteminin yaradılması istiqamətində geniş tədqiqatlar aparılmışdır. Bu baxımdan rus alimi E.A.İsayevin rəhbərliyi altında aparılmış tədqiqatlar xüsusi əhəmiyyət kəsb edir. Tədqiqat zamanı «pedaqoji monitorinq» anlayışı və onun spesifik xüsusiyyətləri ətraflı təhlil olunmuşdur. Həmin monitorinq vasitəsi ilə ölkə səviyyəsində təhsilin inkişaf meyilləri və strategiyaları müəyyənləşdirilmiş, regional səviyyədə təhsil prosesinin modeli hazırlanmış və şəxsiyyətyönümlü təhsilin əsas məzmunu, mahiyyəti geniş təhlil olunmuşdur.

Azərbaycanda isə təhsil sistemində monitorinq və qiymətləndirmə mexanizminin tətbiqinə əsasən son illərdə başlanmış və 2000-ci illərdə respublikamızda həmin məsələ ilə bağlı mətbuatda,elmi-pedaqoji ədəbiyyatda M.C.Mərdanov, A.O.Mehrabov, R.A.Ağamalıyev, A.B.Cahangirov, T.B.Qardaşov, A.H.Əliyev, T.K.Səfərov və başqaları çıxış edərək təhsil sisteminin idarə olunmasının müasir problemləri, monitorinq və qiymətləndirmə, müasir yanaşmalardan optimal istifadə məsələlərinə dair faydalı fikirlər irəli sürmüşlər.

Aparılmış tədqiqatlar və alınan nəticələrin təhlili göstərir ki, «monitorinq» və «qiymətləndirmə» anlayışları ilk baxışda eyni məna daşısa da, onların məzmunu və fəaliyyət dairəsi bir-birindən xeyli fərqlənir. İngilis dilində *izləmə, müşahidə, korreksiya işlərinin aparılması* mənasını verən *monitorinq* anlayışını daha ümumi şəkildə belə ifadə etmək olar: «Monitorinq – müəyyən prosesin dinamikasını öyrənmək, real və ilkin vəziyyətin uyğunluğunu müəyyənləşdirmək məqsədi ilə daimi müşahidə aparmaq və ya insan ilə əlaqədar ətraf mühitdəki dəyişikliklərin müşahidəsi, qiymətləndirilməsi və proqramlaşdırılması sistemidir.» (Qardaşov T.B.,Cavadov İ.A. Təhsildə monitorinq sistemi və onun növləri.)

Keçən əsrin 90-cı illərindən başlayaraq təhsil sahəsində aparılan işlərin səmərəliliyini, effektivliyini araşdırmaq məqsədi ilə monitorinq təhsil sistemində geniş tətbiq olunmağa başlandı. Qeyd etmək lazımdır ki, «monitorinq» sözü «qiymətləndirmə» anlayışına nisbətən daha geniş əhəmiyyət kəsb edir. Ümumiyyətlə, monitorinq – diaqnostika, proqnozlaşdırma və korreksiya kimi ayrı- ayrı mərhələləri xarakterizə edən üç əsas sütun üzərində dayanır. Burada qiymətləndirmə ilə yanaşı qiymətləndirilən prosesin gələcək inkişafını

təmin etmək, keyfiyyət göstəricilərini yüksəltmək üçün korreksiya işlərinin aparılması planlaşdırılır və həyata keçirilir. Ənənəvi olaraq uzun müddət «qiymətləndirmə» anlayışına yalnız təlim prosesində şagirdlərin necə oxuduqlarının müəyyən edilməsi vasitəsi kimi baxılmışdır, lakin son zamanlar məsələ ilə əlaqədar aparılan tədqiqatlardan və araşdırmalardan məlum olldugu kimi, qiymətləndirmə (dəyərləndirmə) daha geniş anlayış olub, istənilən SAhədə, ümumiyyətlə, cəmiyyətin inkişafı ilə bağlı bütün sahələrdə bu və ya digər şəkildə istifadə olunur. «Qiymətləndirmənin əsas məqsədi təhsil sisteminin işini yaxşılaşdırmaq, onun yenidən qurulmasında bələdçilik etmək və bu barədə müəyyən qərar qəbul edilməsində yardımçı olmaqdır.» (Mehrabov A.,Cavadov S. Ümumtəhsil məktəblərində monitorinq və qiymətləndirmə.)

Məlum olduğu kimi, təlim prosesində və təhsil müəssisəsinin fəaliyyətinin qiymətləndirilməsi problemi ilə pedaqogikanın mühüm bir sahəsi olan **pedaqoji kvalimetriya** məşğul olur. **Kvali** – latın dilində **keyfiyyət**, **metreo** isə yunan dilində **ölçürəm** deməkdir. Pedaqoji kvalimetriyanın əldə etdiyi materiallara pedaqoji prosesin və onun ayrı-ayrı sahələrinin keyfiyyətlərinin öyrənilməsinin başlıca məqsədi (aləti) kimi baxılmalıdır.«Keyfiyyətin yüksəldilməsinə təsir edən faktorları öyrənmək və onları düzgün qiymətləndirəcək inkişafa gedən yolun – gələcək strategiyanın dəqiq müəyyənləşdirilməsini təmin etmək aktual problem kimi qarşıya qoyulur.» (Mərdanov M., Ağamalıyev V.R., Mehrabov A., Qardaşov T. Təhsil sistemində monitorinq və qiymətləndirmə.) Bunun üçün, ilk növbədə, qiymətləndirmə sahəsində mövcud olan elmi və nəzəri yanaşmaları, proses iştirakçılarının fəaliyyətini müəyyənləşdirmək xüsusi əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 yanvar, 2009-cu il tarixli, 9 nömrəli qərarı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının ümumtəhsil sistemində Qiymətləndirmə Konsepsiyası»nda irəli sürülən hər bir müddəa onun nəzəri əsası olan təcrübəyə əsaslanır. Həmin konsepsiyada təlim-tərbiyə işinin təkmilləşdirilməsi, respublikamızın ümumtəhsil məktəblərində şagirdlərin təlim nailiyyətlərinin qiymətləndirilməsi barədə obyektiv məlumatların əldə edilməsi və dövlət standartlarının monitorinqinin həyata keçirilməsi üçün müasir qiymətləndirmə mexanizmlərinin yaradılması mühüm vəzifə kimi qarşıya qoyulmuşdur. Konsepsiyada təlim keyfiyyətlərinin müəyyənləşdirilməsində ən etibarlı mənbə obyektiv qiymətləndirmə hesab olunur: «Təhsilin keyfiyyətinin müəyyənləşdirilməsində əsas göstərici şagirdin təlim nəticələri olduğundan, həmin nəticələrin obyektiv qiymətləndirilməsi də keyfiyyəti üzə çıxaran ən etibarlı mənbə hesab olunur.» (Azərbaycan Respublikasının Ümumtəhsil Sistemində Qiymətləndirmə Konsepsiyası.)

Konsepsiyada respublikamızın orta ümumi təhsil sistemində məktəbdaxili qiymətləndirməni həyata keçirmək üçün əsas istiqamətlər müəyyən edilmişdir. Qiymətləndirmə **diaqnostik, formativ** və **summativ** olaraq formal və qeyri-formal şəkildə aparılacaqdır.

Yeni qiymətləndirmə sistemi ilə əlaqədar ölkəmizdə aparılan müəyyən araşdırmalar və bu sahədə beynəlxalq təcrübənin təhlili göstərir ki, yuxarıda qeyd olunan həmin qiymətləndirmə növlərindən istifadə olunması məqsədəuyğundur.

**İlkin səviyyənin qiymətləndirilməsi** (diaqnostik qiymətləndirmə) şagirdlərin mövcud bilik, bacarıqlarını müəyyən etməkdə və təlimin düzgün qurulmasında müəllimə müəyyən kömək göstərir. Bu zaman düzgün istiqamətləndirilmiş şagird öyrənilmiş materialın təkrarına artıq vaxt itirmir, ona aydın olmayan material qalmır. İlkin səviyyənin qiymətləndirilməsi zamanı qoyulan suallar bir-biri ilə elə əlaqələndirilməlidir ki, şagirdin həmin mövzu dairəsində nə kimi bilik və bacarıqlara malik olduğunu müəyyənləşdirmək mümkün olsun. Şagirdlərin ilkin təlim nailiyyətlərini həm ayrı-ayrılıqda, həm qrup şəklində, həm də bütün sinif üzrə diaqnostik qiymətləndirmək olar.

**Şagird irəliləyişlərinin monitorinqi** (formativ qiymətləndirmə) vasitəsilə şagirdlərin müxtəlif mövzular üzrə mənimsəmə səviyyəsi öyrənilir və dərs prosesində müəllim şagirdlərin fəaliyyətini izləyir. Bu zaman hər bir şagirdin uğursuzluqlarının səbəbləri araşdırılır, zəif və güclü tərəfləri aşkar edilir, ehtiyacları öyrənilir və tədrisin keyfiyyətinin yüksəldilməsi üçün zəruri tədbirlər həyata keçirilir. Bu məqsədlə əvvəlcədən müəyyən hazırlıq işləri aparılmalı, qiymətləndirmə yollarından və vasitələrindən düzgün istifadə olunmalıdır. İşin bu cür təşkili müəllimə tədris prosesini düzgün tənzimləməyə, geridə qalan şagirdlərin problemlərini öyrənməyə, onlara əlavə kömək göstərməyə, hər bir şagirdin ugur qazanmasında müəyyən qədər yardımçı olmağa imkan verir. Hər bir şagirdin fəaliyyəti müəllimin daim nəzarətində olmalı və problem yekun qiymətləndirmədən əvvəl aradan qaldırılmalıdır. Bu, bir növ müntəzəm xarakter daşımalı, hər ay və ya iki aydan bir şagirdlərin standartlar üzrə nailiyyətlərinin ümumi monitorinqi təşkil olunmalıdır.

**Yekun (summativ)** qiymətləndirmə – məktəblər (məktəb rəhbərliyi) və ya yuxarı orqanlar (rayon və şəhər təhsil şöbələri, nazirlik) tərəfindən qiymətləndirmə standartları üzrə müəyyən edilmiş normalara şagirdlərin hansı səviyyədə nail olduqlarını öyrənmək məqsədilə aparılır. Bu qiymətləndirmə növünü bir mövzunun və ya bölmənin tədrisindən sonra, yaxud tədris ilinin axırında aparmaq olar.

Summativ (yekun) qiymətləndirmənin aparılmasının əsas məqsədi şagirdlərin qazandıqları biliklərin tətbiqinə hansı səviyyədə nail olduqlarını müəyyənləşdirməkdən ibarətdir. Bu zaman həmin səviyyəni müəyyən etmək üçün qiymətləndirmə standartlarından istifadə olunur

Summativ qiymətləndirmə proqram materiallarının səmərəliliyini və müəllimin fəaliyyətini dəyərləndirməyə imkan verir. Məlum oldugu kimi, hər bir tədris müəssisəsinin fəaliyyəti və nüfuzu həmin məktəbin şagirdlərinin qazandıqları ümumi balların miqdarına görə müəyyən olunur.

Ümumtəhsil məktəblərində qiymətləndirmə şagirdlərdə bilik, bacarıq və vərdişlərin formalaşmasına müsbət təsir göstərməklə yanaşı, onların ümumi inkişafına da kömək edir. Qiymətləndirmə zamanı müəyyən tələblərin və normaların gözlənilməsi şagirdlərin təlimə məsuliyyətini və marağını daha da artırır, onlarda yüksək nailiyyətlər qazanmağa həvəs yaradır.

**Ədəbiyyat**

1.Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası. «Azərbaycan müəllimi» qəzeti, 6 fevral, 2009.

2..Mərdanov M.,Ağamalıyev V.R.,Mehrabov A.,Qardaşov T. Təhsil sistemində monitorinq və qiymətləndirmə. Bakı, «Çaşıoglu», 2003.

3.Шишов С., Кальней В. Мониторинг качества образования в школе. Москва, Педагогическое общество России, 1999.

4.Cəlilova F. Təhsilin keyfiyətinin qiymətləndirilməsinin əsas istiqamətləri. Bakı, 2007.

5.Mehrabov A., Cavadov S. Ümumtəhsil məktəblərində monitorinq və qiymətləndirmə. Bakı, «Mütərcim»,2007.

**Оценивания в учебной системе**

**Резюме**

В статье рассказывается о главной сущности мониторинга и оценива-ния в учебной системе, применение его в учебном процессе и о важности оценивания для повышения уровня учащихся.

**The main essence of the monitoring and evaluation in teacing system**

**Summary**

The main essence of the monitoring and evaluation in teaching system, it's practice in teaching process, and the evaluation in the quality development are shown in the article.

# KİÇİKYAŞLI MƏKTƏBLİ ŞƏXSİYYƏTİNİN İNKİŞAFINDA ÖZÜNÜQİYMƏTLƏNDİRMƏNİN ROLU

**Pərvanə Talıbova,**

Bülbül adına orta ixtisas musiqi məktəbinin sinif müəllimi



**Açar sözlər:** özünüqiymətləndirmə, psixoloji metodlar, praksimetrik metod, psixodiaqnostik metod, sosial status.

**Ключевые слова:** самооценивание, психологические методы, праксиметрический метод, психодиагностический метод, социальный статус.

**Key words:** self-assessment, psychological metods, praksimetrichesky method, of psychodiagnostic methods, social status.

Psixoloji ədəbiyyatda uşaqlığın ikinci mərhələsi kiçik məktəb yaşı kimi səciyyələnir. Bu dövrdə uşağın həyatında əsas amil onun sosial statusunun dəyişməsidir. Belə ki, o, məktəbli olur. Yeni həyat tərzi, məsuliyyət və öhdəliklərlə üzləşir. Bu mərhələ uşağın həyatının bütün sahələrində

əsaslı dəyişikliklər yaradır.

Bu gün ibtidai təhsil pilləsində bir çox psixoloji metodlardan – psixodiaqnostik metodun tətbiqini təmin edən testlərdən, praksimetrik metod olan məlumatın, görülmüş işin qiymətləndirilməsindən geniş istifadə edirik. Bütün bunlar hələ məktəbəqədər mərhələdə özünüqiymətləndirmə ilə tanış olan uşağın dərketmə prosesini daha da inkişaf etdirir. Məktəblinin özünüdərketmə prosesində özünüqiymətləndirmənin rolu böyükdür. Özünüdərketmə uşağın özünə münasibətini əks etdirir. Bu münasibət öz ifadəsini özünüqiymətləndirmədə tapır.

Kiçikyaşlı məktəbli artıq şəxsi imkanlarını, uşaqlar arasında yerini düzgün qiymətləndirə bilir. Bu baxımdan hər bir uşaqda özünüqiymətləndirmə səviyyəsi müxtəlif olur. Onlar hər hansı fənn üzrə nailiyyətlərini yüksək qiymətləndirirlərsə, digər fənndən orta, başqasından isə aşağı qiymət almaları haqqındakı fikirlərini belə ifadə edirlər:"Ruslan riyaziyyatı məndən yaxşı bilir, çünki məsələni düz həll edir.","Mən ingilis dilini yaxşı mənimsəyirəm, sözləri düzgün tələffüz edirəm.","Fidanın gözəl səsi olduğu üçün mahnını hamımızdan yaxşı oxuyur."və s. Göründüyü kimi, kiçikyaşlı məktəbli artıq qiymətləndirmə zamanı məsələnin mahiyyətini düzgün təhlil etməyə, müqayisə aparmağa çalışır və buna, əsasən, nail olur.

Bəzən müəllim şagirdlərin zehni qabiliyyətlərini və təlim maraqlarını inkişaf etdirməyə çalışır, lakin onların özünüqiymətləndirmə və şəxsi bacarıqlarını, eləcə də bu keyfiyyətlərin təlim prosesində inkişaf etdirilməsini nəzərə almır. Özünüqiymətləndirmə zəif və yüksək göstəricilərin səbəblərinin, səhvlərə münasibətin və bir sıra başqa cəhətlərin dərk olunmasına şərait yaradır. Buna görə də müəllim təlimdə müvəffəqiyyət əldə edə bilmək üçün ilk növbədə kiçikyaşlı məktəblilərdə özünüqiymətləndirməni inkişaf etdirməlidir.

Kiçikyaşlı məktəblinin özünüqiymətləndirmə apara bilməsi üçün ən sadə yol öyrəndiyi mövzunu başqalarına (valideynlərinə, yoldaşlarına) təkrarən danışmasıdır. Bununla o, mövzunu yaxşı öyrənib-öyrənmədiyini yoxlayır. Ümumiyyətlə, kiçikyaşlı məktəbli öz bilik və bacarığını hər hansı formada yoxlamağı bacarmalıdır. Bu, özünüqiymətləndirmə və özünəinamı gücləndirir.

Kiçikyaşlı məktəbli özünüqiymətləndirmə aparmağı bacarırsa, tədricən onda özünə tənqidi yanaşma və tələbkarlıq da inkişaf edir. Əgər I sinif şagirdi özünü ancaq müsbət nöqteyi-nəzərdən qiymətləndirir, uğursuzluqların səbəbini müəllimin obyektiv qiymət verməməsində, yaxud vaxt çatışmamazlığında görürsə, II-III siniflərdə o, artıq özünə tənqidi yanaşa bilir, səhvlərini görür. Bu da özünüqiymətləndirmənin inkişaf etməyə başladığını göstərir. Əgər I sinif şagirdinin özünüqiymətləndirməsi müəllimin və ya valideynin verdiyi qiymətdən asılıdırsa, II-III siniflərdə o, daha sərbəst olur, hətta müəllimin verdiyi qiymətin nə dərəcədə obyektiv olduğunu dəyərləndirməyi bacarır. II sinif şagirdi deyir: "Müəllim bir səhvimə görə mənə "4" verdi, ancaq iki səhv buraxdığı halda, Fuada "5" verdi." Beləliklə, kiçikyaşlı məktəbli ilk ədalətsizliklə qarşılaşır. Buna görə də müəllim

çalışmalıdır ki, şagirdə verilən qiymət onun həqiqi biliyi ilə üst-üstə düşsün. Bu, həqiqət və ədalət tələb edən bir prosesdir, müəllim isə ədalətin təmsilçisi olmalıdır.

Bəzən belə hallar da baş verir ki, uşaqlarda özünüqiymətləndirmə səviyyəsi eqoist hisslərlə tənzimlənir. O, daim özünə məxsus olan hər şeyi başqalarınkından üstün qiymətləndirir. Bu halda müqayisə metodundan istifadə edilmir. Yaxşı olar ki, həyati faktlarla müqayisə aparılsın.

Şagirdin müntəzəm özünü qiymətləndirməsi tədris prossesində maraqlı psixoloji məqamlardan biridir. Bu, şagirdin özünüidarə bacarığını inkişaf etdirir, öz zəif və üstün cəhətlərini görməyə və fərqləndirməyə imkan verir. Özünüqiymətləndirmə müəllimin qiymətləndirməsinə etibar yaradır və nailiyyətlərin monitorinqini daha da zənginləşdirir. Belə qiymətləndirmə zamanı şagird sinif yoldaşları ilə müqayisədə hansı səviyyəyə çatdığını, ən əsası isə bundan sonra nə etməli olduğunu dərk edir.

Özünüqiymətləndirmənin təşkilinə dair bir nümunə:

**III sinifdə oxu bacarığı üzrə özünüqiymətləndirmə vərəqi**

Şagirdin adı, soyadı ________________________________________

| | |
|---|---|
| Oxuyarkən fikrimi mətn üzərində cəmləşdirirəm. | ☐ |
| Səssiz oxu zamanı dodaqlarımı tərpətmirəm. | ☐ |
| Oxuyarkən sətirləri barmağımla izləmirəm. | ☐ |
| Oxuduqlarımı zehnimdə canlandırıram. | ☐ |
| Fikrim yayınarsa, həmin hissəni təkrar oxuyuram. | ☐ |
| Başa düşmədiyim sözlərin mənasını soruşuram. | ☐ |

Nümunəyə əsasən özünü qiymətləndirən şagird boş xanalara "+" və ya "-" işarələrini yazır. Beləliklə, gələn özünüqiymətləndirməyədək öz üzərində çalışır. Şagird bir- neçə özünüqiymətləndirmədən sonra özündə baş verən inkişafı görür və oxu texnikasında heç bir qüsurun qalmamasına çalışır.

Uşağın sinifdəki müvəffəqiyyəti onun özünüqiymətləndirmə səviyyəsini müəyyən edir. Əgər şagird hansısa bir sahə üzrə müvəffəqiyyət qazana bilmirsə, müəllim çalışmalıdır ki, qismən də olsa, bu müvəffəqiyyəti təmin etsin. Bunun üçün əlavə məşğul olmaq, həvəsləndirmək, onun imkanlarını səfərbər etmək lazım gəlir. Ola bilməz ku, şagirdi başqalarından fərqləndirən hər hansı üstün cəhəti olmasın. Sadəcə olaraq bu cəhəti görmək, aşkara çıxarmaq və uşağın özünə inamını artırmaq lazımdır. Yalnız bu zaman uşaqda özünüqiymətləndirmə bacarığı düzgün inkişaf edər.

**Ədəbiyyat**

1. "Azərbaycan dili-3". Müəllim üçün metodik vəsait. 2010. (Azərbaycan Respublikası Təhsil Nazirliyi)

2. L. Əmrahlı, N. Rzayeva. "Uşaq psixologiyası". Bakı, 2010.

çalışmalıdır ki, şagirdə verilən qiymət onun həqiqi biliyi ilə üst-üstə düşsün. Bu, həqiqət və ədalət tələb edən bir prosesdir, müəllim isə ədalətin təmsilçisi olmalıdır.

Bəzən belə hallar da baş verir ki, uşaqlarda özünüqiymətləndirmə səviyyəsi eqoist hisslərlə tənzimlənir. O, daim özünə məxsus olan hər şeyi başqalarınkından üstün qiymətləndirir. Bu halda müqayisə metodundan istifadə edilmir. Yaxşı olar ki, həyati faktlarla müqayisə aparılsın.

Şagirdin müntəzəm özünü qiymətləndirməsi tədris prossesində maraqlı psixoloji məqamlardan biridir. Bu, şagirdin özünüidarə bacarığını inkişaf etdirir, öz zəif və üstün cəhətlərini görməyə və fərqləndirməyə imkan verir. Özünüqiymətləndirmə müəllimin qiymətləndirməsinə etibar yaradır və nailiyyətlərin monitorinqini daha da zənginləşdirir. Belə qiymətləndirmə zamanı şagird sinif yoldaşları ilə müqayisədə hansı səviyyəyə çatdığını, ən əsası isə bundan sonra nə etməli olduğunu dərk edir.

Özünüqiymətləndirmənin təşkilinə dair bir nümunə:

**III sinifdə oxu bacarığı üzrə özünüqiymətləndirmə vərəqi**

Şagirdin adı, soyadı ______________________________

Oxuyarkən fikrimi mətn üzərində cəmləşdirirəm. ☐
Səssiz oxu zamanı dodaqlarımı tərpətmirəm. ☐
Oxuyarkən sətirləri barmağımla izləmirəm. ☐
Oxuduqlarımı zehnimdə canlandırıram. ☐
Fikrim yayınarsa, həmin hissəni təkrar oxuyuram. ☐
Başa düşmədiyim sözlərin mənasını soruşuram. ☐

Nümunəyə əsasən özünü qiymətləndirən şagird boş xanalara "+" və ya "-" işarələrini yazır. Beləliklə, gələn özünüqiymətləndirməyədək öz üzərində çalışır. Şagird bir- neçə özünüqiymətləndirmədən sonra özündə baş verən inkişafı görür və oxu texnikasında heç bir qüsurun qalmamasına çalışır.

Uşağın sinifdəki müvəffəqiyyəti onun özünüqiymətləndirmə səviyyəsini müəyyən edir. Əgər şagird hansısa bir sahə üzrə müvəffəqiyyət qazana bilmirsə, müəllim çalışmalıdır ki, qismən də olsa, bu müvəffəqiyyəti təmin etsin. Bunun üçün əlavə məşğul olmaq, həvəsləndirmək, onun imkanlarını səfərbər etmək lazım gəlir. Ola bilməz ku, şagirdi başqalarından fərqləndirən hər hansı üstün cəhəti olmasın. Sadəcə olaraq bu cəhəti görmək, aşkara çıxarmaq və uşağın özünə inamını artırmaq lazımdır. Yalnız bu zaman uşaqda özünüqiymətləndirmə bacarığı düzgün inkişaf edər.

**Ədəbiyyat**

1. "Azərbaycan dili-3". Müəllim üçün metodik vəsait. 2010. (Azərbaycan Respublikası Təhsil Nazirliyi)

2. L. Əmrahlı, N. Rzayeva. "Uşaq psixologiyası". Bakı, 2010.

# MƏKTƏBƏQƏDƏR TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ METODİK İŞİN TƏŞKİLİ

**Laləzar Cəfərova,**
pedaqogika üzrə fəlsəfə doktoru, dosent,
ARTPİ-nin məktəbəqədər təhsilin kurikulumu
şöbəsinin müdiri,



**Açar sözlər:** məktəbəqədər yaşlı uşaq, metodika, tərbiyəçi və pedaqoji proses.

**Ключевые слова:** дошкольник, методика, воспитатель и педагогический процесс.

**Key words:** the preschool child, metodika, teachers and pedagogical process.

Məktəbəqədər təhsil müəssisələrində metodik işin məzmunu təhsil sisteminin inkişafının məqsəd və vəzifələrinə uyğun müəyyən edilir. Tədqiqatın xarakterinə əsasən metodik işin özünəməxsus sistemi yaradılır. Burada məktəbəqədər təhsil müəssisələri haqqında dövlət sənədləri, pedaqoji kollektivin tərkibi nəzərə alınmalı, tərbiyəçilərin şəxsiyyətinin və fəaliyyətinin öyrənilməsinin diaqnostik nəticələri, onların çətinlikləri, uşaq bağçasının işinin keyfiyyətinin təhlili rəhbər tutulmalıdır.

Metodik işin yeniləşdirilməsinə aşağıdakı mövqelərdən baxılır:
- ənənəvi təcrübədən yaradıcı şəkildə istifadə;
- yeni təhsil sisteminin nəzəriyyəsi və təcrübəsinin sistemli dərk olunması əsasında pedaqoji kadrlarla işin təşkili;
- təlim prosesinə yeniliklərin daxil edilməsi əsasında toplanmış təcrübənin təkmilləşdirilməsi.

Metodik işin istiqamətləri müəyyənləşdirilərkən aşağıdakılar nəzərdə tutulur:
- təhsilin məzmununa yeniliklərin tətbiqi prosesinin elmi- metodik təminatı;
- peşəkarlıq probleminin həlli zamanı metodik köməyin göstərilməsi;
- professional ustalığın inkişafı və özünüinkişaf.

Uşaq bağçasında metodik işin təkmilləşdirilməsinin əsas prinsiplərindən biri onun forma və məzmununun diferensiasiyasıdır. Buna görə də metodik iş məntiqi cəhətdən əsaslandırılmış olmalı, formanın məzmuna uyğunluğu, uşaq bağçasında həll edilən problemdən məzmunun çixarılması nəzərdə tutulmalıdır.

Metodik işin təşkili zamanı həyati və peşəkarlıq şəraitinin, dəyərlərin oriyentasiyası, tərbiyəçinin təcrübəsi və peşəkarlıq səviyyəsi, həmçinin tərbiyəçilərin motivasiya qurma bacarıqları, öz professionallıqlarına münasibəti nəzərə alınmalıdır.

Məktəbəqədər müəssisələrdə metodik fəaliyyətin planlaşdırılması pedaqoji kollektivin qarşısına qoyulmuş vəzifələrin həllinə kömək göstərir. Metodik işin təşkili planına, hər şeydən əvvəl, tərbiyəçinin müstəqil fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı iş formaları daxildir. Hər bir tərbiyəçi metodik mövzü seçir və bir neçə il üçün özünüinkişaf proqramı tərtib edir.

Təlimdə tərbiyəçinin təcrübəsi həlledici rol oynayır. Tərbiyəçilər uşaqların fərdi fərqlərini və onlarla işin yollarını nəzərə alaraq fəal metodlardan istifadə edirlər. Bunun üçün müxtəlif məsləhətlər, işgüzar oyunların müxtəlif variantlarını, tərbiyəçilərin pedaqoji inkişafının layihələşdirilməsini həyata keçirmək lazımdır.

Yeni təcrübənin yayılması, metodik sərgilər, yaradıcı hesabatlar, açıq tədbirlər, festivallar, müsabiqələr, özünütəqdimatlar, yeni texnologiyalardan biri olan layihələşdirmə metodunun təcrübəyə tətbiqi tərbiyəçinin peşəkarlığı və yüksək səviyyəsindən danışmağa imkan verir.

Layihələr oyun formasında realizə olunur, uşaqları yaradıcı və praktik əhəmiyyətli fəaliyyətə daxil edir, təlim-tərbiyə prosesini zənginləşdirir. Təlim-tərbiyə prosesinin müxtəlif formalarının təşkili nəinki tərbiyəçinin səriştəsini artırır, hətta onların layihədə fəaliyyətinə maraqları daha yeni forma və priyomlara cəlb edilir. Bunlar da təlim-tərbiyə prosesini daha məhsuldar, məqsədyönlü edir. Tərbiyəçinin tərbiyəedici fəaliyyətə, uşaqlarla işin məzmununa və perspektiv formaların seçilməsinə, başlıcası isə özünüinkişafa və müasir yanaşmaların tətbiqinə yönəlmiş işi təhsilin keyfiyyətinin yüksəldilməsinə imkan verir.

**Uşaq bağçasında metodik işin məzmunu.** Metodik iş prioritet və təxirəsalınmaz vəzifələrin həllinə istiqamətlənir. Hər bir uşaq bağçasında kadrlarla illik metodik iş planlaşdırılır. Planda üç istiqamət nəzərdə tutulur:

1.Konkret tərbiyəçiyə münasibətdə başlıca vəzifə fərdiliyin, tərbiyəçinin pedaqoji fəaliyyət sisteminin yüksək effektivliyinin formalaşdırılmasıdır. Buna görə də uşaq bağçalarında metodik iş tərbiyəçinin biliyinin zənginləşdirilməsinə, yaradıcı fəaliyyətin motivinə, tətbiqinə, pedaqoji texnikanın inkişafına yönəldilməlidir.

2.Uşaq bağçalarının pedaqoji kollektivinə münasibətdə metodik iş kollektivdə birgə rəyin formalaşdırılması vəzifəsini həll edir. O, təlim- tərbiyə prosesinin təhlili və nəzarətinə, qabaqcıl pedaqoji təcrübənin genişləndirilməsinə və zənginləşdirilməsinə istiqamətlənir. Hazırkı dövrdə kollektivin elmi-tədqiqat işinə cəlb edilməsi vacibdir.

3. Uşaq bağçalarında metodik iş fasiləsiz təhsil sisteminə münasibətdə qurulur. Bu da elmi və praktik nailiyyətlərin tətbiqini, hüquqi-normativ sənədlərin yaradıcı dərk edilməsini nəzərdə tutur.

Hər bir uşaq bağçasında tərbiyəçilərin ixtisasını artırmaları və metodik işin bütün formaları fərqli qurulmalıdır. Metodik işi uşaq bağçasının nail olduğu nəticələrin təhlili – təlim-tərbiyə prosesinin nəticələri, pedaqoji ustalığın səviyyəsi və tərbiyəçinin ixtisası, pedaqoji kollektivin konkret maraqlarının bitkinliyi, tərbiyəçilərin tələbatı və sorğusu əsasında qurmaq olar. Müəssisələr üçün metodik

işin optimal variantının seçilməsi və axtarışı həmişə aktualdır. Bu zaman kadrlarla işin məzmununun müxtəlif forma və metodlarının çoxcəhətli xarakterinin nəzərə alınması zəruridir.

Uşaq bağçalarında metodik iş sistemini qiymətləndirmək üçün qiymətləndirmə meyarlarının müəyyən edilməsi vacibdir. Bu meyarlar uşaq bağçalarından asılı ola bilər, amma daha ümumi xarakterli və geniş əhatəli olanları həmişə nəzərdə saxlamaq lazımdır.

**I meyar.** Əgər uşaqların inkişaf nəticələri artarsa, hər bir uşaq üçün optimal səviyyəyə çatmaq və ya ona yaxınlaşmaq mümkün olarsa, bu nailiyyəti metodik işin nəticəsinin birinci meyarı hesab etmək mümkündür.

**II meyar.** Metodik işin stimullaşdırıcı rolu onunla bağlıdır ki, kollektivdə psixoloji mikroiqlimin yaxşılaşması, tərbiyəçilərin məmnunluğunun, yaradıcı fəallığının artması müşahidə edilsin. Yadda saxlamaq lazımdır ki, metodik işin səmərəliliyinin həqiqi qiyməti keçirilmiş müxtəlif tədbirlərin sayına görə deyil, son nəticəyə görə verilir.

Məktəbəqədər müəssisələrdə metodik işin təşkilatçısı metodistlərdir. Onların rəhbərliyi ilə pedaqoji iş aşağıdakı istiqamətlərdə aparılır:

- kollektivdə mənəvi-psixoloji iqlimin yaradılması, mənəvi və maddi rəğbətləndirmə sisteminin təşkili;
- iş planının tərtibində və tətbiqində strateji planlaşdırmadan istifadə;
- ictimaiyyət arasında uşaq bağçaları haqqında müsbət rəyin yaradılması;
- uşaqlarla təlim- tərbiyə işinin təşkili;
- tədqiqatçılıq işinin təşkili;
- tərbiyəçilərin intellektual potensialından effektiv istifadə;
- digər uşaq bağçaları, məktəb, müzey, uşaq mərkəzləri ilə əməkdaşlıq və s.

Bundan başqa metodist uşaq bağçalarında optimal modelin yaradılması məqsədilə və tərbiyəçilərin peşəkarlığını, iş təcrübələrini nəzərə alaraq təlim-tərbiyə prosesini ***planlaşdırır:***

- uşaq bağçalarının iş planına təkliflərin verilməsi;
- tərbiyəçilərin ixtisasının artırılması;
- tərbiyəçilərə özünütəhsilləndirmədə kömək göstərilməsi;
- yaş qrupları üzrə məşğələ cədvəllərinin qurulması;
- tərbiyəçilərə (ilk növbədə yeni başlayanlara) məşğələyə hazırlıq və məşğələnin keçirilməsində metodik köməyin göstərilməsi;
- uşaq bağçaları əməkdaşlarının təcrübə mübadiləsini təşkili;
- tərbiyəçiləri pedaqoji nəzəriyyə və praktik nailiyyətlərlə tanışlıq;
- uşaq bağçası ilə məktəb arasında varisliyin gözlənilməsinə nəzarət edilməsi;
- valideynlərlə maarifləndirmə işinin təşkili;
- qrupların təlim vəsaitləri, oyuncaqlarla komplektləşdirilməsini təmin edilməsi;

• təlim –tərbiyə işinin müntəzəm təhlilini aparmaq və onun əsasında metodik işin səmərəliliyinin yüksəldilməsi haqqında konkret qərarın qəbul edilməsi.

***Metodist təlim- tərbiyə sahəaində metodik işi təşkil edir:***

• Pedaqoji şura hazırlayır və keçirilməsində fəal iştirak edir.

• Pedaqoji şurada qəbul edilmiş illik planda nəzərdə tutulan işlərin yerinə yetirilməsinə nəzarət edir.

• Tərbiyəçilər üçün açıq məşğələlər, seminarlar, fərdi və qrup məsləhətləri, sərgilər və müsabiqələr təşkil edir.

• Təlim-tərbiyə və metodik iş üçün avadanlığın əldə olunmasında iştirak edir.

• Tərbiyəçilər arasında yeni təlim metodlarını, yeni yanaşmaları, metodik və təlim vəsaitlərini təbliğ edir.

• Tərbiyəçilərlə didaktik materialların, vəsaitlərin hazırlanması üzrə işi təşkil edir.

• Məktəblərlə birgə tədbirlər keçirilməsini təşkil edir.

• Valideynlər üçün divar qəzetləri, ailə tərbiyəsi təcrübəsinə dair guşələr, sərgilər hazırlayır.

• Tərbiyəçilər tərəfindən pedaqoji sənədlərin vaxtında tərtib olunmasına nəzarət edir.

• Tərbiyəçilərin müxtəlif problemlər və istiqamətlər üzrə qabaqcıl təcrübəsini ümümiləşdirib yayır.

• Tərbiyəçilərin fəaliyyətinə nəzarəti yerinə yetirir.

• Tərbiyəçilərin özünütəhsil planının yerinə yetirilməsinə nəzarət edir.

• Təlim- tərbiyə üzrə iş planının yerinə yetirilməsini vaxtaşırı yoxlayır.

• Qrafik üzrə müxtəlif qrupların məşğələlərində iştirak edir.

• Tərbiyəçi, psixoloq, musiqi rəhbəri və digər mütəxəssislərin birgə fəaliyyətini təşkil edir.

• Uşaqların inkişafı, onların qazandıqları bilik, bacarıq və vərdişlərin diaqnostikasını keçirir.

• Uşaq bağçaları, ailə və məktəb arasında qarşılıqlı əlaqənin yaradılmasını təşkil edir.

Uşaq bağçası metodistinin professional səriştəliliyi bir neçə komponentdən ibarətdir:

• metodoloji mədəniyyətin mövcudluğu, konseptual təfəkkür, pedaqoji prosesi modelləşdirmə və öz fəaliyyətinin nəticəsini proqnozlaşdırma bacarığı;

• ümumi kommunikativ mədəniyyətin yüksək səviyyəsi;

• pedaqoji prosesin bütün iştirakçıları ilə sosial təcrübənin birgə mənimsənilməsinə hazır olmaq;

• unikal pedaqoji ideyaların yaranmasına imkan verən şəxsi kreativ keyfiyyətlərin inkişaf formalarına can atma.

Bunlar nəzərə alınarsa, məktəbəqədər təhsil müəssisələrində pedaqoji və metodik işin səmərəli təşkilinə nail olmaq mümkündür.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikasında məktəbəqədər təhsilin yeniləşdirilməsi proqrami. (2007-2010 -cu illər). Bakı, 2007.

2. Mehrabov A.O. Müasir təhsilin konseptual problemləri. Bakı, 2010.

**Организация методической работый в дошкольных учереждениях**

**Резюме**

В статье ставится вопрос об организации методической работы в детском саду. Содержание методической работы в дошкольном образовательном учреждении определяется в соответствии с целями и задачами развития системы образования.

**Of methodical work in the pre-school**

**Summary**

The article raises the question of organization of methodological work in the kindergarten. The content of the methodological work in a preschool educational institution is determined in accordance with the objectives of the education system.

# MƏKTƏBƏQƏDƏR YAŞ DÖVRÜNDƏ ƏQLİ TƏRBİYƏ VƏ İNKİŞAF

**Kifayət Abdullayeva,**

ADPU-nin məktəbəqədər pedaqogika kafedrasının baş müəllimi



**Açar sözlər:** məktəbəqədər dövr, əqli tərbiyə, əqli inkişaf, dərketdirici vəzifələr, əqli qabiliyyətlər, ətraf aləmlə tanışlıq, şüurun yüksəlməsi, idrak maraqları, gerçək aləmin cisim və hadisələri, təfəkkürün fəallığı, əqli tərbiyənin qanunauyğunluqları.

**Ключевые слова:** дошкольный период, умственное воспитание, умственное развитие, познавательные обязанности, умственные способности, знакомство с окружающей средой, повышения уровня самосознания, интересы познания, вещи и события реального мира, активность мышления, закономерности интеллектуального воспитания.

**Key words:** pre-school period, mental training, mental - development, cognitive responsibilities, mental capacity, familiaritywith the environment, consciousness raising,the interests of cognition, real-state and community events, activity and thought, intellectual up bringing regularities.

Müasir dövrdə məktəbəqədər təhsil müəssisələrinin qarşısında uşaqlara yalnız bilik vermək deyil, həm də onlara həmin bilikləri müstəqil əldə etmək bacarığının aşılanması vəzifəsi qoyulmuşdur.

Əqli tərbiyə uşaqların əqli inkişafına yaşlıların məqsədyönlü təsiri, onların hərtərəfli inkişafı üçün zəruri biliyin verilməsi və düşünmə fəaliyyətinin formalaşmasına müntəzəm nəzarətin olmasıdır.

Əqli inkişaf tərbiyə, təlim və ətraf aləmin təsiri, şəxsiyyətin bütövlükdə formalaşması zəminində baş verir. Oyun, əmək, və təlim məşğələlərində uşağın qarşısında dərketdirici vəzifələr qoyulur. Üstünlük təşkil edən fəaliyyət dəyişdikdə, yəni inkişafın sonrakı mərhələsinə keçildikdə yeni dərketdirici vəzifələr meydana

çıxır. Kiçikyaşlı uşaqlar üçün xaraktetik olan sadə oyunlarda əşyalar, onların əlamətləri, adları ilə ilk tanışlıq əmələ gəlir. Bilik,bacarıq toplandıqca daha mürəkkəb dərketdirici vəzifələr baş verir ki, bu da oyunda və ya həmin yaşın müxtəlif fəaliyyətlərində təzahür olunur. Psixoloq A.M.Leontyev yazır: "Məktəbəqədər uşaqlıq dövrü elə həyat dövrüdür ki,bu vaxt uşağın qarşısında onu əhatə edən həqiqi bəşəri aləm açılır. Öz fəaliyyətində və hər şeydən əvvəl, ətrafdakı əşyalarla, əhatədə olan adamlarla ünsiyyətdə manipulyasiyanın dar çərçivəsindən çıxmış oyunlarda uşaq daha geniş aləmə daxil olur, onunla iş formasını mənimsəyir."

Buradan belə nəticə cıxır ki,uşağın şüuru onun hər hansı fəaliyyətində təşəkkül tapır, eyni zamanda onun fəaliyyətinə, oyun və məşğələlərin məzmununa, onun yaradıcılığna,insanlara,hadisələrə,təbiətə münasibətinə həlledici təsir göstərir.

"Əqli qabiliyyətlər məktəbəqədər yaş dövründə oyanır və sürətlə inkişaf edir. Buna görə də bu dövrdə uşağın əqli inkişafı prosesinə böyüklərin düzgün rəhbərliyi son dərəcə zəruridir. Düzgün rəhbərlik olmadıqda uşağın əqli inkişafı ləngiyir, bəzən də, əksinə, onun əqli həddindən artıq mürəkkəb biliklərlə yüklənir. Uşaq böyüyür, inkişaf edir, ətraf aləmdən aldığı məlumatları səylə toplayır, onları öz uşaq əqli ilə xüsusi bir tərzdə mənimsəyir və təcrübədə tətbiq edir. Buradan da belə nəticə çıxır ki, məktəbəqədər yaşın hər bir dövründə uşağın fərdi xüsusiyyətlərini nəzərə almaq yolu ilə onun şüurunu həddindən artıq sürətləndirmədən və süni surətdə ləngitmədən inkişaf etdirmək lazımdır. Dahi pedaqoq Y.A.Komenski ana məktəbi təlimatında qeyd edir ki, bütün düşüncəli valideynlər "uşaqların ürəyinə müdriklik toxumu səpməyə çalışmalıdırlar. Müdriklik incidən də qiymətlidir."

Y.A.Komenskinin fikrincə, uşağın əqli inkişafının əsasını onun ətraf aləmlə tanışlığı və müxtəlif fəaliyyətlər təşkil edir. O, sübut edirdi ki, uşağın əqli tərbiyəsində onun inkişafına, imkanlarına müvafiq tədricilik, ardıcıllıq və sistemliliyə riayət etmək lazımdır.

Məktəbəqədər yaşlı uşaqların əqli tərbiyəsinin məzmun və yollarını müəyyənləşdirmə sahəsində böyük xidməti olan Henrix Pestalotsi isə bağçayaşlı uşaqların əqli tərbiyəsinin vəzifəsini onun anadan olduqdan sonra keçirdiyi sakitlikdən ətraf aləmi dərk etməyə sövq etməkdə görürdü. O, uşaqların əqli inkişafı üçün üç əsas amil olduğunu qeyd edir: "a)onların müşahidə dairəsini mümkün qədər çox genişləndirmək, b) onlarda müşahidəçiliyi və mənimsədiklərini müntəzəm möhkəmləndirmək, c) təbiətdə, incəsənətdə tanış olduqları hər şeyi söz ilə ifadə edə bilmələri üçün onların rabitəli nitq qabiliyyətlərini inkişaf etdirmək."

H.Pestalotsinin fikrincə, uşağın mürəkkəb aləmi müşahidə etməsini asanlaşdırmaq üçün onun bu aləmi şəkil, ədəd və sözlərlə ifadə etməsinə və gördüyü əsas ünsürləri anlamasına nail olmaq lazımdır.

Biz uşağın əqli tərbiyəsi və inkişafına dair mükəmməl sistemə K.D.Uşinskinin əsərlərində də rast gəlirik. Əqli tərbiyə uşağın ilk yaşlarından etibarən başlanmalıdır. Həyatın ilk illərində uşağın əqli inkişafı xüsusi sürətlə irəliləyir. K.D.Uşinski yazır: "Hafizəmiz həyatımızın ilk yeddi və səkkiz ili ərzində ömrümüzün qalan müddəti ərzində mənimsədiyindən daha çox şey mənimsəyir. Biz bütün insanlar

üçün ümumi olan biliklər məcmusunun böyük hissəsini məhz bu müddətdə əldə edirik." O, kiçikyaşlı uşağa ancaq heyvani və qeyri - şüuri bir həyatla yaşayan varlıq kimi baxan görüşlərə qarşı qızğın surətdə etiraz edirdi. O, belə hesab edir ki, həyatın ilk ilindən etibarən "uşağın ruhunda, əsəb sistemində onun gələcək ruhi fəaliyyətinin əsas ünsürləri hazırlanır, buna görə də uşağın ruhi inkişafına qayğı onun həyatının ən kiçik yaşlarından başlənməlidir."

O, kiçik uşağın əqli tərbiyəsində xarici hisslərin inkişaf etdirilməsinə çox böyük əhəmiyyət verir, çünki "onlar uşağın bütün əqli işləri üçün şüura material verirlər."O, uşağa müxtəlif rəngləri, səsləri, ahəngləri, ölçüləri fərqləndirmək üçün təbiət materialları və didaktik materiallar üzərində mümarisə etdirməyi zəruri hesab edirdi.

Beləliklə, pedaqoji elmin klassikləri uşağın mükəmməl inkişafının möhkəm əsası olmaq üzrə onun ilk yaşlardan əqli tərbiyəsinin çox böyük əhəmiyyətini və zəruri-liyini etiraf edirlər.

Uşağın ətraf aləmə, onun hadisələrini dərk etməyə,onların səbəbini anlamağa doğru yönələn meyli onun şüurunun artmasını göstərir. Bu, uşağın müşahidələrə meyl etməsində, cisimlər üzərində işləməsində və yaşlılara verdiyi suallarda təzahür edir. Uşaqlar erkən sual verməyə başlayırlar. Artıq ikinci yaşın axırlarında uşaqlar müxtəlif səbəblər üzündən doğan hallarla əlaqədar suallar verirlər. Sualların çoxu ətrafdakı varlığı, xüsusilə yeni şəraiti bilavasitə qavramaqla əlaqədar olur.

Bir çox suallar iş, hərəkət əsasında və uşağın özünün davranışı ilə əlaqədar meydana çıxır. Uşaq əllərini yuyarkən " Görəsən, suyun hamısı krandan birdən axa bilərmi?" deyə öz-özünə sual verir. O, şəkillərə baxarkən öz-özünə danışır, izah edir, mühakimə yürüdür və tez-tez soruşur. Üç yaşlı uşaq qurdun şəklinə baxarkən: "Bəs Qırmızıpapaq hanı, qurd onu yeyə bilər?" deyə maraqlanır.

Uşağın yaşı artdıqca, onun suallarının dərinliyi və mürəkkəbliyi də artır. Üç yaşlı uşaq verdiyi sadə "Bu nədir?"sualından 4-5 yaşa dogru həm konkret, həm də mücərrəd anlayışı ifadə edən "Dalğa nədir?", "Darıxmaq nədir?" kimi suallara cavab axtarır.

4-5 yaşında uşaqlar müxtəlif şeylərin nədən hazırlanması ilə maraqlanırlar. Bağçanın orta qrupunda olan uşaqlar üçün sualların silsilə halında verilməsi səciyyəvidir. Onlar bu suallar vasitəsilə ayrı-ayrı cisimlərin, heyvanların, eləcə də onların ardıcıl hərəkətlərinin mənşəyini aydınlaşdırmağa çalışırlar.

Uşaqların sualları yalnız onların idrak maraqlarını deyil, həm də əqli xüsusiyyətlərini göstərir və buna görə də tərbiyəçinin bu suallara düzgün münasibət bəsləməsi həm uşağın biliyə həvəsinin artmasına, həm də, əqli inkişafına böyük təsir göstərə bilər.

Tərbiyəçi uşaqların diqqətini ətrafdakı həyatın maraqlı hadisələrinə cəlb etmək, təbiət və məişətdəki ayrı-ayrı hadisələrin qarşıya qoyduğu müəmmaları tapmağa sövq etmək yolu ilə onların əqlini inkişaf etdirə bilər.

Uşağın görüş sahəsinin müntəzəm genişləndirilməsi, ətraf aləm haqqında sadə və gücü çatan biliklərə yiyələnməsi onun əqli inkişafı üçün çox böyük əhəmiyyətə malikdir.

Uşaq ətraf aləmə aid ilkin, sadə məlumatı öz müşahidələri,oyunları və yaradıcı fəaliyyəti vasitəsilə bilavasitə ünsiyyətdə olduğu həyatdan alır, həm də bu biliklər təkcə uşaq bağçasında deyil, evdə, küçədə də qazanılır. Tərbiyəçinin vəzifəsi ilk növbədə daha artıq lazım olan təsirləri seçmək, nizama salmaq və bunların əsasında tədriclə uşağın əqlini ətraf aləm haqqında bilik və təsəvvürlərlə zənginləşdirməkdir

Uşaq əvvəlcə ətrafdakı gerçək aləmin cisim və hadisələri haqqında daha ümumi təsəvvür alır, yaşlı adamın rəhbərliyi altında tədriclə konkret biliklər toplayır ki, bunlar da tək, xüsusi, tipik olanları ayırmaqda ona kömək edir. O, quşlar arasında sərçəni, qarğanı, çiçəklərin içərisində qızılgülü, nərgizi tanıyır.

Uşaq tədricən cisim və hadisələri ümumiləşdirməyə və qruplaşdırmağa başlayır, məsələn, balıqlar, quşlar, böcəklər, ev heyvanları və vəhşi heyvanlar. İnkişaf artdıq-ca uşaq hadisələrin məna və əhəmiyyətini daha dərindən anlamağa çalışır. Tərbiyəçi isə bu hadisələr arasındakı rabitəni müəyyənləşdirməkdə ona kömək göstərir. Bu yolla uşağın təfəkkürü, əqli inkişaf edir.

Yuxarıda göstərildiyi kimi,uşaq çox şeyləri, ətrafdakı həyatı müşahidə, oyunlar və digər fəaliyyət növləri vasitəsilə öyrənir. Bir çox uşaqlar birgə həyat, kollektiv oyun və məşğələlər şəraitində bir-birindən öyrənirlər. Tərbiyəçi uşaqların ətraf aləmi bu cür dərketmə yollarından istifadə edir. Bu zaman o, uşaqların fəaliyyətinə istiqamət verir, onların ünsiyyətinə rəhbərlik edir, kollektivdə davranışını təşkil edir, qarşılıqlı yardımı inkişaf etdirir və canlı nümunələrdən istifadə edir.

Uşağın əqlini inkişaf etdirmək məqsədilə təşkil olunan məşğələ və oyunlarda onun qarşısında əqli səy, hafizə və təxəyyülün gərginliyini tələb edən tapşırıqlar qoyulmalıdır. Bu zaman uşaqlarda qarşıya çıxan zehni çətinlikləri aradan qaldırmaq bacarığını inkişaf etdirmək lazımdır. A.P.Usova yazırdı: "Təlim ardıcıl bilik verməyə, əqli vəzifələrin, mümarisələrin tədricən mürəkkəbləşməsinə imkan yaradır." Məşğələ uşağın bilik alması, dərketdirici prosesin inkişafı üçün hər cür faydalı fəaliyyəti əqli vəzifələrlə müşayiət edir. Məşğələdə uşaqların qarşısında əqli qüvvə, cəmləşdirilmiş diqqət, şüurlu yadasalma, təxəyyülün işini tələb edən xüsusi vəzifələr qoyulur, məsələn, uşağa "Payızda"mövzusunda rəsm verdikdə o, yaxın günlərdə ekskursiyada gördüklərini xatırlamalı, hansı boya ilə işləməyin düzgün olması üzərində düşünməlidir.

Əqli tərbiyə üzrə iş yalnız məşğələlərdə deyil, gəzinti,ekskursiya, oyun zamanı da aparılır. Ətraf aləmdə fəaliyyətdən alınan müxtəlif növ təəssüratlar ümumi məzmunda birləşir, məsələn, gəzinti və ekskursiya zamanı uşaqlar təbiətin mövsüm hadisələri və yaşlıların əməyi haqqında çoxlu bilik əldə edirlər. Bu biliklər oyunlarda, rəsm və yapma prosesində, musiqi məşğələlərində tətbiq olunur və inkişaf etdirilir.

Uşaqların həmin yaş üçün həyati təəssüratları mənimsəmə yolu olan oyunlar da əhəmiyyətlidir. Uşaq bu və ya digər hadisəni nəql edərkən onun üzərində fikirləşir,

aydın başa düşür, gördüklərini dərindən hiss edir. Oyunda uşaqların marağı artır, təsvir olunanlara münasibəti formalaşır, ətraf aləm haqqında bilikləri zənginləşir.

Düzgün təşkil edilmiş oyun əqlin fəal işini tələb edir.Məqsəd nə qədər maraqlı olsa, əqli qüvvə,mürəkkəb məsələləri həll etmək qabiliyyəti də yüksək olar. Oyunlar uşaqların əqli inkişafı üçün zəruri olan müntəzəm mümarisələrə imkan verir. Oyun vəzifələrinin həlli uşaqlardan müqayisə etmək, nəticə çıxarmaq, ümumiləşdirmək bacarığı tələb edir.

Beləliklə, uşaqların əqli tərbiyəsi bütün fəaliyyət növlərində həyata keçirilir.

Bütün bunlar bizə aşağıdakı nəticələrə gəlməyə imkan verir:

- Əqli tərbiyə məktəbəqədər dövrdə uşaqların hərtərəfli inkişafı üçün zəruri biliyin verilməsi və düşünmə fəaliyyətinin formalaşdırılmasına yaşlıların məqsədyönlü təsiridir.
- Əqli inkişaf tərbiyə və təlimin, ətraf aləmin təsiri altında əmələ gəlir.
- Əqli tərbiyə üzərində rəhbərlik, uşağın hərtərəfli inkişaf vəzifələrinə müvafiq surətdə, onun maraqları və tələblərinə uyğun həyata keçirilməlidir.

Ümumiyyətlə, məktəbəqədər yaş dövründə əqli tərbiyənin inkişafı təfəkkürün fəallığını, məqsədyönlülüyünü, müstəqilliyini, hər şeyi bilmək həvəsini, biliksevərliyi tərbiyə etməyə imkan verir.

### Ədəbiyyat

1. Həsənov A. Məktəbəqədər pedaqogika.Bakı, "Maarif", 2000.
2. Əliyeva Ş. Məktəbəqədər pedaqogika.Bakı, ADPU, 2010.
3. Rüstəmova N. Folklor nümunələri məktəbəqədər yaşlı uşaqların əqli tərbiyəsinin vasitəsi kimi. Bakı, ADPU, 1992.
4. Kərimov Y. Uşaq məktəbə gedir.Bakı, "R.S Poliqraf" MMC, 2009.
5. Məktəbəqədər müəssisələrdə tərbiyə və təlim proqramı. Bakı, 2007.

### Умственное воспитания и развитие в дошкольном возрасте

### Резюме

Дошкольный возраст является самым интенсивным периодом умственного развития и воспитания. Одним из основных этапов решение задач умственного воспитания детей является воспитание и руководство.

Учитывая интенсивный процесс умственного развития ребенка в первые годы жизни необходимо как можно раньше начинать работу по умственному воспитанию.

### Preschool age during education and mental development of intellectual

### Summary

Ne (she,it) is (the) mental development and time developed quickly mental upbringinq (the) pre-school wet time. Ne (she,it) is (the) mental development and time developed quickly mental upbringing (the)pre-school wet time.

Mental development in the first years of the life because he (she, it) advanced (moved forward) in the special copu, he (she, it)must begin of the child to (the)work (business, affair) of mental urbringing from the first years.

# BEŞYAŞLILARIN NİTQİNİN İNKİŞAF ETDİRİLMƏSİ ÜZRƏ İŞİN TƏŞKİLİ YOLLARI

**Şərafət Baxışova,**
ARTPİ-nin aparıcı elmi işçisi,pedaqogika üzrə fəlsəfə doktoru,
**İlahə Qafarova,**
ARTPİ-nin aparıcı elmi işçisi





**Açar sözlər:** məktəbəqədər dövr, nitq inkişafı, müqayisə, lüğət ehtiyatı.

**Ключевые слова:** дошкольный период, развитие речи, сравнения, словарный запас.

**Key words:** preschool years, development of speech, similes, vocabulary reserve.

Həyatın beşinci ilində uşaqlar hər şeyi öyrənməyə can atır və bu səbəbdən onların nitqində tez-tez *"nə üçün?"* sualı səslənir. Bununla onlar müşahidə etdikləri əşyanın, hadisənin mahiyyətini dərk etməyə çalışırlar. Beləliklə, təfəkkürlə paralel nitq də inkişaf edir. Onların lüğət ehtiyatı zənginləşir. Tərbiyəçi ətraf aləmlə tanışlıq prosesində uşaqların söz ehtiyatının zənginləşməsinə, sözləri aydın, dəqiq tələffüz etmələrinə, rabitəli nitqə yiyələnmələrinə diqqət yetirməlidir. Cisim və hadisələrlə tanışlıq prosesində uşaqlar əşyaların adını və keyfiyyətini bildirən yeni sözlər öyrənirlər. Onlar fikirlərini bütöv cümlələrlə sərbəst ifadə edirlər. Beləliklə, onların rabitəli nitqi inkişaf edir. Bütün bunlar uşaq təxəyyülünün inkişafına müsbət təsir göstərir.

Nitq inkişafı üzrə iş prosesində ən çox istifadə olunan priyom müqayisədir. Səs mədəniyyətinin inkişafı, lüğət üzrə iş prosesində tərbiyəçi tez-tez müqayisə priyomuna, oxşar fonem, söz, qrammatik hadisələrin fərqləndirilməsinə müraciət etməli olur. Müqayisə priyomundan istifadənin səmərəliliyini təmin etmək üçün uşağa iki oxşar əşya verib, onları düşünməyə vadar etmək lazımdır. İnəklə öküzün, portağalla narınginin, ördəklə qazın müqayisə olunması uşaqları çox düşündürür. Biz uşağa portağal veririk. Uşaq onu necə adlandıracaq? Portağalı nəyə bənzədəcək? Onu nə ilə müqayisə etmək, kağızda təsvirini necə vermək olar? Bu sualların cavabında müvafiq sözlər (*naringi, narıncı, yumru, yastıtəhər, şirin, kəmşirin* və s.) tapılır və uşağın nitqinə daxil edilir. Belə çalışmalarda nitq vəzifələri – lüğət üzrə iş nitqin səs mədəniyyəti, qrammatik quruluşun formalaşması vəhdətdə yerinə yetirildiyi üçün rabitəli nitqin inkişafı baxımından çox əlverişlidir.

Aşağıdakı tapşırığın yerinə yetirilməsindən məqsəd uşağa sözləri dinləmək və araşdırmaq, hansı sözlərin bir-birinə bənzədiyini aşkar etmək, daha düzgün variantı seçmək imkanı yaratmaqdır:

Xörək bişirəndə ana,
Lalə kömək edir ...(ona).
Onlar bişirirlər borş,
Xeyirli və dadı ...(xoş).
Vitaminli, dadlı həm,
Borşa tökülür ...(kələm).
Borşa çox dad verir kök,
Yeyəndə ona qatıq.... (tök)

Xörək dadlı alınar,
Qatsaz ona ...(ədvalar).
Kartofu unutmayın,
Bir az xırda ...(doğrayın)
Hazır olan kimi borş,
Yeyin, olsun sizə ... (nuş)!

Tərbiyəçi həmqafiyə sözlərin asanlıqla tapılması mümkün olan tapşırıqlardan da istifadə edir. Bu zaman uşaq sözü qafiyə ilə deməkdən başqa, ayrı-ayrı cümlələrlə kifayətlənməməli, süjetə və məzmuna da fikir verməlidir.

Uşaq şeri dinləməli, qiymətləndirməli, eşitdikləri haqqında danışmalı, sonra əzbərləməlidir. Prosesin asanlaşması üçün şeri hissə-hissə öyrətmək lazımdır. Uşağa təzyiq göstərmək, onu təhqir edən –*"Sənin yaddaşın pisdir, heç nəyi yadda saxlaya bilmirsən."* və s. kimi sözlərdən istifadə etdikdə uşaq onları eşidib, özünün bacarıqsız olduğunu fikirləşəcək, ruhdan düşəcəkdir.

Uşağın lüğət ehtiyatını zənginləşdirən sözlər bizim nitqimizdən, ətraf aləmdən, təəssüratlardan, onun müşahidələrindən götürülür. Biz uşağa müxtəlif peşələrdən, ixtisaslardan, sənətlərdən danışarkən yalnız müxtəlif sənət sahiblərinin hansı işlə məşğul olmaları haqqında məlumat verməklə kifayətlənirik:

–Uşaqlar, insanların sağlamlığının keşiyində kim dayanır?
– Həkim.
– Bəs kim bizə bilik verir?
– Müəllim.

Bu yaş dövründə biliklərin möhkəmləndirilməsi və dialoji nitqin öyrədilməsi üçün müsahibədən istifadə olunur. Uşaqlarda dinləmək, sual vermək, sualı cavablandırmaq, eşitdiklərindən baş çıxarmaq bacarığı formalaşır. Uşağa şəkilçilərin köməyi ilə yeni sözlərin yarandığını da öyrətmək məqsədəuyğundur: *toxumaq-toxucu; çörək-çörəkçi; sərhəd-sərhədçi; satmaq-satıcı; əkmək-əkinçi; çay-çayçı* və s.

Uşağın şəkilçilərin əhəmiyyətini başa düşüb, onlardan öz nitqində düzgün istifadə etməsinə şərait yaratmaq lazımdır:

– Qələmi haradan götürdün?
– Qələmdandan.
– Kuklanı haradan tapdın?
– Şkafın arxasından.

Əsas odur ki, uşaq bizim ondan nə tələb etdiyimizi başa düşsün. O zaman yeni öyrənilən sözlər qeyri-fəal lüğət ehtiyatından fəal lüğət ehtiyatına keçəcək. Uşaqlar qışda qarğaların yem axtardığını müşahidə edərkən onlara aşağıdakı şeir parçasını oxuyuram:

Təzə qarın içində
Yem axtarır qarğalar.
Ağacların üstündə
Quşların məclisi var.

Onlar şeri əzbərləyirlər. Bu prosesdə yeni sözlər onların nitqinə daxil olur. Müəyyən vaxtdan sonra yeri gəldikdə uşaqlar nitqlərində *təzə qar,yem axtarır, quşların məclisi* ifadələrini işlədirlər.

Bu mərhələdə nitq o zaman ünsiyyət vasitəsi olur ki, onun xarici ifadə vasitəsi olsun – eşidilsin. Artıq altıncı ildə uşaq özü müstəqil müşahidələr aparır və gördüklərindən nəticə çıxarır. Uşaq öz lüğət fondundan lazımi sözü seçməyi bacardıqda lüğət ehtiyatı fəallaşır. Belə şəraitdə uşağa çətin olan biliklər də nisbətən asan öyrədilir. Söz seçmək bacarığını **"Sözü seç"** oyunu çox yaxşı inkişaf etdirir. Bir neçə nümunə: *Balıq üzür, bəs sərçə? (uçur). İlan sürünür, bəs dovşan? (hoppanır). Siçan yuvada yaşayır, bəs inək? (tövlədə). Təyyarə uçur, bəs gəmi? (üzür). Ayı balı sevir, bəs dovşan? (yerkökünü ). Qoyunun quzusu var, bəs inəyin? (buzovu).*

"Cümləni tamamla" tapşırığı ilə prosesi daha da çətinləşdirmək mümkündür, yəni, bizim söyləyəcəyimiz fikir tamamlanacaq fikrə yardımçı olmamalıdır: *Biz yorulmuşuq, çünki ..., Mən təəccübləndim, çünki ...*

Beləliklə, uşaq düşünmək, quraşdırmaq, təsəvvür etmək və bütün bunları sözə çevirmək şərti qarşısında qalır. Bu zaman "əksinə izahatlar"dan da istifadə etmək mümkündür. Tərbiyəçi söz haqqında qısa informasiya verir, uşaq isə sözü tapıb deyir:

– öz balasını qarnındakı çantada gəzdirən və tullanaraq irəliləyən heyvan *(kenquru);*
– qoyunun balası *(quzu);*
– camışın balası *(balaq);*
– keçinin balası *(çəpiş);*
– səhərlər hamını oyadan quş *(xoruz);*
– yer belləmək üçün alət *(bel);*
– xəstələrin həkim qəbuluna gəldikləri yer *(poliklinika);*
– idman yarışları keçirilən yer *(stadion).*

Uşaqlar kiçik yaşlarından təbii və süni danışıq tərzini ayırd edirlər. A.R.Luriya yazır: "Uşağın inkişafında ilk böyük dövr onunla xarakterizə olunur ki, o, qrammatik nitqdən fəal istifadə etməklə, sözlərə müvafiq əşya və hərəkətləri ifadə etməklə hər sözü və dil münasibətlərini öz şüurunun malına çevirə bilir". Biz uşağı sevərək sözlə əzizləmək, onunla daha şirin danışmaq istəyirik. Bununla belə, izahatlarımıza "uşaq" xarakteri verməyə çalışmamalıyıq. Valideynlər çox vaxt uşağın öz yaxın qohumu, dostu, tərbiyəçi ilə həvəslə danışdığını, başqaları ilə isə danışmaq istəmədiyini bildirirlər. Deməli, bu yaşda uşaqla normal ünsiyyətdə olmaq lazımdır. Uşaq artıq öz fikirlərini ciddi, aydın və inandırıcı şəkildə ifadə edir. Bu yaşda uşaq artıq özü mürəkkəb cümlələr qura bilir. O, nəinki gördüyünü, bildiyini təsvir edir, həm də əşya və hadisələr arasında əlaqələrin olduğunu anlayır.

Uşağa başqasının fikrinə düzgün qiymət verməyi öyrətmək lazımdır. "Mən şəkli düzmü adlandırdım?", "Emil düz hərəkət etdi?", "Günel hekayənin məzmununu düz nəql etdi?" və s. Bundan məqsəd söz və ifadələrdən düzgün istifadə etmək, sözün düzgün tələffüzünü öyrətməkdir. Uşağa özünün və başqalarının nitqinə tənqidi yanaşmaq öyrədilməlidir. Uşaq kədərli səslə bildirir ki, ona bağçada keçirilən tədbirlərdə iştirak etməyə, şeir söyləməyə icazə vermirlər, çünki o, gözəl danışa bilmir.

Bağçada keçirilən tədbirlərdə bütün uşaqların iştirak etməyə haqqı var. Düzdür, tərbiyəçilər bayramın, tədbirin yaxşı keçməsini, uşaqların gözəl danışmalarını, tapşırığın öhdəsindən səhvsiz gəlmələrini istəyirlər, amma dilində qüsur olan uşaqlar günahkar deyillər. Bayram tədbirinə hazırlaşarkən həmin uşaqların iştirakı üçün də münasib material fikirləşmək vacibdir.

Tərbiyəçi çalışmalıdır ki, uşaqlar öyrəndiklərini izah edə bilsinlər. Bu baxımdan şəkillər üzrə oyundan istifadə etmək məsləhət görülür. Şəkildə ağac təsvir olunub. Onunla əlaqədar şəkilli kartoçkaların içindən kök, gövdə, budaq və yarpaqların təsvir olunduğu şəkillər seçilir. Aşağıdakı şəkillər üzrə də oyunlar təklif etmək olar:

ev *(dam, divar, qapı, pəncərə,pilləkən, balkon);*

çaydan *(lülə, qapaq, dəstək);*

kəpənək *(gövdə, baş, gözlər, bığcıqlar, ayaqlar, qanadlar);*

balıq *(gövdə, baş, quyruq, üzgəclər, gözlər, qəlsəmələr);*

gül *( budaq, yarpaqlar, ləçəklər, tikanlar);*

maşın (*kabinə, sükan, təkərlər, kreslo* və s.).

Cins anlayışını ifadə edən sözlərin: *canavar, dələ, qaban, keçinin* heyvan olduğunu, *sərçə, qarğa, qaranquşun* quş olduğunu, *söyüd, şam, çinarın* isə ağac olduğunu uşaq 3-4 yaşında mənimsəyirsə, daha geniş cins anlayışını ifadə edən bitkilər – ağaclar, otlar, çiçəklər; quşlar – ev quşları, çöl quşları; heyvanlar –vəhşi heyvanlar, ev heyvanları kimi sözlərin mənasını 5-6 yaşında mənimsəyir. Bununla əlaqədar uşağa qruplaşdırmağı, təsnif etməyi öyrətmək lazımdır.

Bəzən uşaqda əşya haqqında müəyyən təsəvvür olsa da, o, əşyanı necə adlandıracağını bilmir, çünki onun haqqında dəqiq anlayışı yoxdur. K.D.Uşinskinin dediyi kimi, insanlar yalnız yaxşı başa düşmədiklərini ifadə etmək istədikdə söz tapa bilmirlər. Ona görə də uşaqların lüğət ehtiyatının və təfəkkürünün zənginləşdirilməsi üzrə iş paralel getməlidir. Söz fikri əks etdirir. Fikir dolaşıq olarsa, söz anlaşılmaz. Uşağın lüğət ehtiyatının məzmunu və xüsusiyyətləri onun təfəkkür və nitqinin inkişafını müəyyən edir. Uşağın sözlərdən sərbəst istifadə etməsinə, lazımi söz və ifadələri düzgün seçməsinə nail olmaq lazımdır. Bu zaman **"Antonimlər"** oyunu – mənaca əks olan sözlərin seçilməsi yerinə düşər. Bu çox sadədir: tərbiyəçi müəyyən sözü deyir, uşaq isə əksmənalı sözü tapır. *Bərk-yumşaq; şən-qəmgin; düz-əyri; təmiz-çirkli; tənbəl-zəhmətkeş; sevinc-kədər; getmək-dayanmaq; danışmaq-susmaq; tutmaq-atmaq; qopartmaq-yapışdırmaq; geyinmək-soyunmaq; yaxın-uzaq; hündür-alçaq; enli-dar; yuxarı-aşağı; irəli-geri; sol-sağ* və s.

Bu yaş dövründə uşaqlarda fəallıq və müstəqillik yaratmaq üçün problemli təlim mühüm əhəmiyyət kəsb edir. Problemli təlim axtarıcılıq fəaliyyəti ilə bağlı olur. Bu məqsədlə tapşırıq bir az çətinləşdirilir. Uşaqların qarşısında onların tədqiqatçılıq bacarıqlarına uyğun məqsəd qoyulur. Onlar cisim və hadisələr üzərində fəal müşahidə

aparır, əvvəl yiyələndikləri sadə biliklərdən istifadə edirlər. Bu məqsədlə tərbiyəçi onlarla evristik müsahibə keçirir. Evristik müsahibə prosesində uşaqlar əvvəllər yiyələndikləri bilik və bacarıqlara istinadən, sual-cavab yolu ilə bilmədiklərini öyrənirlər, məsələn, tərbiyəçi uşaqlarla oyun keçirir:

Quş hündürdən uçur, ağcaqanad isə ... (alçaqdan).

Yayda isti, qışda isə ... (soyuq olur).

Tısbağa yavaş hərəkət edir, dovşan isə ... (cəld).

Dəniz uzaqdadır, park isə ...(yaxında).

Gündüz işıqlıdır, gecə isə ... (qaranlıq).

Okean dərindir, göl isə ... (dayaz).

Oyunu bütün nitq hissələri üzrə keçirmək lazımdır. Adətən, belə tapşırıqları uşaq məmnuniyyətlə yerinə yetirir. Əgər sözün səs kompleksi real təsəvvürdən məhrum olarsa, o, fonetik elementlərə malik olsa belə, mənasız bir şeyə çevrilər. Uşağın söz ehtiyatı onun təsəvvürlərinin ehtiyatına müvafiq olmalıdır. Kifayət qədər təsəvvürə malik uşağın onu ifadə etməyə sözü olmadıqda o, çətinlik çəkəcək, fikrini şəkillərin, jestlərin, mimikaların köməyi ilə başa salmağa çalışacaqdır. Əksinə, uşaq canlı təsəvvürə əsaslanmayan çoxlu söz bildikdə, onun mahiyyətinə varmadan boş-boşuna danışacaq. Məhz buna görə də uşaq inkişaf etdikcə, onun təsəvvürləri artdıqca, həmin əşya və hadisənin tamlığı və konkretliyi artır. Uşağa təbiət haqqında gözəl şeirlər oxumaqla onun dil imkanlarının zənginləşməsinə və obrazlılığına nail ola bilərsiniz.

Şeirlərin oxunması, əzbərlənməsi ilə yanaşı, uşaqların sözdə səsi ayırmaları üzrə onların əqli fəallığını təmin edən əlavə tapşırıqlar da verilməlidir. Şəkillərə və əşyalara baxıb, onların adının əvvəlində, ortasında və axırında müəyyən səsin işlənməsinə dair misallar söyləmək belə çalışmalardandır. Bu zaman tapmacalardan da istifadə etmək olar. Tapmacanın cavabında lazımi səslərin olduğunu nəzərə alaraq uşaqdan orada iki səsdən hansının olduğunu soruşmaq məqsədəmüvafiqdir.

Uşaq bağçasında nitqin səs mədəniyyəti baxımından məşğələlərin keçirilməsi vacibdir. Normal halda altı yaşa kimi uşaq bütün səsləri düz deyir. Uşağın dili və dodaqları istənilən səsə aid tapşırığın yerinə yetirilməsinə hazırdır. Nitq prosesində nəfəsalma və səs aparatı da tələbata cavab verməlidir. Düzdür, uşaqlardan bəziləri **"r, ş, j"** kimi çətin səsləri düzgün tələffüz etmirlər. Nitqdə bu səslərdən istifadənin möhkəmləndirilməsi üzrə iş davam etdirilməlidir. Uşağın tələffüzündə səhvlərə və nitqin sürətinə diqqətlə yanaşmaq lazımdır. Nitq nöqsanları əksər hallarda fərdi xarakter daşıyır. Ona görə də valideynlərlə əlaqə saxlamaq, uşaqlara fərdi tapşırıqlar vermək lazımdır. Qrup üçün xarakterik nöqsanlarla əlaqədar isə xüsusi nitq inkişafı məşğələləri təşkil edilməlidir. Ümumiyyətlə, məktəbə gedənədək uşaqlar öz fikirlərini planlaşdırmağı, cümlələri düzgün qurmağı, onların ardıcıllığını müəyyənləşdirməyi bacarmalıdırlar.

**Ədəbiyyat**

1. Kərimov Y.Ş. Məktəbəqədər yaşlı uşaqların nitq inkişafının metodikası. Bakı, "RS Poliqraf", MMC, 2009.

2. Лурия. А.Р.О патологии грамматических операций. "Известия АПН РСФСР", вып.3, 1946.

3. Гербова В.В. Занятия по развитию речи в старшей группе детского сада. М., «Просвещение», 1984.

**Организация работ по развитию речи пятилетних детей**

**Резюме**

Речь в повседневной жизни очень важна в развитии детей. Дети самостоятельно понимают и слушают устной речи, активно общаются со старшими, сверстниками и правильное применение выразительной речи, обогащает их словарный запас.

**The organization works to develop speech olds**

**Summary**

Speech in daily life is very important in the development of children. Children themselves understand and listen to the speech, to interact with seniors, peers and the correct application expressive speech, enriches their vocabulary.

# OTAQ BİTKİLƏRİNƏ QULLUQ

**Ceyran Orucova,**
ADPU-nun dissertantı



**Açar sözlər:** məktəbə hazırlıq qrupu, bitkilərə qulluq, bitkilərin təmiz saxlanması, bitkilərin əlavə qidalandırılması, torpağın yumşaldılması, bitkilərin köçürülməsi.

**Ключевые слова:** подготовительная группа, уход за растениями, содержание растений в чистоте, подкормливание растений, раз рыхление земли, пересадка растений.

**Key words:** school preparatory groop, looking after plants, keeping plants clean, additional nourishing of plants, loosening of soil, replantation of plants.

Məktəbəqədər müəssisələrdə uşaqlarla əməyin müxtəlif növləri üzrə iş aparılır. Özünəxidmət əməyi, təsərrüfat-məişət əməyi, təbiətdə əmək və əl əməyi. Otaq bitkilərinə qulluq təbiətdə əməyə aiddir. Məktəbəhazırlıq qrupunun təbiət guşəsindəki bitkilərin sayı və növləri, digər qrupların təbiət guşəsindəki bitkilərin sayından və növlərindən çox olmalıdır.

Məktəbəhazırlıq qrupunun təbiət guşəsinə müxtəlif qulluq növləri tələb edən bitkilər gətirmək lazımdır, məsələn: vətəni susuz səhralar olan, otaq şəraitində də daha günəşli yer və az suvarılma tələb edən kaktuslar (*filokaktus, ziqokaktus*) bitkilər və ya əksinə, öz vətənlərində böyük miqdarda rütubətə öyrəşmiş, tez-tez suvarılma tələb edən, birbaşa düşən günəş şüalarının zərərli olduğu *superus papirus* və başqa tropik bataqlıq bitkiləri də gətirmək olar. *Krinum, amarillis* isə, bütün soğanaqlı bitkilər kimi, təkcə altlığa su tökməklə suvarılması ilə deyil, həm də ilin soyuq vaxtlarında dincə qoyulmaları ilə diqqətçəkicidirlər. *Amarillis* müxtəlif vaxtlarda çiçək açmağa vadar etməyin mümkün olması ilə də maraqlı bitkidir.



aspidistra, tradeskansiya,
ala-bezek yarpaqlı, filokaktus,
fikus, ətirşah, bənövşə





Otaq bitkilərinə qulluğu düzgün təşkil etmək üçün tərbiyəçi hər bir bitkinin öz vətənindəki vegetasiya şəraitini yaxşı bilməlidir.

Uşaqlara müxtəlif yollarla –kiçik budaqcıq və canlı kolcuqlarla, soğanaq-balalarla, zoğlarla, kolun bölünməsi ilə və yarpaqlarla çoxaldılan bitkilər (*beqoniya reks, uzambar bənövşəsi*) də maraqlıdır.

Eyni bitkinin müxtəlif növlərinin (*beqoniya, ətirşah* və s.) olması da məqsədəuyğundur. Bu, tərbiyəçiyə imkan verir ki, bitkilərin fərqli və oxşar cəhətlərini uşaqlara öyrətsin. Yaxşı olar ki, təbiət guşəsində uşaqların özlərinin çəyirdəkdən və qələmdən yetişdirdikləri bitkilər də (*limon, portağal*) olsun. Hər hansı bir bitkidən müxtəlif yaşlıların olması böyük maraq doğurur (*cavan krinum, böyük çətirli krinum, çiçəkləyən krinum* və s.).

Bitkilərin daha çox olmasına deyil, yaxşı vəziyyətdə olmasına çalışmaq lazımdır. Təbiət guşəsi üçün otaq bitkilərinin seçilməsi hər bir qrup otağının konkret şəraitindən—temperaturundan, işıqlanmasından çox asılıdır.

**Bitkilərə qulluq.** Bitkilərə qulluğun bəzi növləri ilə (suvarma, yarpaqların yuyulması, quru yarpaqların qoparılması) uşaqlar aşağı qruplarda tanış olurlar. Məktəbəhazırlıq qrupunun uşaqlarına yeni qulluq növləri: suvarma, torpağın yumşaldılması, suyun çilənməsi, yarpaqların tozdan təmizlənməsi, əlavə qidalandırma, bitkilərin köçürülməsi yolları öyrədilir.

***Suvarma*** daha mühüm qulluq növlərindən biridir. Uşaqlara təkcə düzgün suvarmağı deyil, həm də dibçəkdəki rütubətin çatışmamazlığını torpağın üst qatının quruluğu ilə müəyyən etməyi də öyrətmək lazımdır. Tədris ilinin başlanğıcında, təbiət guşəsində növbətçilik cədvəli yeniləşərkən bitkilərin düzgün suvarılma qaydalarını təkrarlamaq lazımdır.

Uşaqların diqqətini altlığa və dibçəyin altında artıq suyun axması üçün olan deşiyə yönəltmək lazımdır. Bitkilər üçün lazım olan qidalandırıcı maddələrin bir qismi su ilə çıxdığı üçün altlıqdakı suyu təkrarən dibcəyə tökmək məsləhət görülməlidir.

Uşaqları suvarma qədər heç nə özünə cəlb etmir. Bəzən növbətçilərdən biri bitkini suvarır, o biri də bu işi təkrarlayır. Başqa ifratçılıq da müşahidə edilir:

uşaqlar bitkini suvarmaqdan qorxaraq, onu kifayət qədər suvarmırlar, nəticədə bitki susuzluqdan quruyur. Ona görə də uşaqların işini, xüsusən ilk vaxtlar izləmək çox vacibdir.

Qulluq zamanı tərbiyəçi izah edir ki, bəzi bitkiləri (*primula, tradeskansiya*) torpağın daim nəm olması üçün tez-tez suvarmaq, başqalarını (*əzvay, kaktuslar*), əksinə, dibçəkdəki torpaq tamamilə quruduqdan sonra suvarmaq lazımdır. Bəzi bitkilərin (*papirus*) altlığında həmişə su olmalıdır.

Bitkini suvararkən inkişaf dövrünü (ilin fəslini), havanı, otağın quruluq dərəcəsini nəzərə almaq vacibdir. Bitkilər boy atma dövründə (yaz və yay) tez-tez, dinclik dövründə (payız və qış) isə daha gec-gec suvarılma tələb edir. Uşaqlara izah etmək olar ki, qışda suvarılması lazım olmayan bitkilər də var, məsələn, *krinumun, amarillisin* altlığına ancaq nadir hallarda su tökülür, çünki bu vaxt onlar inkişaf etmir, dincəlirlər. Çox qızdırılan, xüsusən buxar isidiciləri olan otaqlarda dibçəklərdə torpaq tez quruyur. Belə şəraitdə qışda da bəzi bitkiləri tez-tez suvarmaq lazım gəlir. Çiçəkləmə dövründə bitkilər çox suvarılmalıdır. Yayda bitkiləri yağışın altına qoymaq faydalıdır.

Bitkilərə həddən çox suvarma zərəli olduğu kimi, torpağın həddən çox quruması da zərərlidir. Birinci halda torpaq turşuyur, yarpaqlar saralır və tökülür. Bu halda bitkinin qurumuş köklərini kəsmək, kəsilmiş yerlərə ağac kömürünün tozunu səpmək və onu daha kiçik dibçəyə köçürmək lazımdır. Torpaq həddən çox quruduqda suyu canına çəkmir, su deşikdən axıb gedir. Bu halda bitkini dibçəyin ağzına çatacaq qədər su ilə doldurulmuş ləyənə qoymaq və torpaq dibçəyin altındakı deşikdən suyu canına çəkənə qədər beş-altı saat orada saxlamaq lazımdır.

***Su çiləmə.*** Bitkilərin yaxşı boy atması üçün yazda və yayda onları təkcə suvarmaq deyil, həm də hər gün onlara otaq temperaturlu su çiləmək lazımdır. Uşaqlara su çiləməyi pulverizatorun və ya ağzına paylayıcı probka taxılmış butulkanın köməyi ilə öyrətmək olar. İlk vaxtlar bitkilərə sü çiləməyi tərbiyəçi uşaqların iştirakı ilə yerinə yetirir və tədricən növbətçiləri bu işə cəlb edir. Uşaqların su çiləməni səliqə ilə yerinə yetirmələrinə diqqət etmək lazımdır. Bunun üçün bitkini ləyənə, iri tavaya və ya döşəməyə salınmış müşəmbə üzərinə qoymaq məsləhət görülür.

Yayda havalar çox isti olarkən bitkilərə gündə iki dəfə su çiləmək daha yaxşı olar. Uşaqlara izah etmək lazımdır ki, yarpaqlarda yanıqlar əmələ gəldiyi üçün bitkilərə günəş altında su çiləmək olmaz. Yarpaqları xırda tükcüklərlə örtülü olan bitkilərə (*beqoniya reks, ətirşah*) su çiləmək lazım deyil.

Havanın nəmləndirilməsi üçün yayda dibçəklərin arasına içərisində su olan bankalar, dərin nəlbəkilər, bardaqlar qoymaq faydalıdır.

***Bitkilərin təmiz saxlanması.*** Uşaqlara izah etmək lazımdır ki, bitkinin yarpaqları üzərinə qonan toz günəş şüasını və havanı buraxmadığı üçün bitkiləri təmiz saxlamaq vacibdir. Tərbiyəçi uşaqlara hər bitkiyə uyğun qulluq yollarını öyrədir. Əvvəlcə *aspidistra* («mehriban ailə»), *fikus, kliviya, filode-*

*ndron* (*monstera*) və s. kimi bitkilərin iri və qalın yarpaqlarının necə yuyulmAsını uşaqlara başa salır. Sonra fırçanın köməyi ilə *əzvayın* (*aloyenin*) yarpaqlarını yumağı, yarpaqları yuyulmayan və su çilənməyən *geranın, beqoniya reksin* yarpaqlarını yumşaq, quru fırça ilə təmizləməyin qaydasını göstərir.

*Tradeskansiyanın* balaca yarpaqlarını, *fuksiyanı*, daim çiçəkləyən *beqoniyanı* necə yumağı düşünməyi uşaqların özlərinə təklif etmək olar. Balaça yarpaqları oyuncaq susəpən vasitəsilə yumağın mümkün olduğunu izah etmək və göstərmək lazımdır. Bitkiləri duş altında yuyarkən uşaqlar ancaq böyüklərin işini müşahidə edirlər. Bu zaman suyun dibçəkdəki torpağı yumaması üçün torpaq müşəmbə üstündən əski və ya dəsmalla örtülməlidir.

Uşaqlara bitkilərin təkcə yarpaqlarını deyil, dibçəklərini də yumağı öyrətmək lazımdır. Dibçək və altlığını, ayda iki dəfədən az olmayaraq, sabun və isti su ilə yumaq lazımdır. Dibçəyi ləyənin içərisində olan kətil və ya şəbəkə üzərinə qoymaq lazımdır ki, sabunlu su dibçəyin altındakı deşikdən bitkinin kökünə daxil olmasın. Dibçək və altlığı yuduqdan sonra isti su ilə yaxalamaq lazımdır. Adətən, uşaqlar bu işi kollektiv təmizlik zamanı tərbiyəçinin nəzarəti altında və onun köməyi ilə yerinə yetirirlər.

***Yumşaltma.*** Dibçəkdəki torpağın yumşaldılması otaq bitkilərinə qulluğun mühüm növlərindən biridir. Uşaqlara izah etmək lazımdır ki, bərkimiş torpaq havanı və suyu bitkinin köklərinə pis buraxır, ona görə də bitki yaxşı boy atmır. Köklərin zədələnməməsi üçün yumşaltma çox ehtiyatla aparılmalıdır. İlk vaxtlar tərbiyəçi torpağın yumşaldılmasını uşaqların iştirakı ilə aparır. Sonralar o, uşaqları köməyə çağırır və onlara ucu küt çubuq verərək, kökü torpağın səthinə yaxın olmayan bitkilərin torpağını yumşaltmağı təklif edir.

**Bitkilərin əlavə qidalandırılması.** Yazda və yayda bitkilər böyüyərkən yarpaqladığı və çiçəklədiyi üçün onlara daha çox qida lazımdır. Məktəbə hazırlıq qrupunun uşaqlarına əlavə qidalandırmanın əhəmiyyətindən danışdıqdan və suvarmaya bənzər əlavə gübrələməni göstərdikdən sonra bu işi onların özlərinə həvalə etmək olar. Uşaqlara əlavə qidalandırma məhlulunu süzgəcsiz susəpənlə ehtiyatla, yarpaq və budaqcıqlara məhlul damcılarını sıçratmadan tökməyi öyrətmək lazımdır. Əlavə gübrələmədən əvvəl və sonra bitki adi su ilə suvarılır. Gübrə qarışığı ilə əlavə qidalandırmanı uşaqlar ancaq tərbiyəçinin nəzarəti altında yerinə yetirirlər.

Əlavə qidalandırma üçün üzvi və mineral gübrələrdən istifadə edilir. Mineral qarışıqlar kimyəvi mağazalarda, üzərində tətbiq yolları, hazırlanma qaydası göstərilmiş zərflərdə satılır. Üzvi gübrələrdən qidalandırıcı məhlul aşağıdakı kimi hazırlanır: istənilən qabın yarısına qədər peyın doldurulur, qab dolana qədər istünə su əlavə edilir və arada bir ağacla qarışdırmaqla bir həftə saxlanılır. Əlavə gübrələmə zamanı bu məhlula su əlavə edilir: peyin məhlulunun bir hissəsinə yeddi-səkkiz hissə su, quş zılı məhlulunun bir hissəsinə isə on hissə su əlavə etmək lazımdır. Üzvi gübrəni minerallarla (5 litr məhlula 25 qram mineral gübrə) qarışdırmaq da faydalıdır. Apreldən

başlayaraq avqusta qədər əlavə qidalandırma yeddi-on gündən bir aparılır. Təzə köçürülmüş, xəstə və dincə qoyulmuş bitkilər əlavə qidalandırılmır.

**Otaq bitkilərinin köçürülməsi.** Yazda bütün bitkilər nəzərdən keçirilir, dibçəyin altındakı deşikdən kökləri görünən bitkilər seçilir. Uşaqlara bunun nə üçün belə olduğunu düşünmək təklif olunur. Onlar bunun səbəbini izah edə bilmədikdə başa salmaq lazımdır ki, artıq bitkinin kökləri dibçəyə sığmır, onların yeri dardır, ona görə də bu bitkini daha geniş qaba köçürmək lazımdır. Köçürülməsi lazım gələn bitkiləri seçdikdən sonra, tərbiyəçi uşaqlarla birlikdə bitkilərin köçürülməsi üçün lazım olan materialların adlarını sadalayır: müxtəlif ölçülü dibçəklər, torpaq, qum, saxsı qırıqları, çalovlar, çubuqlar. Köçürmə ərəfəsində uşaqlar torpağı ələyə və ya zibildən təmizləyə bilərlər.

Bitkilərin köçürülməsi barədə uşaqlarda təsəvvür yaratmaq üçün yazda, bir-iki bitkinin köçürülməsi üzrə məşğələ təşkil etmək lazımdır. Tərbiyəçi uşaqların yanında bitkilərdən birini dibçəkdən çıxarır, uşaqlar köklərin sıx halda dolaşdığı torpaq topasına baxırlar. Çubuq vasitəsilə kökləri köhnə torpaqdan təmizləyir, onların dolaşığını açırlar. Bitkinin uzun kökləri uşaqları heyrətləndirir. Köçürülmənin vacibliyi onlar üçün daha aydın olur. Tərbiyəçi bitkini köçürərkən hərəkətləri izah edərək uşaqlara göstərir. Kök sistemi güclü inkişaf etmiş *kliviya*nı uşaqlarla birgə köçürür. Otaq bitkilərinin çoxunun köçürülməsi üçün ən yaxşı vaxt mart-aprel aylarıdır. Soğanaqlı bitkiləri payızda, yazda çiçəkləyən bitkiləri çiçəkləmə başa çatdıqdan sonra köçürürlər.

Cavan bitkilərin hər il köçürülməyə ehtiyacı var, böyümüş, yaşlı bitkilərin çoxu isə iki-üç ildən bir köçürülür. Bitkinin dibçəkdə yeri dar olduqda və ya bitki xəstələnərkən boyatma dayanır, yarpaqlar saralır, inkişaf etməmiş zoğ və ya yarpaqlar əmələ gəlir. Bu zaman onu yeni dibçəyə köçürmək lazımdır.

Bir qayda olaraq, bitkiləri təzə dibçəyə köçürmək lazımdır. Təzə və köhnə dibçəklərin diametrləri arasındakı fərq 1-2 sm olmalıdır, əks halda daha geniş dibçəkdə köklər böyüməmiş torpaq turşuya bilər. Təzə dibçəyin divarlarındakı məsamələrdən havanın çıxması üçün onu suda islatmaq lazımdır. Dibçəkləri isti su, sabun və soda ilə yaxşıca yuyub qurutmaq lazımdır.

Bitkilərin basdırılması üçün ən yaxşısı (divarlarındakı məsamələrdən hava bitki köklərinə sərbəst daxil olduğu üçün) saxsı dibçəklərdir.

**Köçürmə texnikası.** Bitkini köçürmək üçün hazırlanmış dibcəyin dibindəki deşiyin üzərinə sferik hissəsi yuxarı olmaqla saxsı parçası qoyulur ki, suyun axıb altlığa tökülməsi üçün boşluq yaransın. Sonra saxsı parçasının üzərinə 2-3 sm qalınlıqda iri dənəli qum qatı tökülür ki, bu da köklərə havanın və suyun aşağıdan daxil olması üçün vacibdir: qum drenaj rolunu oynayır. Drenajın üstündən bir qədər torpaq səpilir.

Bitkini yeni dibçəkdə yerləşdirməzdən əvvəl onun kökündəki torpaq topasına diqqətlə baxmaq lazımdır: çürümüş, qırılmış və ya zədələnmiş kökləri iti bıçaqla kəsmək, kəsilmiş hissəyə kömür tozu səpmək lazımdır. Hazırlanmış bitki dibçəyin ortasında elə yerləşdirilir ki, onun kökləri dibçəkdə bərabər

məsafədə yerləşsin, gövdənin kök boynu (kökə keçən yeri) dibçəyin ağzından 1-3 sm aşağıda olsun. Bitki sol əllə tutulur, sağ əllə torpaq tökülür və küt ağac cubuqla köklər arasına itələnir. Dibçəyi hərdən bir stola vurur və ya silkələyirlər ki, torpaq yatsın. Bitki ətrafındakı torpaq hər iki əlin baş və şəhadət barmaqları ilə basılır ki, kök boynu lazımi səviyyədə olsun.

Bitki köçürüldükdən sonra bol suvarılaraq beş-altı gün kölgəlikdə saxlanır. Bu müddət ərzində suvarma gündəlik su çiləmə ilə əvəz olunur. Əgər dibçəkdəki torpaq qurumağa başlayırsa, deməli, bitkinin kök sistemi işləməyə başlamışdır. Bəzən tez inkişaf edən bitkini kökündəki torpaq topası ilə birlikdə daha geniş dibçəyə köçürmək zərurəti yaranır.

**Ədəbiyyat**

1. Məktəbəqədər müəssisələrdə tərbiyə və təlim proqramı. Bakı, 1998.
2. Hacıyeva H. M., Məhərrəmov Ə. M. Ətraf aləmlə tanışlıq. Bakı, 2003.
3. Мазурина А. Ф., Б. Розина Т. Н., Сакевич А. А. Наблюдения и труд детей в природе. Москва, 1976.

**Уход комнатными растениями**

**Резюме**

В статье даются сведения о комнатных растениях в живом уголке. Каждому из этих растений требуется уход, соответствующий его природной среде обитания. Раскрываются методы изучения различных видов ухода комнатными растениями детям подготовительной группы: поливка, разрыхление земли, распыление водой, чистка листьев от пыли различными способами, перенос растений и их размножение.

**Scientific and methodologic fundamentals of nursing house plants in preschool preparatory group**

**Summary**

In this article the author gives information about house plants in the "nature corner" of school. Each of these plants needs nursing corresponding to its natural habitat. Methods if teaching various kinds of nursing to preschool preparatory group children are explained: watering, loosening ground, water atomization, different ways of cleaning dust from leaves, transferring plants and plant propagation.

# LİNQVİSTİK TƏHLİL PROBLEMİNİN MÖVCUD PROQRAMLARDA QOYULUŞU

**Emiliya Kərimova,**
AMİ –nin dosenti, pedaqogika üzrə fəlsəfə doktoru



**Açar sözlər:** linqvistik təhlil, milli kurikulum, nitq vahidləri, bacarıq və vərdişlər, ibtidai təhsil pilləsi, məzmun standartları, nitq mədəniyyətinin tələbləri, fonetik, leksik və qrammatik quruluş, ana dilinin tədrisi metodikası, linqvistik biliklər.

**Ключевые слова:** лингвистический анализ, национальный куррикулум, единицы речи, умения и навыки, ступен начального образования, стандарты содержания, требования культуры речи, фонетическое, лексическое и грамматическое строение, методика преподавания родного языка, лингвистические знания.

**Key words:** linguistic analysis, the national curriculum, a unit of speech skills, speed primary education content standards, the requirements of speech, phonetic, lexical and grammatical structure, methods of teaching their native language and linguistic knowledge.

Tədris fənləri sistemində ana dili fənni həlledici funksiya daşıyır. Bu fənnin tədrisində linqvistik bilik, bacarıq və vərdişlər yaranır, möhkəmləndirilir. Ana dilinin öyrənilməsi şagirdlərin ünsiyyət imkanlarını genişləndirir, onlarda nitq fəaliyyətini, düşünmə, öyrənmə və danışma bacarıqlarını formalaşdırır. Bunlar digər fənlər üzrə proqram materiallarının mənimsədilməsini də təmin edir.

Ana dili kurikulumu bu fənn üzrə məqsəd və vəzifələri müəyyənləşdirən və ona doğru istiqamətlənmiş standartların reallaşması üçün zəruri fəaliyyətləri əhatə edən konseptual sənəddir. Bu sənəddə fənn üzrə məzmun standartları, müəllim və şagird fəaliyyətinə aid texnologiyalar və qiymətləndirmə, ümumi təlim nəticələri əhatə edilmişdir. Ana dili kurikulumu dərslik və dərs vəsaitləri müəlliflərini, müəllimləri, qiymətləndirmə ilə məşğul olan mütəxəssisləri və digər təhsil işçilərini istiqamətləndirməyə xidmət edir.

Milli kurikulumlar ana dili ilə başlanır.

“Azərbaycan Respublikasında ümumi təhsilin milli kurikulumu” çərçivə sənədində müəyyən edilmişdir ki, ümumtəhsil məktəblərində ana dilinin tədrisi vasitəsilə ibtidai təhsil pilləsində əlifbanın öyrənilməsi, oxu və yazı texnikasının, hüsnxət qaydalarının, düzgün, sürətli, şüurlu və ifadəli oxu üzrə ilkin bacarıqların mənimsənilməsi, lüğət ehtiyatının tədricən zənginləşdirilməsi, ən zəruri qrammatik qaydaların və ədəbi tələffüz normalarının öyrənilib tətbiq edilməsi, ekspressiv nitq bacarıqlarının formalaşdırılması, Azərbaycan xalqının dili, tarixi, əxlaqi-mənəvi

dəyərləri, mədəniyyəti, adət-ənənələri haqqında ilkin anlayışların yaradılması təmin olunur.

Məzmun xətləri ümumi təlim nəticələrinin reallaşdırılması üçün müəyyən olunan fənn kurikulumunun zəruri hissəsi olub, şagirdlərin əldə edəcəkləri bilik və bacarıqları aydın təsvir etmək və onu sistemləşdirmək məqsədi daşıyır. Məzmun xətləri təhsilin bütün pillələri üzrə aşağıdakı kimi müəyyən edilmişdir:

- dinləyib – anlama və danışma; oxu; yazı; dil qaydaları.

Bunların içərisində mövzumuzla birbaşa əlaqəsi olan dil qaydalarıdır. Bu məzmun xətti dilin fonetik, leksik və qrammatik quruluşu ilə bağlı olan ən zəruri biliklərin yığcam, sadə, aydın qaydalar və şərhlər formasında şagirdlərə çatdırılmasını, orfoqrafiya qaydalarına riayət edilməsini, durğu işarələrindən düzgün istifadə olunmasını nəzərdə tutur. Şagirdlərin şifahi və yazılı nitq bacarıqlarının formalaşmasında mühüm rol oynayan ən zəruri biliklərin öyrənilməsini, mədəni nitq üçün vacib sayılan tələblərin qavranılmasını, ədəbi dilin funksional və fərdi üslublarının səciyyəvi xüsusiyyətlərinin dərk olunaraq fərqləndirilməsini və təcrübədə tətbiqini təmin edir.

Ana dili kurikulumunda dil qaydaları məzmun xətti üzrə aşağıdakı fəaliyyət istiqamətləri nəzərdə tutulmuşdur:

- problemin həlli; mühakiməyürütmə və əsaslandırma; ünsiyyət; tədqiqetmə; tətbiqetmə.

Dil qaydaları məzmun xətti dilimizin fonetik, leksik və qrammatik quruluşu ilə bağlı minimum bilik və bacarıqların yığcam, sadə və aydın şərhlər şəklində şagirdlərə çatdırılmasını, orfoqrafiya, orfoepiya və durğu işarələri üzrə zəruri vərdişlərin aşılanmasını təmin edir. Şagirdlərin qazandıqları bu vərdişlər oxu və yazı qabiliyyətlərinin, rabitəli nitq inkişafının, kommunikativ mədəniyyətin formalaşmasına imkan yaradır.

Ana dili kurikulumunda bütün məzmun xətləri, eləcə də dil qaydaları üzrə məzmun standartları hər sinif üzrə müəyyənləşdirilmiş və aydın şəkildə təqdim olunmuşdur.

İbtidai təhsilin birinci pilləsində dil qaydaları üzrə məzmun standartları aşağıdakı kimi qoyulmuşdur:

4.1. Zəruri dil qaydalarını mənimsədiyini nümayiş etdirir.
4.1.1. Səs və hərfləri adlandırır və fərqləndirir.
4.1.2. Sait və samit səsləri tanıyır.
4.1.3. Sait səslərə görə sözləri hecalara ayırır.
4.1.4. Böyük və kiçik hərfləri fərqləndirir.
4.1.5. Hərfləri əlifba sırası ilə sadalayır.
4.1.6. Tək və cəm anlayışlarını nümunələrlə izah edir.
4.1.7. Ad, əlamət və hərəkət bildirən sözləri tanıyır və fərqləndirir.
4.1.8. Cümlənin nə olduğunu bilir və əsas əlamətlərini sadalayır.
4.1.9. Məqsəd və intonasiyaya görə cümlələri fərqləndirir.

II sinifdə dil qaydaları üzrə məzmun standartları aşağıdakılardır:

4.2. Zəruri dil qaydalarını mənimsədiyini nümayiş etdirir.

4.2.1. Sait və samit səsləri fərqləndirir.

4.2.2. Sözlərin böyük hərflə yazılmasına dair qaydalardan məqamına uyğun istifadə edir.

4.2.3. Rast gəldiyi yeni sözlərin yazılış və tələffüz qaydalarını müəyyənləşdirmək üçün lüğətlərdən istifadə edir.

4.2.4. Cəm şəkilçisinin düzgün yazılış və tələffüz variantlarını fərqləndirir.

4.2.5. Sözləri qrammatik mənasına görə fərqləndirir.

4.2.6. Cümləni digər nitq vahidlərindən fərqləndirir.

4.2.7. Tələb olunan məqsəd və intonasiyaya görə cümlə qurur və onu müvafiq işarələrlə tamamlayır.

III sinifdə dil qaydaları üzrə məzmun standartları aşağıdakı kimi sistemləşdirirlmişdir:

4.3. Zəruri dil qaydalarını mənimsədiyini nümayiş etdirir.

4.3.1. Sait və samit səsləri növlərinə görə qruplaşdırır.

4.3.2. Sözlərin böyük hərflə yazılmasına dair qaydalardan məqamına uyğun istifadə edir.

4.3.3. Rast gəldiyi yeni sözlərin yazılış və tələffüz qaydalarını müəyyənləşdirmək üçün lüğət və sorğu kitablarından istifadə edir.

4.3.4. Cəm şəkilçisinin yazılış və tələffüzü ilə bağlı qaydaları nitqində tətbiq edir.

4.3.5. Leksik və qrammatik mənalarına görə sözləri adlandırır və fərqləndirir.

4.3.6. Cümlənin formalaşmasında baş və ikinci dərəcəli üzvlərin rolunu sadə şəkildə izah edir.

4.3.7. Məqsəd və intonasiyanı dəyişməklə verilmiş cümləni müxtəlif məqamlarda işlədir.

IV sinifdə məzmun standartları aşağıdakılardır:

4.4. Zəruri dil qaydalarını mənimsədiyini nümayiş etdirir.

4.4.1. Sadə formada fonetik təhlil aparır.

4.4.2. Sözlərin böyük hərflə yazılışına dair qaydalardan məqamına uyğun istifadə edir.

4.4.3. Rast gəldiyi yeni sözlərin yazılış və tələffüz qaydalarını müəyyənləşdirmək üçün lüğət, sorğu kitabları və kataloqlardan istifadə edir.

4.4.4. Cümlənin formalaşmasında cəm şəkilçilərindən istifadə edir.

4.4.5. Köməkçi nitq hissələrini tanıyır, onların əsas nitq hissələrindən fərqini izah edir.

4.4.6. Cümlənin düzgün quruluşunda baş və ikinci dərəcəli üzvlərin yerini dəqiq müəyyən edir.

4.4.7. Cümlə və onun növləri ilə əlaqədar kiçik təqdimatlar edir.

Azərbaycan dili proqramında təlimin məqsədi belə müəyyənləşdirilir: "Azərbaycan dili təliminin əsas məqsədi dilimizin fonetik, morfoloji, sintaktik quruluşuna, leksikası, frazeologiyası və digər sahələrinə dair müvafiq nəzəri biliklər

verməkdən və bu biliklər zəminində onlardan hərtərəfli nitq hazırlığı, yəni savadlı yazı, şüurlu və rəvan oxu vərdişləri, təlim informasiyalarını düzgün başa düşmək, ünsiyyətin müxtəlif şəraitlərində öz fikrini şifahi və tələb olunan hallarda yazılı olaraq sərbəst, dəqiq və düzgün ifadə etmək bacarıqları yaratmaqdan ibarətdir".

Ana dilini bilmədən digər fənləri lazımi səviyyədə mənimsəmək qeyri-mümkündür, çünki ana dili əsas ünsiyyət vasitəsi olmaqla yanaşı, həm də düşünmə, dərketmə vasitəsidir. Ana dili fənninə mükəmməl yiyələnmək üçün isə linqvistik təhlilin aparılması vacibdir.

Linqvistik təhlil dedikdə, dilin şöbələrinin hər birinə dair anlayışların ən mühüm cəhətlərinin diferensiasiya-inteqrasiya olunması nəzərdə tutulur. Ümumiyyətlə, fonetik, leksik, morfoloji və sintaktik təhlil məhz bu şəkildə aparılır. Linqvistik təhlil həcminə görə ümumi və xüsusi xarakter daşısa da, məqsədinə görə natamam və tam olur. Linqvistik təhlil həm təlim, həm də tədqiqat metodları əsasında öyrədilir.

Linqvistik təhlil zəruri ümumiləşdirmə vasitəsidir. O, idrakın və təlimin metodlarını eyni istiqamətə yönəldir. Linqvistik təhlil geniş anlayışdır, təhlil komponentlərinin linqvistik əsasları zəncirvari formada bir-biri ilə bağlanır. Buna görə də müəllim sinfi linqvistik təhlilə pedaqoji və psixoloji cəhətdən hazırlamalıdır. Əks halda, əvvəllər əldə olunmuş bacarıqlar təhlil üçün özülə çevrilməz.

Təhsil sahəsində xeyli dəyişikliklərin, irəliləyişlərin baş verdiyi indiki dövrdə, köhnə metodikalardan fərqli olaraq, təhlilin təşkili prosesində müəllim həm tənzimləyici, həm də nəzarətçi rolunda çıxış edir.

Linqvistik təhlil prosesində dilin fonetik, leksik və qrammatik quruluşu, ədəbi dilin qanunları dərk edilir,qrammatik məfhumlar dərindən öyrənilir, qrammatik kateqoriyalar şüurlu şəkildə mənimsənilir. Linqvistik təhlil Azərbaycan dili təlimində tətbiq edilən səmərəli tədris vasitələrindən biridir. Belə ki, təhlil prosesində dilçiliyin fonetika, leksikologiya, orfoqrafiya, qrammatik qayda-qanunları və s. öyrənilir, eyni zamanda əldə olunmuş keçmiş biliklər təkrarlanır və yaddaşda möhkəmlənir. Həmçinin dilin bütün sahələrinə aid öyrənilmiş biliklər təcrübədə tətbiq edilir.

Təcrübə göstərir ki, təhsil alanların hamısı linqvistik təhlil bacarığına lazımınca yiyələnmir. Buna səbəb müəllim hazırlığının və şagirdlərin bilik səviyyələrinin aşağı olması, təhlilin aparılması texnikasının lazımi formada tətbiq edilməməsi, optimal dərsliklərin, dərs vəsaitlərinin olmamasıdır.

Ana dilinin tədrisi metodikası fənni üzrə kurikulumun məzmun xətləri aşağıdakılardır:

- savad təlimi üzrə aparılan işlər;
- qiraət vərdişlərinin yaradılması və inkişafı üzrə işlər;
- fonetik və qrammatik biliklərin mənimsənilməsi üzrə aparılan işlər;
- orfoqrafik vərdişlərin yaradılması və möhkəmləndirilməsi üzrə aparılan işlər;
- nitq inkişafı üzrə aparılan işlər.

Mövzumuzun tələbinə uyğun olaraq fonetik və qrammatik biliklərin mənimsənilməsi üzrə aparılan işlər məzmun xəttinin ümumi və xüsusi təlim nəticələrini burada əks etdirməyi lazım bildik.

3. Fonetik və qrammatik təhlil anlayışlarını mənimsətməklə şagirdlərin nitqini və təfəkkürünü inkişaf etdirməyi, onlarda dilimizə, onun fonetik sistem və qrammatik quruluşuna maraq yaratmağı bacarır.

3.1. İbtidai siniflərdə fonetik və qrammatik materialların təliminin məqsəd və vəzifələrini bilir, qrammatik anlayışları formalaşdırır.

3.2. Qrammatikanın tədrisi prosesində şagirdlərdə müstəqillik formalaşdırır, onların fərdi bacarıqlarını inkişaf etdirmək üçün qrup fəaliyyətindən istifadə edir.

3.3. Fonetikanın, qrammatik materialların, morfologiyadan isim, sifət və fellərin, sintaksisdən cümlə üzvləri və cümlənin intonasiyaya görə növlərinin fərqləndirilməsi yollarını bilir, məktəb təcrübəsində onlardan istifadə etməyi bacarır.

3.4.Qrammatikanın tədrisində mənimsəməni asanlaşdırmaq üçün məqsədəuyğun materiallar, resurslardan (cədvəllər, sxemlər, şəkilli albomlar, lüğətlər, digər sorğu kitabları, akustik və vizual texniki vasitələr və s.) istifadə etməyi bacarır.

3.5. Müntəzəm aparılan qeydlər və müsahibələrə əsaslanaraq öyrənənin hazırlığını və inkişafını qiymətləndirə bilir.

3.6. Fonetik və qrammatik bilikləri nitq inkişafı ilə əlaqələndirməyi bacarır.

Digər məzmun xətləri üzrə təlim nəticələrindən bəzilərini diqqətə çatdıraq:

4.2. Yazı təlimini qrammatik materialların tədrisi ilə əlaqələndirməyi bacarır.

4.4. Orfoqrafik çalışmalardan məqsədəuyğun şəkildə istifadə etməyi bacarır.

5.3. Cümlə qurmaq bacarığının yaradılması ilə bağlı aparılacaq işin məzmununu bilir, bu sahədə səmərəli yollardan, üsullardan istifadə etməyi bacarır.

Ana dili üzrə həm orta məktəb, həm də ali məktəb kurikulumunda məsələnin qoyuluşu linqvistik biliklərin düzgün, məqsədəuyğun öyrədilməsi, bu biliklər əsasında bacarıq və vərdişlərin formalaşdırılması məqsədinə xidmət edir.

**Ədəbiyyat**


1. Azərbaycan Respublikasında ümumi təhsilin milli kurikulumu.
2. Ümumitəhsil məktəblərinin I-IV sinifləri üçün fənn kurikulumları. Bakı, "Təhsil", 2008.
3. Kərimov Y.Ş., Kərimova E.Y. II sinifdə Azərbaycan dili dərsləri. Bakı, "Nasir", 2005.


**Постановка проблемы лингвистического анализа в действующих программах.**

**Резюме**


В статье речь идет о постановке проблемы лингвистического анализа в действующих программах и указывается, что изучение родного языка занимает своеобразное место в националыном куррикулуме. Речь идет о стандартах содержания, выдвигаемых на всех ступенях начального образования и отмечается, что в процессе лингвистического анализа усваиваются фонетическое, лексическое и грамматическое строения родного языка, усваиваются важные грамматические категории и законы художественного языка. Отмечается, что постановка проблемы лингвистического

анализа в куррикулуме служит обучению лингвистическим знаниям и на основе этих знаний происходит формирование умений и навыков.

**Formulation of the problem of linguistic analysis in the national curriculum and existing programs.**

**Summary**

In this article we are talking about the production problems of linguistic analysis to current programs and stated that the study of the native language is a peculiar place in the curriculum-natsionalynom. It's about standards of maintenance, nominated at all levels of primary education, noting that in the process of linguistic analysis of digested phonetic, lexical and grammatical structure of the native language, assimilated important grammatical categories and laws of the artistic language. It is noted that the formulation of the problem of linguistic analysis in the curriculum is teaching linguistic knowledge and based on that knowledge is formed and skills.

# EKSKURSİYA ŞAGİRDLƏRİN DÜNYAGÖRÜŞÜNÜN FORMALAŞMASININ MÜHÜM VASİTƏSİ KİMİ

**Təranə Muradova,**
Bakı şəhəri, 287 nömrəli Zəkalar liseyi



**Mövzu:** Ekskursiya prosesində nələri öyrənirik.

**Məqsəd:**

- ekskursiya prosesində nəqliyyatda davranış qaydalarını şərh etmək;
- şübhəli əşyalara toxunmağın və yad insanlarla ünsiyyətin təhlükəli olduğunu izah etmək.

**İnteqrasiya:** Fiziki tərbiyə: 4.1.1. Hərəkətin tezliyi qabiliyyətinin inkişaf etdirilməsi; 4.1.2. Sürət-güc qabiliyyətinin inkişaf etdirilməsi.

**Dərsin tipi:** yeni bilik və bacarıqlar formalaşdıran dərs.

**İş formaları:** kollektivlə iş, fərdi iş

**Metodlar və priyomlar:** müzakirə,esse.

**Resurslar:** dərslik, iş dəftəri.

**Dərsin gedişi**

**Motivasiya.** Dərsə belə bir atalar sözü ilə başlayıram: "Yüz dəfə eşitməkdənsə, bir dəfə görmək yaxşıdır". Aşağıdakı yardımçı suallarla şagirdlərə müraciət edirəm:

– Bu atalar sözünün mənası nədir?

– İnsan ətraf aləm haqqında yeni məlumatları necə əldə edə bilər?

Şagirdlərin cavabları:

– kitab oxumaqla;

– televiziya verilişlərinə baxmaqla;
– əyani görməklə, ekskursiya yolu ilə.

**Tədqiqat sualı:** Ekskursiya prosesində hansı qaydalara əməl olunmalıdır? Bu qaydalara əməl etməyin əhəmiyyəti nədir?

**Tədqiqatın aparılması:** Şagirdlərə tapşırıram ki, hazırlıq görsünlər, üşüməmək, xəstələnməmək üçün nə geyinəcəklərini müəyyənləşdirsinlər, mövsümə uyğun geyinsinlər. Onlara elan edirəm:



– Gələn həftənin axırında paytaxtımızın ərazisində olan tarixi yerlərdən birinə – Qız qalasına ekskursiyaya gedəcəyik. Böyüklərdən Qız qalasına aid məlumat toplaya bilərsiniz. Onlar sizə gedəcəyiniz yer haqqında əfsanə, rəvayət danışa, xeyli məlumat verə bilərlər.

Nəhayət, gözlənilən gün gəlib çatdı.Yola düşməzdən əvvəl şagirdlərə hansı qaydalara əməl etməli olduqlarını bildirdim. Qeyd etdim ki, biz ictimai nəqliyyatdan istifadə edəcəyik.

– Siz gərək nəqliyyatda davranış qaydalarına riayət edəsiniz.Yolu keçərkən tələsməyin. İşıqforun işıq nişanlarının xəbərdarlığına, yol hərəkəti qaydalarına əməl edin. Diqqətli olun. Ətrafda gördüyünüz, amma nə olduğunu bilmədiyiniz əşyalara toxunmayın. Bu, sizin və yoldaşlarınızın həyatı üçün təhlükəli ola bilər. Tanımadığınız adamlarla ünsiyyətə girməyin. Onların arasında pis niyyətli insanlar ola bilər.



Getdiyimiz yerin tarixi haqqında bələdçi bizi məlumatlandıracaq. Bələdçinin dediklərinə diqqətlə qulaq asın, çünki ekskursiyadan qayıdandan sonra gördükləriniz və eşitdikləriniz haqqında inşa yazacaqsınız.



Nəhayət, gəlib lazımi ünvana çatdıq.

Sıra ilə Qız qalasına yaxınlaşıb, onun içərisinə daxil olduq. Bu, tarixi keçmişimizdən xəbər verən, sirlərlə dolu bir abidədir. Tarixi abidəni gəzərkən onun haqqında şagirdləri hərtərəfli məlumalandırıram. Şagirdlər də böyüklərdən öyrəndikləri məlumatları danışırlar. Şagirdlərin böyüklərdən, internet səhifələrindən, kitab və qəzet lərdən öyrəndikləri məlumatlar heyrətləndirici dərəcədə geniş idi. Ekskursiya zamanı şagirdlər öyrəndilər ki, Qız qalası Azərbaycanın ən qədim tarixi-memarlıq abidələrindən biridir. İçərişəhərdə yerləşir. XII əsrdə memar Məsud Davud oğlunun başçılığı ilə müdafiə məqsədi üçün tikilmişdir. Qala dənizin içində tikilib. Sonra Xəzər geri çəkildiyi üçün qala quruda qalıb. Formasına görə Şərqdə yeganə abidədir. Hündürlüyü 28 m-dir. Əsas silindrik hissə 8 mərtəbədən ibarətdir. XVIII-XIX əsrlərdə qaladan gözətçi məntəqəsi və mayak kimi istifadə olunmuşdur. Abidənin adı ilə əlaqədar xalq arasında müxtəlif əfsanələr mövcuddur. Əfsanələrin birində gənc qızın namusunu qorumaq üçün özünü qaladan atmasından, bundan sonra abidənin «Qız qalası» adlandırıldığından bəhs olunur.



Beləliklə, şagirdlər bu abidənin nəinki tarixi, həmçinin tikilməsi, funksiyası, memarlıq xüsusiyyətləri, tədqiqi, abidənin ətrafında aparılan qazıntıların nəticələri, hətta onun bərpası haqqında çoxlu məlumat topladılar. Bu da mövzunun mənimsənilməsindən, ekskursiyanın çox uğurla nəticələnəcəyindən xəbər verirdi.

**İnformasiya mübadiləsi.** "Verilən məlumatlara daha nə əlavə edə bilərsiniz?" sualı ilə şagirdlərə müraciət edirəm.

Verilən cavablar əsasında qrupların çıxardığı nəticələr aşkarlanır. Onlar hər bir detalı şəxsən nəzərdən keçirmiş, müşahidə aparmışlar. Belə ki, verilən şifahi məlumat müxtəlif şagirdlər tərəfindən müxtəlif dərəcədə mənimsənilirsə, müşahidə prosesində əldə edilən bilikləri ən zəif şagirdlər də müvəffəqiyyətlə mənimsəyirlər.

**İnformasiya müzakirəsi.** Ekskursiya başa çatdıqdan sonra aşağıdakı suallarla şagirdlərə müraciət edirəm:

1. Hansı yerlərə ekskursiyalar təşkil oluna bilər?
2. Tarixi abidələrə ekskursiyaların əhəmiyyəti nədir?

Alınan cavablar təhlil olunur.

**Ümumiləşdirmə və nəticə.** İstiqamətləndirici suallar əsasında belə bir nəticəyə gəlirik ki, kollektiv şəkildə təşkil olunan ekskursiyalar zamanı biz qismən müstəqil oluruq. Ekskursiya hər bir insanın dünyagörüşünün formalaşmasına, biliklərinin artmasına təsir edir. Ona görə də ekskursiya və gəzintilərdən səmərəli istifadə etmək lazımdır. Ekskursiyalar zamanı hər birimiz öz davranışımıza xüsusi diqqət yetirməliyik.

**Ev tapşırığı:** "Ekskursiyadan aldığım təəssuratlar" adlı inşa yazın.

# TƏNLİKLƏR VƏ BƏRABƏRSİZLİKLƏRİN ÖYRƏDİLMƏSİNİN ŞAGİRDLƏRİN RİYAZİ BİLİKLƏRİNİN İNKİŞAFINDA ROLU

**Valeh Məmmədov,**
AMİ-nin müəllimi



**Açar sözlər:** tənliyin kökü, ədədlərin müqayisəsi, komponentlərin tapılması, ümumiləşdirmə, seçmə üsulu, vurmanın xüsusi halı, çıxmanın xüsusi halı, mürəkkəb tənlik, dəyişən, doğru bərabərsizlik, adlı ədəd, kəmiyyət.

**Ключевые слова**: корен уравнения, сравнение чисел, находка компонентов, обобщение, способ выбора, особое положение умножения, особое положение вычитания, сложное уравнение, переменный, правильное неравенство, именное число, количество

**Key words**: finding of the components, the generalizing, theselecting, root of the equation, comparison of the numbers method, special circumstance strike, special circumstance go out, arbitrary number, complex equation, changing, inequality, named number, quantity true.

Təcrübə göstərir ki, tənlik və bərabərsizliklərin həlli ancaq ibtidai siniflərdə deyil, yuxarı siniflərin riyaziyyat kursunda da çətin mənimsənilən mövzulardandır. Tənliyin qurulması və həlli şagirdin məntiqi təfəkkürünün, diqqətliliyinin formalaşmasına kömək etməklə yanaşı, onda əməlin nəticələrinə görə komponentləri tapma bacarığını da inkişaf etdirir.

Nəzərdə tutulan anlayışların şagirdlərə öyrədilməsi üçün ibtidai sinif müəllimlərinin hazırlığında tənlik və bərabərsizliklərə aid materialın geniş şərhinə ehtiyac hiss olunur.

Ibtidai sinif şagirdlərinə tənliyin həllini öyrətmək məqsədilə hazırlığın aparılması səmərəli olur. Bunun üçün əvvəlcə toplama, çıxma, vurma və bölmənin xüsusi halları təkrar edilir və ümumiləşdirmə aparılır. Xüsusi halların hər birini şagirdlər icra edirlər. Lazım gəldikdə, müəllim istiqamət verir:

$a+0=a$ $\quad a\cdot 1=a$ $\quad a:a=1$

$a-0=a$ $\quad a\cdot 0=0$ $\quad a:1=a$

$a-a=0$ $\quad 0:a=0$

Müəllim bu yazılışların hər bir şagird tərəfindən tam mənimsənildiyini yəqin etdikdən sonra nümunələrə baxılır:

– Tənlikləri seçmə üsulu ilə həll edin:

| | |
|---|---|
| 1) $12+y+y+y+y=12$ | 6) $18\cdot a=18:a$ |
| 2) $14-a-a-a=14$ | 7) $17\text{-}y=5\text{-}5$ |
| 3) $x+7=4+3$ | 8) $3\cdot(n\text{-}n)=0$ |
| 4) $5+x=5\text{ - x}$ | 9) $m-7=0$ |
| 5) $x\cdot 8=0$ | 10) $36:y=24:12$ |

Göstərilən bu nümunələrə aid çalışmaların həllini müəllimin şərhi əsasında veririk.

– Tənlikləri seçmə üsulu ilə həll edin:

1) $5\cdot(n-n)=0$

Vurmanın xüsusi halını yada salaq: "Vuruqlardan biri sıfır olduqda hasil sıfra bərabər olur". Birinci vuruq sıfra bərabər deyildir, onda ikinci vuruq $(n-n)=0$ olar. Fərq sıfra bərabərdirsə, onda azalan çıxılana bərabərdir, bu $n$-nin ixtiyari ədəd olduğunu göstərir.

2) $25-t\cdot t=0$

Çıxmanın xüsusi halını yada salaq: "Fərq sıfra bərabərdirsə, onda azalan və çıxılan bir-birinə bərabər olmalıdır". Verilən çalışmada iki ədədin hasili 25-ə bərabərdirsə, onda $t=5$ olar.

3) $a\cdot a+9=0$

Toplamanın xüsusi halını yada salaq: "Toplananların hər biri sıfra bərabər olduqda, cəm sıfır olur". Verilən tənlikdə ikinci toplanan 9-a bərabərdir. Onda tənliyin həlli yoxdur.

4) $x+x+x=x\cdot 3$ tənliyini həll edək.

$x+x+x=x\cdot 3$

$3\cdot x=x\cdot 3$ bərabərliyi $x=3$ olduqda ödənilir. Yoxlayaq:

$3+3+3=3\cdot 3$

$9=9$

5) $8\cdot(k-k)=0$

Hasil sıfra bərabər olduğundan, ancaq $k-k=0$ olar. Buradan $k$-nın ixtiyari ədəd olduğu aydın olur.

Yoxlayaq: $8\cdot(1\text{-}1)=0$

$8\cdot 0=0$

6) $49-n\cdot n=0$

$n\cdot n=49$

$n=7$

Yoxlama: $49-7\cdot 7=0$

$0=0$

7) $b\cdot b+25=0$

Yenə də ikinci toplanan 25 olduğubdan tənliyin həlli yoxdur.

Nümunələrin həllindən sonra şagirdlərin bilikləri sistemləşdirilir, onlara daha çətin olan tənliklərin həlli öyrədilir. Bu zaman metodik yollardan bacarıqla istifadə edilməlidir. Bunun üçün $(53\text{-}8x):3=7$ tənliyinə baxaq.

Tənliyin sağ tərəfində qismət yazılmışdır. (53-8$x$) məchul bölünəndir. "Məchul bölünəni tapmaq üçün qisməti bölənə vurmaq lazımdır" qaydasını şagirdlərin yadına salırıq. Onlar 53-8$x$=7 · 3 yazır, sağ tərəfi sadələşdirərək 53-8$x$=21 alırlar.

"Məchul çıxılanı tapmaq üçün azalandan fərqi çıxmaq lazımdır" qaydasından istifadə edərək 8 · $x$=53-21 yazırlar. Alınan sadə tənlikdən (8 ·$x$ =32) məchul vuruğu tapma qaydasından istifadə etməklə $x$=32:8; $x$=4 cavabını tapırlar.

Sonra isə $x$ dəyişəninin yerinə 4 qiymətini yazmaqla, tənliyin düzgün həll edildiyini yoxlayırlar. Bu zaman bərabərliyin sol tərəfi sağ tərəfinə bərabər olur: (53-8· 4):3=7; 7=7.

Apardığımız həlli digər nümunə əsasında qısa şəkildə belə yazmaq olar:

(630-$k$ · 30):4=90

630-$k$ · 30=90·4

630-$k$ · 30=360

$k$ · 30=630-360

$k$ · 30=270

$k$=270:30

$k$=9

Yoxlama: (630-9 · 30):4=90, 90=90.

Tənliklərin həllində hər bir addım hər şagird tərəfindən təkrarlandığı üçün yaddaşda möhkəmlənir, onların riyazi nitqi formalaşır və fikirlərini yığcam ifadə edə bilirlər.

Şagirdlərin mürəkkəb tənliklər həll edə bilmək bacarıqlarına tam əmin olduqdan sonra (920:$a$+170):5=160:2 şəklində olan daha mürəkkəb tənliklərin həlli üzərində iş aparmaq olar.

Tənliklər qurmaqla məsələ həllinə də yer ayrılmalıdır. "Samir bir ədəd fikirləşdi. Həmin ədədi 5 dəfə artırıb, hasilə 65 əlavə etsək, 180 alınar. Samir hansı ədədi fikirləşmişdir?".

– Samirin fikirləşdiyi ədədi $x$ ilə işarə edək. Şərtə görə həmin ədəd 5 dəfə artırılmışdır, yəni 5 · $x$. Həmin ədədin üzərinə 65 əlavə edildikdə 180 alındığından 5 · $x$+65=180 tənliyini alırıq. Tənliyi həll etsək, 5 · $x$=180-65; 5$x$=115; $x$=23 alırıq. Cavab: Samir fikrində 23 ədədini tutmuşdur.

Bir qədər irəliləyərək, (7-$b$)·($b$-3)·($b$+2)=0 kimi tənliklərin də həllinə baxmaqla dərsi daha maraqlı qurmaq olar. Burada, əgər vuruqlardan biri sıfra bərabərdirsə, onda hasil sıfra bərabər olar. ($b$+2) hasili sıfra bərabərdirsə, onda hasil sıfra bərabər olar. ($b$+2) hasili sıfra bərabər ola bilməz. Onda iki tənlik alırıq: 7-$b$=0; $b$-3=0. Bu tənlikləri həll etsək, b=7-0=7; b=0+3=3 alırıq.

–Yoxlama apararaq bu dəyişəninin əvəzinə 7 və 3 ədədlərini yazaq:

(7-7) · (7-3) · (7+2) = 0; 0 · 4 · 9=0; 0=0,

(7-3) · (3-3) · (3+2)=0; 4 · 0 · 5=0, 0=0.

Tənliyin sağ və sol tərəflərinin qiyməti eyni olduğundan, həll doğrudur.

"Bərabərsizlik" anlayışı kurikulumda, eləcə də dərsliklərdə nəzərdə tutulduğundan, onun həllinə aid bəzi metodiki şərhləri nümunələr əsasında göstərək.

– 3 · 5+3 · 2<3 · 9 bərabərsizliyini yoxlayın.

Burada vurmanın paylama qanununu şagirdlərin yadına salmaq lazımdır: $a \cdot b + a \cdot c = a(b+c)$. Bunu verilən misalda nəzərə alsaq, 3 · (5+2) <3 · 9, yaxud 7< 3 · 9; 21<27 alınar ki, buradan 3 · 5+3 · 2<3 · 9 bərabərsizliyi doğru olar.

– 35:7+8<9+8 bərabərsizliyini yoxlayın.

Bərabərsizliyin sağ tərəfini sadələşdirək;

5+8<9+8. Bu bərabərsizliyin sağ və sol tərəfindəki ikinci toplanan eyni ədəddir. 5 toplananı 9 toplananından kiçik olduğundan 5+8<9+8 olar. Buradan da 35:7+8<9+8 doğru bərabərsizliyi alınar.

– Ədəddən cəmin çıxılması qaydasını yada salaq: a-(b+c)=$a-b-c$. Bunu nəzərə alsaq, 43-4-8>16; 43-12>16, 31>16 alarıq. Buradan 43- (4+8)>16 doğru bərabərsizlik olduğu alınar.

– 63: (2+5)>56:7 əməlində sol tərəfi sadələşdirək: 63:7>56:7

Bərabərsizliyin sağ və sol tərəfində bölən eyni ədəddir. Onda 63 bölünəni 56 bölünənindən böyük olduğundan 63:7 >56:7 alınar. Bu da 63: (2+5) >56:7 bərabərsizliyinin doğruluğunu göstərir.

Daha sonra şagirdlərə “20 və 80 ədədlərinin cəmi, yoxsa hasili böyükdür?” tapşırığı verilir. Bu çalışmada əvvəl ədədlərin cəmi, sonra hasili tapılır:

80·20=1600; 80+20=100; 1600>100 olduğundan 80·20>80+20 yazılır. Hesablamalara aid biliklərin möhkəmləndirilməsində aşağıdakı çalışmalardan istifadə etmək olar:

– Hesablama aparmadan ifadələri müqayisə edin (>,<, = işarələrini yazın).

1) 156: (4 · 3)....156: 4 · 3

2) 560: (20 · 7)....560:20:7

3) (520-280): 8....520-280: 8

Çalışmaların yerinə yetirilməsində cəmin ədədə vurulması və bölünməsi qaydalarını, eləcə də vurma və bölmənin paylama xassələrini şagirdlərin yadına salmaq lazımdır. Bu zaman şagirdlər 156: (4·3)=156: 4:3 yazsalar, səhv nəticəyə gələ bilərlər, lakin 156: (4 · 3) < 156: 4 · 3 yazaraq doğru cavab alırlar.

Şagirdlərin bərabərsizliklərə aid biliklərini artırmaq üçün adlı ədədlər üzərində çalışmalara da yer ayırmaq lazımdır. Belə çalışmaların həlli prosesində kəmiyyətlər üzərində əməllərə dair bilikləri təkrar etməklə yanaşı, sistemləşdirmək də mümkündür. Həmin çalışmalar aşağıdakı kimi ola bilər:

– Kəmiyyətlərin qiymətlərini müqayisə edin.

12 dm....999mm

2 saat 30dəq.....170dəq.

6 t 444kq.....8s 50kq

178 saat.... 7 gün (sutka)

Kəmiyyətləri müqayisə etmək üçün onları eyni vahidlərlə ifadə etmək lazım olduğunu şagirdlərin yadına salmaq vacibdir. Bunun üçün müxtəlif uzunluq, vaxt, kütlə, sahə vahidlərinin nəzərdən keçirilməsi məsləhətdir.

Kəmiyyətlərin müqayisəsinə dair biliklərin genişləndirilməsi üçün aşağıdakı çalışmalardan istifadə etməklə çətin mənimsənilən mövzunu asanlıqla şərh etmək olar:

1/4 *s*....1/25 *t*
1/2 *s*....80.000*q*
1/125 *t*....1/10 *s*
1/8 gün....240 dəq.
1/50 *t*....1/5 *s*

1 həftə....6 gün
1 ay.....32 gün
1/5 *ha*.....20 *a*
(1 $a$=100$m^2$, 1 $ha$=100$a$; 1$ha$=10.000 $m^2$)

Materiallar göstərilən ardıcıllıqla şərh olunarsa, onda nəinki şagirdlərin nəzəri bilikləri öz tətbiqini tapar, həmçinin onların bacarıqları təkmilləşər, bilikləri möhkəmlənər. Bu, ibtidai siniflərdə riyaziyyatın tətbiqi istiqamətinin güclən-dirilməsinə kömək edir.

**Ədəbiyyat**


1. Qəhrəmanova N., Əsgərova C. Riyaziyyat. (II sinif). Bakı, 2009.
2. Qəhrəmanova N., Əsgərova C. Riyaziyyat. (III sinif). Bakı, 2010.
3. Щклярова Т.В. Математика. (IV класс). Сборник упражнений. Москва, 2010.
4. Ефимова А. Решаем трудные упражнения и неравенства. (III-IVклассы). Санкт-Петербург, 2010.


**Роль изучение решений уравнений и неравенств в развитие математических знаний учащихся**

**Резюме**


В статье на основе практической работы дается толкование учащимся начальных классов решений уравнений и неравенств. В данных образцах указывается, что изложенные материалы оказывают положительное влияние на повыше-ние знаний учащихся начальных классов. С методической точки зрения охватываются актуальные вопросы. Большую роль она имеет в теоретической подготовке учителя.


**Equation in rising of the mathematical knowledge of the pupils and teaching of the solution of the inequalities**

**Summary**


It is commented teaching to primitive (class pupil of the solution of the equations and inequalities in the article written on the basis of experiment experience of work. Influenced to the raising, application positively pupils of primitive class is shown. He solves the urgent problem from the methodical side peculiarity. He has many these to importances in the teacher theoretical preparation.

# TOPLANANLARIN YERİNİ DƏYİŞMƏSİNİ NECƏ ÖYRƏDİRƏM

**Fəridə Babayeva,**
Qax rayon təhsil şöbəsi metodkabinetinin metodisti



***Mövzu***:Toplananların yerini dəyişməsi
***Məqsəd:***

- toplamanı iki qrup əşyanın birgə sayılması kimi modelləşdirmək;
- *əlavə etmək, artırmaq, cəm, oldu* ifadələrini toplama ilə düzgün əlaqələndirmək və bu əlaqələri əşyalar çoxluğunun köməyi ilə nümayiş etdirmək;
- toplama əməlinin komponentlərinin və nəticəsinin adlarını bildiyini nümayiş etdirmək;
- toplama əməlinin komponentləri və nəticəsi arasındakı əlaqədən hesablamalarda istifadə etmək.

***İş forması*** : böyük və kiçik qruplarla iş.
***Metodlar və priyomlar*** : beyin həmləsi, müzakirə, təqdimat.
***Resurslar*** :domino daşları, işçi vərəqləri.

## DƏRSİN GEDİŞİ

***Motivasiya***. Müəllim şagirdlərə yeni mövzunu açmaq üçün şəkillər təqdim edir.

şəkil 1



şəkil 2



Yönəldici suallar:
– Hər şəkildəki quşların sayı haqqında nə deyə bilərsiniz?
– Nə üçün hər iki şəkildə nəticə eyni oldu ?
Şagirdlərin fikirləri dinlənilir.
**Tədqiqat sualı**:Toplananların yerini dəyişəndə cəm niyə dəyişmir?

**Tədqiqatın aparılması:** Şagirdlər 4 qrupa ayrılırlar. Qruplara ad verilir və işçi vərəqləri paylanır.

**İşçi vərəqi 1**



**"Dairə" qrupu**



– Domino daşlarında verilən saylara əsasən misallar yazın.

**İşçi vərəqi 2**



**"Üçbucaq"qrupu**

Şəklə əsasən misallar yazın.



## İşçi vərəqi 3



**"Kvadrat"qrupu**

Misalları həll edin. Dairə və üçbucaqlardan istifadə etməklə misallara uyğun şəkil çəkin.

5+2=7 2+5=7

## İşçi vərəqi 4



**"Düzbucaqlı"qrupu**

– Misalları həll edin. Dəyişən nədir? Dəyişməyən nədir?

7+2= 2+7=

6+3= 3+6=

8+2= 2+8=

4+3= 3+4=

***Məlumat mübadiləsi***. Hər qrupun lideri işçi vərəqini təqdim edir.

***Məlumatın müzakirəsi***. Suallar vasitəsilə əsas fikir izah edilir.

Müzakirə sualları:

– Biz tapşırıqları yerinə yetirərkən nəyi öyrəndik?

– Dəyişməyən nə oldu?

– Toplananların yerini dəyişəndə cəm niyə dəyişmədi?

***Nəticə:***

- Toplama əməlində eyni sayda əşyaların yerini dəyişdikdə cəm dəyişmir.
- Toplananların yerini dəyişdikdə cəm dəyişmir, çünki toplananlar eynilə qalır.

| Meyarlar | Səviyyə |
|---|---|
| Toplamanı iki qrupun əşyalarının birgə sayılması kimi nümayiş etdirir. | I |
| *Əlavə etmək, artırmaq, cəm, oldu* ifadələrini toplama ilə düzgün əlaqələndirir. | II |
| *Ədəd çox* ifadəsini toplama ilə düzgün əlaqələndirir. | III |
| Toplama əməlinin komponentlərinin adlarını bilir və tapşırıqlarda onlardan düzgün istifadə edir. | IV |

***Qiymətləndirmə***. Meyar cədvəlinə əsasən aşağıdakı kimi qiymətləndirmə aparılır:

***Ev tapşırığı*** : dərslikdəki 4 nömrəli misalı həll edin.

# II SİNİFDƏ OXU DƏRSİ

**Lətifə Zəkiyeva,**
Qusar şəhər 1 nömrəli məktəbin müəllimi



**Mövzu:** Yaxşı dostun təsiri.

**Məqsəd:**

- dinlədiyi fikrə münasibət bildirməyi öyrətmək;
- mövzu ətrafında danışmağı öyrətmək;
- öyrəndiyi yeni sözləri cümlədə işlədə bildiyini nümayiş etdirmək.
- mətni müəyyən olunmuş tələblərə uyğun sürətlə, düzgün, ifadəli oxumaq.

**Məzmun standartları:**

1.1.2. Dinlədiyi fikrə munasibət bildirir.

1.2.1. Müşahidə etdiyi əşya, hadisələr haqqında və şəkillər üzrə danışır.

2.1.4. Öyrəndiyi yeni sözləri cümlədə işlədir.

2.2.5. Kiçik həcmli mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətlə, düzgün, şüurlu, ifadəli oxuyur.

**İnteqrasiya:**

Riy: 1.1.8. Ədədi müəyyən model, sxem, diaqram və riyazi ifadənin köməyi ilə ekvivalent formalarda təsvir edir.

İnf: 4.1.1. İnformasiya vasitələrini sadalayır.

Tex: 2.1.3. Zəruri məişət texnikalarını sadalayır. 1.3.2. hissələri birləşdirməklə sadə məmulatlar hazırlayır.

T.İ. 3.1.1. Verilmiş təsviri və dekorativ sənət nümunələrinin onda yaratdığı əhvali-ruhiyyəni yaş səviyyəsinə uyğun şərh etməklə onlara münasibətini bildirir.

T.t. 2.1.2. Sadə ümuminkişaf hərəkətlərini yerinə yetirir.

**İş forması:** kollektiv iş, qruplarla iş.

**Metodlar və priyomlar:** müzakirə, beyin həmləsi, klaster.

**Dərsin tipi:** induktiv.

**Resurslar:** plakatlar, iş vərəqləri, slaydlar.

## Dərsin gedişi

**Motivasiya. (10 dəq.) Slayd 1.**

Müəllim:

– 1-ci slayda diqqətlə baxıb, sözləri oxuyun. Dairədə elə bir söz birləşməsi yazmalıyıq ki, bu qiymətli fikirləri özündə birləşdirsin.

Uşaqların fikirlərini dinlədikdən sonra yönəldici suallar vasitəsilə «mənəvi dəyərlər» cavabını alır və dairədə yazıram.




**Slayd 2.**(Mənəvi dəyərlərimizə uyğun gəlməyən şəkillər göstərilir.)
Şagirdlərin diqqətini şəkillərə yönəldirəm:
– Şəkillərə diqqətlə baxın. Şəkillərdə nə görürsünüz?
Uşaqların fikirlərini dinlədikdən sonra sual verirəm:
– Bu keyfiyyətləri ikinci slayddakı şəkillərə aid etmək olarmı?
–Xeyr. Bu hərəkətlərin heç biri bizim mənəvi dəyərlərimizə aid deyil.
**Slayd 3.**

| | | | | |
|---|---|---|---|---|
| x ş ı a y<br>3 4 5 2 1 | yaxşı | | | |
| | u o d s t n<br>5 2 1 3 4 6 | dostun | | |
| | | | ə t i s r i<br>2 1 4 3 5 6 | təsiri |

Müəllim:
– Gördüyünüz bu rəqəmlərin altında həyatda həmişə sizə lazım olan çox mənalı sözlər gizlənib. Gəlin bir yerdə tapaq. Nə alındı?
– «Yaxşı dostun təsiri».
– Bu gün biz S.Şirazinin «Yaxşı dostun təsiri» hekayətini keçəcəyik. S.Şirazi İranın Şiraz şəhərində anadan olmuşdur. Çox tərbiyəvi, nəsihətverici şeirləri var. Sizin fikrinizcə, yaxşı dost necə olmalıdır?
Cavablar:
– Dar gündə kömək etməlidir.
– Etibarlı olmalıdır.
–Qayğıkeş olmalıdır.
–Yardım göstərməlidir.
Müəllim:
– Gəlin mətni oxuyaq.
Nümunəvi, düzgün, ifadəli oxu nümayiş etdirmək məqsədilə mətni bir dəfə oxuyuram. Sonra şagirdlərin oxu bacarıqlarını yoxlamaq məqsədilə cümlə-cümlə zəncirvari oxu təşkil edirəm.
– Mövzu sizə necə olmağı tövsiyə edir?

– Xeyirxah və yaxşı insan olmağı tövsiyə edir.
–Yarpaq danışa bilərmi?
– Xeyr. Yarpaq və gül yaxşı dostları təmsil edir.
– Bəs yarpaq qaratikanla dostluq etsəydi, ondan gül iyi gələrdimi?
– Yox.

Uşaqların cavablarını ümumiləşdirib, tədqiqat sualı qoyuram.

**Tədqiqatın aparılması. (15 dəq.) Tədqiqat sualı:**

– Dost dosta necə təsir göstərə bilər? Gəlin bu sual üzərində bir qədər də düşünək və müzakirəni qruplarda davam etdirək.

Bu məqsədlə şagirdləri rəngli kartoçkaların köməyi ilə 4 qrupa ayırıram.

Qırmızı: «Xeyrxahlar» qrupu.
Sarı: «Qayğıkeşlər» qrupu.
Yaşıl: «Mehriban dostlar» qrupu.
Mavi: «Etibarlı dostlar» qrupu.

**«Xeyirxahlar» qrupu.**

**Tapşırıq 1.** –Mövzunu rollar üzrə danışın.
**Tapşırıq 2.** –Mətndəki yeni sözləri tapıb, cümlədə işlədin.

____________________________________________
____________________________________________
____________________________________________

**«Qayğıkeşlər» qrupu**

**Tapşırıq 1.**– Yaxşı dostu pis dostla müqayisə edin.

| yaxşı dost | pis dost |
|---|---|
| Dərslərə hazırdaşmaqda kömək edir.<br>Pis yoldan çəkindirir.<br>Köməyinə çatır.<br>Dostun sirrini başqasına danışmır. | Dostuna kömək etmir.<br>Onu pis yola çəkir.<br>Onu aldadır.<br>Yalan danışır. |

**Tapşırıq 2.** –Dostluğa aid atalar sözlərini yada salıb yazın.

**«Mehriban dostlar» qrupu**

**Tapşırıq 1**. Ata oğluna nəsihət verdi: «Oğlum, çalış hər kənddə, hər şəhərdə bir ev tik». Ata nə demək istəyirdi?

a) Hər yerdə özünə dost qazan.
b) Kəndlərdə və şəhərlərdə evlər tik.
c) Yaşlılara hörmət et, kiçiklərə qayğı göstər, hamının hörmətini qazan.

**Tapşırıq 2.** –Verilmiş şəkilləri ardıcıllıqla yapışdırıb, hekayə qurun.

**«Etibarlı dostlar» qrupu**

**Tapşırıq 1.** Müəllif bu əsəri yazmaqla bizə necə insan olmağı tövsiyə edir?

Başqasına xəyanət etməyən, verdiyi sözündəndönməyən, yalan danışmayan, yaxşı oxuyan, sözü ilə hərəkəti eyni olan.

**Tapşırıq 2.** Mənəvi dəyərlərimizə yaraşmayan şəkilləri sxem əsasında yapışdırın.



Şagirdlərə qrupda işləmək və hər qrupun özünüqiymətləndirmə qaydalarını xatırlatdıqdan sonra işçi vərəqlərini paylayıram.

**İnformasiya mübadiləsi.** (10 dəq.)

Qrupların liderləri öz işlərini təqdim edirlər. İşçi vərəqləri yazı taxtasından asılır. Şagirdlərin iştirakı ilə hər qrupun işini qiymətləndirirəm..

Təqdimat bitdikdən sonra uşaqlara suallar verirəm.

**İnformasiyanın müzakirəsi.** (7 dəq)

– Kimə yaxşı dost demək olar?
– Yaxşı dost olmaq üçün nə etmək lazımdır?
– Kimə pis dost demək olar?
– Hansı yeni sözləri öyrəndiniz?
– Mətndən necə nəticə çıxardınız?

**Nəticə.** Hər bir insan yaxşı dost qazanmağa çalışmalıdır. Bunun üçün o, zəif oxuyan şagirdlərə kömək etməli, nitqində nalayiq sözlər işlətməməlidir. Yaxşı dostdan qiymətli heç nə yoxdur. Yarpağın qızılgül kimi dostu olduğu üçün gözəl ətrə sahib olub. Dostun varsa, onu qoru, yoxdursa, onu qazan.

**Qiymətləndirmə.** Şagirdlərə şəkillər vasitəsilə özlərini qiymətləndirmələrini təklif edirəm. Sonra fərdi qiymətləndirmə aparıram.

**Ev tapşırıqı.** Evdə çobanyastığı şəkli çəkib, onun hər ləçəyinə sevdiyiniz bir nağıl qəhrəmanının və ya dostunuzun adını yazın.

# IV SİNİFDƏ HƏYAT BİLGİSİNDƏN AÇIQ DƏRSİN İCMALI

**Fəridə Abbasova,**
Yasamal rayonu, 308 nömrəli orta məktəbin müəllimi



**Mövzu:** Elektrik yükləri. Elektrik dövrəsi.

**Məqsəd:**

- *işıq, səs* və *enerji* anlayışlarını izah etmək;
- təbii resurslardan və təbiət hadisələrindən faydalanmaqda elmin rolunu başa salmaq.

**Fənlərarası inteqrasiya.**

1. Oxu. Müşahidə etdikləri, eşitdikləri, oxuduqları hadisələr haqqında kiçik təqdimatlar edir. (1.2.1.)
2. Musiqi.
3. Əmək.

**Resurslar:** dərslik, iş dəftəri, testlər, işçi vərəqləri, kompyuter, "BİBÖ" cədvəli, klaster, şəkillər.

**Metodlar və priyomlar:** beyin həmləsi, müsahibə.

**İş forması:** qruplarla iş.

**Dərsin gedişi**

Uşaqlar gələn qonaqları salamladıqdan sonra hava haqqında məlumat verirlər. Yazı taxtasından 2 başlıq asılıb:

| Elektrik cihazları | Məişət avadanlıqları |
|---|---|

Stolun üzərindəki şəkillərin hər birini aid olduğu başlığın altından asmağı təklif edirəm. Şəkillər asılandan sonra sinfə sual verirəm:

– Nəyə görə bunlara elektrik cihazları deyirlər?

– Ona görə ki, onlar elektrik xəttinə qoşulduqda işləyirlər.

Yeni dərsin adının üstü açılır: “Elektrik yükləri. Elektrik dövrəsi.”

Dərsə "BİBÖ" cədvəli üzrə işlə başlayıram.

"Bildiklərimiz" qrafasında 1-2 cümlə ilə biri uşaq elektrik enerjisinə aid öz fikirlərini yazır:

– Elektrik enerjisi bizə işıq verir.

– Məişət cihazları (ütü, televizor, soyuducu və s.) elektrik enerjisi ilə işləyir.

Sinfə müraciət edirəm:

– Daha nələri bilmək istəyirsiniz?

Müxtəlif cavablar alınır:

– Enerji nədir?

– Eneıji necə yaranır? və s.

Deyirəm:

– Bax, bu suallara cavab tapmaq üçün biz tədqiqat aparmalıyıq. Tədqiqat sualımız isə belədir:

– Elektrik cihazlarının işləməsi üçün nə lazımdır?

Sonra uşaqlar şəxsi maraqlarına uyğun olaraq qruplara bölünürlər. Qrupları belə adlandırırlar: "Günəş", "Külək", "Axar su", "Neft", Hər qrupun lideri seçilir. Qruplar yerinə yetirdikləri tapşırıqlar haqqında məlumat verirlər.

1. "Günəş" qrupu günəş enerji mənbəyinin əhəmiyyəti haqqında danışır.
2. "Külək" qrupu külək enerji mənbəyinin əhəmiyyətindən söz açır.
3. "Axar sular" qrupu su elektrik stansiyaları haqqında məlumat verir.
4. "Neft" qrupu neft və başqa enerji daşıyıcılarından bəhs edir.

Növbəti mərhələdə hər qrupdan 1 nəfər yazı taxtasından asılmış test üzərində işləyirlər.

**Test nümunəsi**

"Enerjili adam" dedikdə nə başa düşürsünüz?

a) ağıllı adam;

b) çox iş görən, çox hərəkət edən adam;

c) çox dərs oxuyan adam.

Qruplara suallar, tapmacalar yazılmış işçi vərəqləri paylanır.

**İşçi vərəqi 1**

– Tapmacanın cavabını tap. Cavaba uyğun şəkil çək.

Bir sehrli fanaram,
Kibritsiz də yanaram.
Nə yerdəyəm, nə göydə,
Havadan sallanaram.

(Elektrik lampası)

– Otaqda yazı yazarkən çilçıraq, bra, stolüstü lampa yanır. Pəncərədən günəş işığı düşəndə nə edirsiniz? (İşığı söndürürük.)

– Elektrik keçirməyən maddələr hansılardır? (Taxta, rezin, torpaq.)

Cavablar qiymətləndirilir.

Kompyuterdə böyüdülmüş halda bütün enerji mənbələri haqqında görüntülərə baxıb məlumat verirəm. Ulu öndərimiz Heydər Əliyevin layiqli davamçısı İlham Əliyevin adı ilə bağlı olan SES, İES, İEM, onların açılış mərasimlərində çəkilmiş şəkillər göstərilir. Sonra da İlham Əliyevin Naxçıvan SES- nin açılış mərasimində söylədiyi nitqinə qulaq asırıq. Uşaqlar yazı taxtasından asılmış Azərbaycan xəritəsində respublikamızdakı SES, İES-ləri göstərirlər.

**Yeni mövzunun izahı.** Uşaqlara izah edirəm ki, doğrudan da, elektrik enerjisi həyatımıza elə daxil olub ki, onsuz həyatımızı təsəvvür edə bilmirik. *Elektrik* sözünün mənası *kəhrəba* deməkdir. Elektrik yükləri 2 cür: mənfi (-), müsbət (+) olur.




Qrupların stolları üzərində müxtəlif oyuncaqlar qoyulur. Uşaqlara təklif edirəm ki, oyuncaq nəqliyyat vasitələrini, kuklaları işə salsınlar. Sonra uşaqlar bu oyuncaqların arxasını açırlar. Onlar görürlər ki, oyuncaqların içində batareya, batareyanın üzərində (-), (+) işarələri var. Hamı nəticə çıxarır ki, elektrik cihazlarının işləməsi üçün mütləq (+) və (-) yüklərin olması vacibdir. "BİBÖ" cədvəlini tamamlamağı təklif edirəm. Tədqiqat sualının cavabını uşaqlar özləri tapırlar. Dincəlmək məqsədilə qruplar öz nəqliyyat vasitələrinə aid mahnı oxuyurlar:

I qrup – "Maşın" mahnısı;
II qrup – "Təyyarə" mahnısı;
III qrup – "Qatar" mahnısı;
IV qrup – "Metro" mahnısı.

Yazı taxtasından "Klaster" metodu ilə əlaqədar yazılar asılıb. Hər qrupdan 1 nəfər yazı taxtasında işləyir.

| | | | |
|---|---|---|---|
| **işiqlandirma cihazları** | **elektrik cihazlarına lazım olan alətlər** | **məktəbdə işlədilən elektrik cihazları** | **öz enerjisi hesabına hərəkət edən varlıqlar** |

Hər qrupun qarşısında elektrik dövrəsi qoyulub. Uşaqlar elektrik açarının açıq olduğu anda lampanın söndüyünü müşahidə edirlər. Elektrik açarı bağlananda dövrənin bağlandığını, lampanın yandığını görürlər. İki uşaq yazı taxtasında elektrik dövrəsinin qapalı və açıq vəziyyətinin sxemini çəkirlər.

**Qiymətləndirmə.** Qrupların yığdıqları ballar hesablanır. Qalib qrup elan edilir. Gündəliklərdə qiymətləndirmə işi aparılır.

**Nəticə.** Nəhayət, yazı taxtasından asılmış dövrəni mən qururam. İşıq yanır, Azərbaycan sözü görünür. Sinfə müraciət edirəm:

– Azərbaycan deyəndə yadınıza nə düşür?

– Neftimiz, pambığımız, başqa sərvətlərimiz, bol məhsullu torpaqlarımız yadımıza düşür.

– Babək, Koroğlu, Qaçaq Nəbi, Həcər, Həzi Aslanov, Mehdi Hüseynzadə kimi qəhrəmanlarımız yada düşür.

– Qədim abidələrimiz, qədim tariximizdən xəbər verən Şirvanşahlar sarayı, Qız qalası, Əlincə qalası, Möminə xatun türbəsi, Azıx mağarası yadımıza düşür.

– Erməni əsarəti altında olan 20% torpaqlarımız yadımıza düşür.

– Tez böyüyüb, torpaqlarımızın azadlığı yolunda mübarizə aparmaq arzusundayıq.

Bir qız Azərbaycan haqqında şeir söyləyir, bütün sinif ayağa qalxıb, musiqi sədaları altında dövlət himnini oxuyur.

**Ev tapşırığı.** Elektrikdən istifadə, elektrik enerjisinə qənaət haqqında yığcam inşa yazın.

## XOCALI FACİƏSİNƏ HƏSR OLUNMUŞ DƏRS


**Zenfira Abdullayeva,**
Ucar şəhər 2 nömrəli orta məktəbin müəllimi




**Mövzu:** Xocalı faciəsi.

**Məqsəd:**

- mətndəki əsas fikri şagirdlərə mənimsətmək;
- yeni sözlərdən nitqdə istifadə edilməsinə nail olmaq;
- mətnin surətli oxusuna nail olmaq;
- torpağa, vətənə məhəbbət, düşmənə nifrət hissi aşılamaq.

**Standartlar:** 2.1.2. Öyrəndiyi yeni sözlərin mənasını izah edir.

2.1.4. Yeni sözləri cümlə içərisində işlədir.

2.2.5. Kiçikhəcmli mətnləri müəyyən olunmuş tələblərə uyğun sürətli, düzgün, şüurlu, ifadəli oxuyur.

2.2.8. Mətndəki əsas fikri müəyyənləşdirir, sadə formada ifadə edir.

**İnteqrasiya:** H.b; 1.1.2. Ətraf aləmdəki varlıq və hadisələri sadə şəkildə izah edir. T. İ; 1.1.2. Təsviri incəsənətin həyat hadisələrini əks etdirdiyini bildirir.

**İş forması:** kollektiv.

**Metodlar və priyomlar:** müzakirə, klaster, Venn diaqramı.

**Resurslar:** plakat, maqnitofon, kaset, müharibə və sülh dövrünü əks etdirən şəkillər, oyuncaq silahlar.

## Dərsin gedişi

**Motivasiya.** Yazı taxtasında müharibəni əks etdirən şəkillər asılır. Xocalı faciəsinə aid kadrlar göstərilir. Sonra şagrdlərdən şəkillərə və göstərilən kadrlara öz münasibətini bildirmək xahiş olunur. Müəllim aşağıdakı suallarla uşaqlara müraciət edir:

– Uşaqlar, bu səslər, şəkillər sizə nəyi xatırladır?
– Görəsən, bu insanların günahı nədir?
– Bu hadisələri törədən kimlərdir?
– Onlar bizdən nə istəyirlər?

Şagirdlərin cavabları dinlənildikdən sonra müəllim Xocalı faciəsi haqqında məlumat verir. Mətn müəllim tərəfindən oxunur, yeni sözlərin mənası izah edilir. Şagirdlər həmin sözləri cümlədə işlədirlər. Sonra mətni şagirdlər də oxuyurlar.

**Tədqiqat sualı:** Müharibə nələrə səbəb olur?

Tədqiqat bütün siniflə birlikdə aparılır. Şagirdlərin fərziyyələri dinlənilir, bir neçə fərziyyə yazı taxtasında qeyd olunur.

Yazı taxtasından asılmış şəkillərə əsasən şagirdlərə müraciət olunur:

– Nə üçün birinci şəklə baxanda insanlar kədərlənir?
– Müharibə hansı faciələrə səbəb olur?
– O, ətraf aləmə necə təsir edir?

Şagirdlərin fikirləri klaster üsulu ilə yazı taxtasında qeyd olunur.




Müəllim 2-ci şəklin müzakirəsi üçün aşağıdakı suallarla şagirdlərə müraciət edir:

– *Müharibə* sözünə yaxınmənalı söz hansıdır? (dava, savaş, döyüş, hərb)
– Bəs *müharibə* sözünə əks mənalı söz hansıdır? (sülh).
– İndi isə 2-ci şəklə baxın. Gəlin görək sülh insanlara nə bəxş edir?




Müəllim deyir:

– Uşaqlar, gəlin bunları Venn diaqramında göstərək.




Dərsin gedişində mövzu həyat bilgisi və təsviri incəsənətlə inteqrasiya olunur. Müharibənin təbiətə vurduğu ziyanlardan danışılır, mövzu müasir dövrlə əlaqələndirilir. Xocalıya aid şeirlər söylənilir.

**Məlumatın müzakirəsi:**

– Nə üçün Xocalı faciəsi baş verdi? (Mənfur ermənilər torpaqlarımıza göz dikdilər.)

– Bu faciə nə zaman olub? (26 fevral, 1992-ci ildə)

– Faciəni törədənlər kimlər idi? (ermənilər və rus əsgərləri)

– Müharibə ilə sülhün fərqi nədir? (Müharibədə insanlar həlak olur, torpaqlar əldən gedir. Sülh zamanında isə insanlar firavan yaşayırlar.)

– Bu gün torpaqlarımızı kimlər qoruyur? (Milli Ordumuzun əsgərləri)

– Torpaqlarımızın qorunması üçün sən nə edəcəksən?

– Mübariz İbrahimov, Fərid Əhmədov kimdir? (milli qəhrəmanlarımız.)

– Onlar nə üçün şəhid oldular? (vətən yolunda.)

– İşğal olunmuş torpaqlar və şəhidlərimiz haqqında düşünəndə hansı hissləri keçiririk?

Düzgün cavablar müzakirə olunur. Şagirdlərin bilikləri meyarlara əsasən qiymətləndirilir.

**Nəticə.** Müəllim Azərbaycanın tarixi haqqında qısa məlumat verir. Yadelli işğalçıların, mənfur qonşuların həmişə torpaqlarımızda gözü olduğu qeyd edilir. Azərbaycanın igid oğulları torpaqlarımız uğrunda daim vuruşmuş, canlarından keçmişlər. Bu, lap qədim dövrlərdə də belə olub, indi də belədir. Biz əminik ki, itirilmiş torpaqlarımız sülh yolu ilə, lazım gələrsə, müharibə yolu ilə geri qaytarılacaq, günahsız insanlarımızın qanı yerdə qalmayacaqdır.

Xocalı faciəsində həlak olanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilir.

**Yaradıcı tətbiqetmə:** Xocalı faciəsinə aid şəkil çəkin.

# III SİNİFDƏ N. GƏNCƏVİNİN "KƏRPİCKƏSƏN KİŞİNİN HEKAYƏTİ" MƏTNİNİN TƏDRİSİ

**Səbirə Zeynalova,**
Yasamal rayonu, 308 nömrəli orta məktəbin müəllimi



**Mövzu:** "Kərpiçkəsən kişinin hekayəti"

**Məqsəd:**

- şagirdlərə oxuduqları mətnin ideya məzmununu, hadisə və obrazları həyatla əlaqələndirməyi öyrətmək;
- onlarda antonim, sinonim sözləri dərketmə bacarığını formalaşdırmaq.

**Məzmun standartları:** 2.2.4; 2.1.4

**Fəndaxili inteqrasiya:**

- hadisə və obrazlara münasibət bildirir. (1.1.1)

Dinlədiyi ilə oxuduğu arasında məzmun əlaqəsi yaradaraq fikir yürüdür.

**Fənlərarası inteqrasiya:** riyaziyyat.(1.2.3); Azərbaycan dili (1.1.3).

**Resurslar:** işçi vərəqləri, kompyuter, tablo və s.

**Metodlar və priyomlar:** beyin həmləsi, müzakirə.

**İş forması :** qruplarla iş.

**Dərsin gedişi:**

Sinfi qruplara ayırıram. Mənim istiqamətimlə qruplar özlərini adlandırırlar. 1-ci qrup "Cəfər Cabbarlı"; 2-ci qrup "Səməd Vurğun"; 3-cü qrup "Mirzə Ələkbər Sabir"; 4-cü qrup "Abdulla Şaiq" adını götürür. Hər qrup özünə lider seçir.

Qrup nümayəndələri adını götürdükləri yazıçıların həyat və yaradıcılığı haqqında qısa məlumat verir və onların şeirlərindən bir parça əzbər oxuyurlar.

Kompyuterdə belə bir tablo canlanır.

| | | |
|---|---|---|
| **36+34= (c)** | **76 : 4 = (G)** | **52 * 2 = (m)** |
| **43+54= (i)** | **32 : 16 = (v)** | **18 * 9 = (ə)** |
| **46+64= (N)** | **49 : 7 = (z)** | **13 * 3 = (a)** |

| | | | | | |
|---|---|---|---|---|---|
| **110** | **97** | **7** | **39** | **104** | **97** |
| | | | | | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| **19** | **162** | **110** | **70** | **162** | **2** | **97** |
| | | | | | | |

Uşaqlara deyirəm:

– Misalları düzgün həll etsəniz, cədvəldə dahi Azərbaycan şairinin adı alınacaq.

Uşaqlar krossvordu həll edirlər və cədvəldə "Nizami Gəncəvi" sözləri alınır.

Uşaqlara Nizami Gəncəvi haqqında qısa məlumat verirəm. Onlar Nizami Gəncəvinin şeirlərindən bildikləri parçaları söyləyirlər.

**Motivasiya.** Uşaqlar kompyuterdə "Nizami" filmindən bir hissəyə baxırlar. Onlara suallar verilir:

– Filmdə kimi görürsünüz? (Dahi şairimiz N.Gəncəvini.)

– Nizami rolunu kim ifa edir? (M.Maqomayev.)

– Müslüm Maqomayev kim olub? (Dünyada məşhur olan Azərbaycan müğənnisi.)

Uşaqlardan biri Nizami Gəncəvinin "Oğlum Məhəmmədə nəsihət" şerini əzbər söyləyir. Müəllim deyir:

– Uşaqlar, bu şeri yazan və filimdə gördüyünüz şair sonralar "Kərpickəsən kişinin hekayəti"ni yazmışdı.

Uşaqlar mətni kitabdan oxuyurlar. *Cavan* sözünün antonimlərini və sinonimlərini araşdırırlar: *yaşlı, qoca, ahıl – gənc, yeniyetmə.*

Kompyuterdəki testi uşaqların nəzərinə çatdırıram

**Test**

– Hansı mürəkkəb söz isimlə felin birləşməsindən əmələ gəlib?

a) kərpickəsən  b) alnıacıq  c) üzüağ

– "O, qoca kərpickəsənə ədəblə baş əydi və yoluna davam etdi." cümləsində "O" əvəzliyi hansı suala cavab verir?

Şagirdlərdən biri izah edir:

– *Kərpickəsən* sözünün birinci hissəsi *kərpic* sözüdür və bu *nə*? sualına cavab olur, isimdir. İkinci hissəsi isə *kəsən* sözüdür və bu, hərəkət bildirir, feldir. Ona görə də sualın cavabı "a" variantıdır.

ikinci suala başqa şagird cavab verir:

– "O, qoca kərpickəsənə ədəblə baş əydi və yoluna davam etdi" cümləsində *o* sözündən sonra vergül qoyulmuşdur, çünki burada *o,* şəxs əvəzliyi olub, *kim*? sualına cavab verir.

Uşaqlar əvvəl qocaya, sonra isə cavana öz münasibətlərini bildirirlər. Onlar qocanın müsbət cəhətlərini aşkara çıxarır, sonra isə cavan oğlanın mənfi xüsusiyyətlərindən danışırlar: onun çox lovğa olduğunu, qocanın sənətini bəyənmədiyini söyləyirlər. Uşaqlarla lovğalığın pis cəhətləri haqqında söhbət edirəm. Buna baxmayaraq, onlar gənc oğlanın bəzi hərəkətlərini xoşladıqlarını bildirirlər:

– Cavan öz səhvini başa düşdü.

– O peşiman oldu.

– Axırda qocaya baş əydi.

Mövzu üzrə debat aparıldıqdan sonra kompyuterdə belə bir test yazılır:

– Hansı atalar sözü mətnə daha çox uyğundur?

a) Bağa baxarsan, bağ olar, baxmazsan, dağ olar.

b) Adamı qeyrət işlədər, dəyirmanı su.

c) Torpaq deyər: "Öldür məni, dirildim səni".

d) Əmək insanı ucaldır.

e) İstəyirsən bal, çörək, al əlinə bel, kürək.

Uşaqlar "Əmək insanı ucaldır" atalar sözünü seçirlər.

Sonra onlar zəhmətə aid atalar sözləri söyləyirlər. 6-7 şagird Nizami Gəncəvinin "Sirlər xəzinəsi" kitabından Nizaminin hikmətli sözlərindən nümunələr deyir və onların atalar sözləri ilə oxşarlığını qeyd edirlər.

Üç şagird mətni səhnələşdirir. Uşaqlar personajlara uyğun geyinirlər. Qocanın qarşısında samanla qatışdırılmış palçıq, qəlib, kəsilmiş kərpiclər olur.

Kompyuterdə kərpicdən tikilmiş abidələr görünür. Uşaqlara "Bərdə", "Gülüstan", "Nizami" türbələrindən danışır, dünyada kərpicin sehri olan ən böyük "Kərpic minarəsi"ni göstərib, məlumat verirəm. Onlara başa salıram ki, pis sənət, pis peşə yoxdur. Sənətini, peşəsini sevməyən insanlar var. İnsan ancaq zəhmətlə istədiklərinə nail ola bilər.

Sonra uşaqlara işçi vərəqləri paylayıram. Hər qrup ayrı-ayrı mövzularda esse yazır. "Cəfər Cabbarlı" qrupu "Əmək insanı ucaldır" mövzusunda esse yazır. Essedə insana şərəf və baş ucalığı gətirən zəhmətdən danışılır.

"Səməd Vurğun" qrupunun essesi "Kərpickəsən kişinin hekayəti" adlanır. Essedə qocanın alın təri ilə, zəhməti ilə öz ruzisini qazanmasından bəhs olunur.

"Abdulla Şaiq" qrupu "Müdrik qocalarımız" adlı esse yazır. Essedə ümummilli liderimiz Heydər Əliyev, onun xalqımız üçün etdiklərindən danışılır.

"Mirzə Ələkbər Sabir" qrupu "Müasir gənclərimiz" adlı esse yazır. Essedə hekayətdəki gənc ilə müasir gənclər müqayisə edilir. Milli Qəhrəmanımız Mübariz haqqında danışılır. Kompyuterdə Mübarizin yazdığı məktub göstərilir. Şagirdlərdən biri məktubu oxuyur. Sonra uşaqlar Qarabağın işğalı, vətənpərvərlik mövzusunda söhbət edir, ermənilərin azərbaycanlılara necə divan tutduqları haqqında bildiklərini danışırlar.

Onlara belə bir sual verirəm:

– Uşaqlar, bu torpaqları necə geri almaq olar?

Uşaqlar ayağa qalxıb, dairəvi şəkildə dururlar və bu sözlər səslənir.

– 9 milyonluq Azərbaycan xalqı, 35 milyon İran azərbaycanlıları, 6 milyon dünyanın başqa ölkələrində yaşayan azərbaycanlı ayağa qalxmalı, Ali Baş Komandan, Prezident İlham Əliyevin ətrafında yumruq kimi birləşməlidir.

Uşaqlar əllərindəki bayraqları qaldırıb, xorla deyirlər:

–Birliyimiz qələbəmizdir!

Liderlər esseləri yazı taxtasına yapışdırırlar. Onlar oxunur, qruplar bir-birinin işinə qiymət verirlər. Mən deyirəm:

–Tənəffüsdə səhvlərinizə baxarsınız .

Hər mərhələdə şagirdlərin bacarıq və qabiliyyətləri – ümumi nəticələr "5" bal sistemi ilə qiymətləndirilir. Qiymətlər elan olunur.

**Ev tapşırığı:**

– Evdə mətni oxuyub öyrənərsiniz. Mövzuya aid atalar sözləri yazarsınız.

# UŞAQLARIN MƏNƏVİ TƏRBİYƏSİ ÜZRƏ İŞİN TƏŞKİLİ

**Sədaqət Rəhimova,**
ARTPİ-nin dissertantı



**Açar sözlər:** mənəvi tərbiyə, milli-mənəvi tərbiyə, intizam tərbiyəsi, davranış mədəniyyəti, dövlət rəmzləri, gerb, bayraq, himn.

**Ключевые слова:** нравственное воспитание, нравственно-национальное воспитание, дисциплинар наяподготовка, культура поведения, государственные символы, герб, флаг, гимн.

**Key words:** moral education, moral education of national, disciplinary training, culture, behavior, state symbols, emblem, flag, anthem.

Azərbaycan Respublikasının müstəqil, demokratik, hüquqi dövlət kimi inkişaf etdiyi indiki dövrdə uşaqlara milli-mənəvi dəyərlərin aşılanması xüsusi aktuallıq kəsb edir. Uşaqların milli-mənəvi tərbiyəsinin ən mühüm vəzifəsi cəmiyyətə layiq kamil və yetkin vətəndaş tərbiyə etməkdir. Mənəvi keyfiyyətlər uşaq şəxsiyyətinin tərbiyə olunmasında mühüm rol oynayır. İnsanpərvərlik insana məhəbbət və qayğını əhatə etməklə konkret keyfiyyətlərdə ifadə olunur: ata-anaya məhəbbət, böyüklərə hörmət, kiçiklərə qayğı, insanlara xoş münasibət, ilahi hisslər və s. kimi keyfiyyətlər mənəviyyatın əsasını təşkil edir. İnsanpərvərlik tərbiyəsi üçün sözün qüdrətindən, tərbiyəçinin, valideynlərin şəxsi nümunəsindən istifadə etmək lazımdır. Şəxsiyyətin formalaşmasının bünövrəsi uşaq bağçasında qoyulur.

Məktəbəqədər ictimai tərbiyə təhsil sisteminin ilkin pilləsi olub, körpəlik və bağça yaşı dövründə uşaqların şəxsiyyətinin formalaşmasına, onların hərtərəfli tərbiyəsinə, inkişafına və məktəbə hazırlanmalarına xidmət edir. Bu gün təhsilin bütün sahələrinin məzmununda yeni yanaşmalar tətbiq olunur. Belə bir dövrdə hər hansı elmi yenilik böyük maraqla qəbul edilir və müstəqil respublikamızın inkişafı naminə onun həyata keçirilməsinə cəhd göstərilir.

Müasir yeniliklər uşaqların təfəkkürünün inkişafına kömək edir, onlara öz potensial qüvvələrindən istifadə etmək bacarığı aşılayır. Bu prosesdə müstəqil fəaliyyət növlərinin əlaqələndirilməsi, inteqrasiya mühüm rol oynayır. Məktəbəqədər müəssisələrdə məşğələlər uşaqların əqlini inkişaf etdirməklə yanaşı, onlarda nəcib, əxlaqi keyfiyyətlərin yaranmasına da müsbət təsir göstərir.

Uşaqların milli-mənəvi dəyərlər əsasında tərbiyə olunmaları üçün tərbiyədə vahidlik prinsipinə əməl edilməklə, uşaq bağçası, valideyn və ictimaiyyətin vəhdəti təmin olunmalıdır. Tərbiyəvi işin elə sistemi yaradılmalıdır ki, bütün pedaqoji

kollektiv milli-mənəvi dəyərlər əsasında uşaqları tərbiyə etmək imkanına malik olsun,öz fəaliyyətini bu istiqamətdə qursun.

Uşaqların mənəvi tərbiyəsində intizam böyük əhəmiyyətə malikdir. İntizam tərbiyəsi mənəvi tərbiyənin tərkib hissəsidir. A.S. Makarenko intizamı kollektivin bəzəyi adlandırır və göstərirdi ki, intizam hər bir adamın daha dolğun və sərbəst inkişafını təmin edir, onu özbaşınalıqdan qoruyur, ümumi məqsədə daha tez çatmağa imkan verir. Onun fikrincə, intizam bütün tərbiyə işinin nəticəsində yaranır, təlim-tərbiyə işində uğur qazanmağın vasitəsi olur.

İntizam tərbiyəsi şəxsiyyətin digər əxlaqi keyfiyyətləri,o cümlədən, davranış mədəniyyəti ilə sıx bağlıdır. Davranış mədəniyyəti tərbiyəsi uşaqlarda davranış və ünsiyyətlə bağlı mədəni vərdişlərin formalaşdırılmasını nəzərdə tutur. Davranış mədəniyyəti, nəzakətli rəftar insanın bəzəyi olub, ona hörmət və nüfuz gətirir.

Davranış mədəniyyəti tərbiyəsi üçün uşaqlarda davranış estetikası haqqında düzgün təsəvvür yaratmaq, gözəl, mədəni davranış vərdişləri formalaşdırmaqda tərbiyəçi və valideynlərin nümunəsi, ailədə, bağçada, ictimai yerlərdə mədəni ünsiyyət mühitinin yaradılması böyük rol oynayır.

Məlumdur ki, təlim prosesində təhsil vəzifələri ilə yanaşı, tərbiyəvi vəzifələr də həyata keçirilir. Təlim prosesində yerinə yetirilən tərbiyə işinin əsasını müvafiq biliklərin,məlumatların verilməsi təşkil edir. Mənəvi keyfiyyətlərin tərbiyəsi üzrə iş təlim prosesində daha mütəşəkkil həyata keçirilir. Böyük məktəbəqədər yaşlı uşaqlara mənəvi keyfiyyətlərin aşılanmasında nitq inkişafı, bədii oxu, həyat bilgisi, təsviri incəsənət, musiqi, fiziki tərbiyə məşğələlərinin imkanları genişdir. Bu məşğələlərdə uşaqlar mənəvi keyfiyyətlər haqqında müəyyən təsəvvürlərə yiyələnirlər.

Təcrübi məşğələlər prosesində uşaqlar bilavasitə fəaliyyətdə olduqlarından onların mənəvi tərbiyəsinin formalaşmasına geniş imkanlar açılır. Tərbiyəçi belə tədbirlərin tərbiyəvi potensialını nəzərə almalı, ondan mənəvi tərbiyə məqsədilə istifadə etməyi bacarmalıdır. Təcrübə göstərir ki, belə məşğələlərin mövzusu ilə əlaqədar lazımi ləvazimatın olması təmin edilməlidir. Məşğələnin mövzusuna aid planın tutulmalı, veriləcək sualların uşaqların yaş səviyyələrinə uyğunluğu nəzərə alınmalıdır.

Məktəbəqədər təhsil müəssisələrində ilk gündən uşaqlarda vətənpərvərlik, yoldaşlıq və dostluq kimi əxlaqi keyfiyyətlər formalaşmağa başlayır. Qabaqcıl tərbiyəçilər bu məqsədlə vətənə, xalqa, təbiətə məhəbbət hissləri aşılayan mətnlərdən məharətlə istifadə edirlər. Uşaqlara başa salmaq lazımdır ki, təbiət vətəndir. Təbiəti tanımaq vətəni tanımaq, təbiəti qorumaq vətəni qorumaq deməkdir.

Uşaqlar məktəbəqədər yaş dövründən Azərbaycan dövlətinin simvolları ilə tanış olur, dövlət himnini dinləyir, əzbərləyir və ifa etməyi öyrənirlər.

Məktəbəhazırlıq qrupunda keçirilən "Azərbaycanın dövlət rəmzləri" mövzusunda məşğələnin təşkilinə nəzər salaq.

**Məqsəd:** bayraq, gerb, himn haqqında uşaqların məlumatını daha da dəqiqləşdirmək, genişləndirmək, vətənə dərin məhəbbət hissi aşılamaq.

**Fəaliyyət növləri:** motivasiya, beyin həmləsi, əqli hücum, söz assosiasiyası, müsahibə, ümumiləşdirmə.

**Təchizat:** şəkillər, əyani vəsait, didaktik materiallar.

**Məşğələnin gedişi**

Məşğələ dövlət himni ilə başlayır. Hamı ayaq üstə himni oxuyur. Tərbiyəçi uşaqları 2 qrupa ayırır. Qruplara suallar verir:

– Uşaqlar, dövlət rəmzləri hansılardır?

– Bayraq, gerb, himn.

– Kim Azərbaycanın bayrağını göstərər?

Uşaqlardan biri bir-neçə bayrağın arasında Azərbaycanın dövlət bayrağını göstərir.

– Uşaqlar, bayrağın forması dövlətimizin əsas qanunu – konstitusiya ilə təsdiq olunur. Bayraq dövlətin müstəqilliyinin rəmzidir. Respublikamızın bayrağında hansı rəngləri görürsünüz?

– Göy, qırmızı, yaşıl.

– Uşaqlar, siz bilirsiniz ki, dövlət bayrağının üzərindəki göy rəng türkçülüyü, qırmızı rəng müasirliyi və demokratiyanı, yaşıl rəng isə islamçılığı – islam dininin dəyərlərinə bağlı olduğumuzu ifadə edir. Bayrağımız dövlətimizin müstəqilliyinin, azadlığımızın, xalqımıza, tariximizə və mədəniyyətimizə bağlılığımızın simvoludur. Ona görə də biz bayrağımızı çox sevirik. Bayrağını sevən, ona hörmət edən, onu qoruyan insan xalqını, dövlətini də sevər, vətən onun üçün əziz olar. Peyğəmbərimiz Həzrəti Məhəmməd də həmişə bayrağı sevməyi, onu uca tutmağı, qorumağı tövsiyə etmişdir.

Tərbiyəçi dövlətin atributlarından sayılan himn ilə əlaqədar söhbətini belə başlayır:

– *Himn* yunan sözü olub, *nəğmə, təntənəli mahnı* deməkdir. Himn də rəsmi dövlət rəmzidir.

Tərbiyəçi Azərbaycanın dövlət himnini yaradanlar haqqında da uşaqlara məlumat verir.

– Himnin musiqisi dahi Azərbaycan bəstəkarı Ü.Hacıbəyovun, sözləri isə şair Ə.Cavadındır. Azərbaycanın dövlət himni hər səhər tezdən radio və televiziyada ifa edilir. Bu himn idman yarışlarında birinci yerə çıxan Azərbaycan idmançılarının şərəfinə səsləndirilir. Müxtəlif ölkələrin başçıları vətənimizə gələndə də hörmət əlaməti olaraq himn ifa edilir. Bu zaman Azərbaycanın dövlət bayrağı da qaldırılır.

Tərbiyəçi sonra gerb haqqında məlumat verir. O,Azərbaycanın gerbinin təsvir edildiyi şəkli uşaqlara göstərərək deyir:

– Uşaqlar, qədim zamanlardan hər bir dövlətin özünəməxsus fərqləndirici nişanı olmuşdur. Bu nişana *gerb* deyilir. *Gerb* polyak dilində *irs,varis* deməkdir. Qədim dövrlərdə gerblər pulların, möhürlərin üzərində təsvir olunurdu. O zamanlar dövlətlərin gerbləri olduğu kimi, şəhərlərin də gerbləri var idi.

Tərbiyəçi gerbin üzərindəki təsvirlərin mənasını izah edir.

Azərbaycanın dövlət rəmzlərini tanıyan və mənasını öyrənən uşaqlar dərk edirər ki, dövlətimiz müstəqil və güclüdür.

Təlim prosesində milli-mənəvi dəyərlərin aşılanması baxımından əhəmiyyətli olan nümunələrdən istifadənin imkan və yollarını dəqiq müəyyənləşdirib, yerində istifadə etmək tərbiyəçidən pedaqoji ustalıq tələb edir.

Tərbiyəçi yeni təlim texnologiyalarından istifadə etməklə uşaqlarda milli-mənəvi dəyərlərimizi qorumaq, qayğısına qalmaq hissini formalaşdırmalıdır. Kiçikyaşlı uşaqlarda mənəvi keyfiyyətlərin formalaşdırılması üçün onlara milli-mənəvi dəyərlərimizi aşılamaq əsas şərtlərdən biridir. Kiçikyaşlı uşaqlarda vətənə məhəbbət hissi formalaşdırmaq üçün onlarda doğma diyara, doğulduqları yerə, xalqımızın tarixinə, adət-ənənələrinə, dini dəyərlərinə hörmət tərbiyə etmək lazımdır.

### Ədəbiyyat


1. Babayev A.M. Məktəblilərin mənəvi tərbiyəsində milli dəyərlərdən istifadə. "Azərbaycan məktəbi", 1997, №1.
2. Həsənov A.M. Azərbaycan uşaq ədəbiyyatındakı mənəvi dəyərlərdən kiçikyaşlı məktəblilərin əxlaq tərbiyəsində istifadə. Bakı, "İşıq", 1997.
3. Kərimov Y.Ş. İslam dəyərləri işığında. Bakı, "Nasir",1999.
4. Talıbov Y.R. Məhəmməd Peyğəmbərin kəlamlarında tərbiyə məsələləri. "Azərbaycan məktəbi",1996, № 5-6.


### Организация работы по духовному воспитанию детей

### Резюме


В статье характеризуются вопросы, тесно связанные с духовным воспитанием детей дошкольного возраста. Внимание уделяется формам организации работы в этом направлении. Отмечается, что в духовном воспитании детей важная роль принадлежит организации дисциплинированности на занятиях. Указывается на важность привития любви и бережного отношения к природе. Приводится образец урока по данной теме с последующим комментарием. Организуются занятия, посвященные гимну республики.


### Organization of work for the spiritual education of preschool children in the learning process

### Summary


The article characterized the issues closely related to the spiritual education of children of preschool age. Attention is paid to forms of work organization in this direction. It is noted that in the spiritual education of children an important role belongs to the organization of discipline in the classroom. Indicates the importance of instilling love and respect for nature. We give a sample lesson on the topic, followed by commentary. Organized sessions on the hymn of the republic.

# SİNİFDƏNXARİC TƏDBİRLƏRDƏ TİBBİ-GİGİYENİK TƏRBİYƏ

**Həqiqət Hacıyeva,**
pedaqogika üzrə fəlsəfə doktoru, ADPU-nun dosenti,
**Xatirə Məmmədova,**
ADPU-nun müəllimi,





**Açar sözlər:** ekologiya ili, ekoloji amillər, qidalanma mədəniyyəti, qidalanma gigiyenası, uşaq xəstəlikləri, ağız boşluğuna qulluq, təbiət və sağlamlıq, zərərli vərdişlər.

**Ключевые слова:** год екологии, екологические факторы, культура питания, гигиена питания, детские болезни, уход за полостью рта, природа и здоровье, вредные привычки.

**Key words:** year ecology, environmental factors, feeding kulture, food hygiene, childhood diseases, oral care, nature and health, pernicions habits.

Ölkəmizdə uşaqların təhsili onların sağlam, gümrah böyümələri ilə paralel aparılır. Təhsilin inkişafına dair hər bir qərar və sərəncamda uşaqların sağlamlığı ön plana çəkilir. 2009-cu ilin «Uşaq ili», 2010-cu ilin «Ekologiya ili» elan edilməsi bunun bariz nümunəsidir. Bu tədbirlərdə şagirdlərin sağlam, bilikli, cəmiyyətin tələblərinə uyğun şəxsiyyət kimi formalaşmaları əsas məqsəd kimi qarşıya qoyulmuşdur. Məqsədə yüksək səviyyədə nail olmağın yollarından biri təlim-tərbiyə prosesinin zəruri hissəsi sayılan sinifdənxaric tədbirlərin məzmunlu həyata keçirilməsidir. Sinifdənxaric işlər gənc nəslin hərtərəfli inkişafına, elmi dünyagörüşünün formalaşmasına, biliklərə dərindən yiyələnməsinə kömək edir. Məktəblə həyat arasında əlaqələndirici rolunu oynayan sinifdənxaric işlər dərslərdə öyrədilən biliklərin dərindən mənimsənilməsində, materialın dərk edilməsində, həyati bacarıqların formalaşmasında mühüm əhəmiyyət kəsb edir.

İbtidai siniflərdə sinifdənxaric işlərin kütləvi formalarına daha çox yer verilir, çünki kiçikyaşlı məktəblilər belə tədbirlərə maraq göstərir və orada həvəslə iştirak edirlər. İbtidai siniflərdə ilk zəng, Yeni il, Novruz bayramı şənliklərinin keçirilməsi artıq ənənə şəklini almışdır. Həmin tədbirlər şagirdlərin əhvali-ruhiyyəsini yüksəldir, sağlamlığına müsbət təsir göstərir.

Yol hərəkəti qaydalarının öyrədilməsi məqsədilə həyata keçirilən «İşıqfor» şənliyi, vətənpərvərlik tərbiyəsi aşılayan «Vətəni qoruyaq», sağlamlıq mövzusuna həsr olunmuş «Təmizlik sağlamlıqdır», «Təbiət bizim doğma evimizdir» mövzularında tədbirlərin keçirilməsi şagirdlərin sağlam, gümrah böyümələrinə xidmət edir, lakin

belə tədbirlər bütün məktəblərdə təşkil olunmur. Bu işdə çətinlik çəkən müəllimlərə metodik kömək göstərilməsinə ehtiyac var.

Müəllimlər keçirəcəkləri tədbir üçün mövzu seçərkən ilk növbədə onun aktuallığını nəzərə almalı, şagirdlərin sağlamlığının təmin olunmasına çalışmalıdırlar. Bu mövzulara xəstəliklərdən, həyati təhlükələrdən qorunma, qidalanma gigiyenası və qidalanma mədəniyyəti, sağlamlıqla bağlı ekoloji məsələlər (havanın, suyun, torpağın çirklənməsi, zibilliklər), bitki və heyvanlara münasibət, ailə üzvləri və qohumlarla əlaqələr, texniki vasitələrlə (telefon, televizor, kompyuter) davranış qaydaları, saqqız çeynəmək, ətraf mühiti çirkləndirmək və başqa zərərli vərdişlərə qarşı mübarizə və s. aid edilə bilər.

Vətənpərvərlik tərbiyəsinin aşılanması və formalaşmasına xidmət edən «Vətənim Azərbaycandır», «Mən azərbaycanlıyam», «Vətəni sevək və qoruyaq», «Vətənin sərvətləri», «Doğma diyar» kimi mövzularda tədbirlər həyata keçirilə bilər. Onların hər birinə ciddi hazırlaşmaq, məzmuna uyğun plan qurmaq, ssenari yazmaq lazımdır.

Mövzu ilə bağlı şagirdlərlə şeirlər, mahnılar, səhnəciklər hazırlamaq, onların mövzuya dair əl işləri sərgisini təşkil etmək faydalıdır. Tədbirlər həm bir sinif, həm paralel siniflər üzrə, həm də bütün ibtidai siniflərin şagirdləri ilə təşkil edilə bilər. Burada daha bacarıqlı şagirdlərin seçilməsi, onlara qabiliyyətlərinə görə müəyyən ifaların tapşırılması yaxşı nəticə verir.

Ekoloji tərbiyənin aşılanması ilə bağlı «Ətraf mühiti təmizləyək», «Zibili zibil qutusuna ataq», «Bitkiləri qoruyaq», «Bitkilərə qulluq edək», «Park və bağlarda mədəni davranaq», «Heyvanları qoruyaq», «Quşlara yuva quraq» kimi mövzularda tədbirlərin tez-tez keçirilməsi məsləhətdir. Belə tədbirlər şagirdlərin ekoloji biliklərə yiyələnmələrinə kömək edir və ictimai yerlərdə, ətraf mühitdə, təbiət qoynunda davranış mədəniyyətini inkişaf etdirir, ekoloji tərbiyəni formalaşdırır. Bu tədbirlərdə şagirdlərə tibbi-gigiyenik bilik və bacarıqlar da aşılanır, uşaqlar kollektiv əməkdə birləşir, ictimai yerlərdə sanitar-gigiyenik qaydalara əməl etməyi öyrənirlər.

Bütün bunlarla yanaşı, şagirdlərin tibbi-gigiyenik tərbiyəsinə bilavasitə müsbət təsir göstərən tədbirlərin həyata keçirilməsinə ehtiyac hiss olunur. «Təmizlik sağlamlıqdır», «İlk tibbi yardım göstərmək nəciblikdir», «Xəstəliklərə yox deyək», «Peyvəndlərdən qorxmuruq», «Həkimlər sağlamlığımızın keşikçiləridir», «Dərmanlardan düzgün istifadə edək», «Həkim olmaq istərdinmi?» kimi mövzularda tədbirlərin keçirilməsi şagirdlərin sağlamlıqla bağlı biliklərini artırır, onların tibbi-gigiyenik tərbiyəsinə müsbət təsir göstərir.

Məktəbdə təmizlik günlərinin, həftəsinin, aylığının, 7 aprel – Beynəlxalq sağlamlıq gününün, xəstə uşaqlara yardım aylığının, xəstəliklərlə, zərərli vərdişlərlə mübarizə tədbirlərinin keçirilməsi də şagirdlərin sağlamlıq vərdişlərinin möhkəmlənməsində, tibbi-gigiyenik tərbiyəsində mühüm rol oynayır. Belə tədbirlər nəinki şagirdlərin, həm də onları əhatə edən insanların tibbi-gigiyenik cəhətdən maariflənmələrinə kömək göstərir.

Tədbirlərə hazırlaşarkən şagirdlərin mövzuya dair müxtəlif mənbələrdən məlu-

matları sərbəst toplamalarına, şəkillərin çəkilməsinə, eksponatların hazırlamasına şərait yaratmaq lazımdır. Tədbirlərin planlaşdırılmasında yuxarı sinif şagirdlərinin, valideynlərin iştirak etmələri daha yaxşı nəticələrin alınmasına zəmin yaradır.

Sinifdənxaric tədbirləri keçirərkən müəllim mövzunun süjet xəttini əsas götürməli və çıxışların mövzudan kənara çıxmamısna nəzarət etməlidir. İstifadə olunan materialların elmiliyi, həyatla əlaqəsi, ideya-mənəvi tərbiyəyə xidmət etməsi nəzərə alınmalıdır. Mövzuya dair səhnəciklərin, əyləncəli və rollu oyunların təşkili tədbirin daha maraqlı keçməsinə, şagirdlərin əhvali-ruhiyyəsinin yüksəlməsinə səbəb olur. Tədbirin materialları dərslərdə keçilənlərin yaddaşda möhkəmləndirilməsinə, şagirdlərin bilik və bacarıqlarının inkişafına xidmət etməlidir.

«Təmizlik sağlamlıqdır» mövzusunda tədbir keçirərkən təmizliyə dair sərginin təşkili yaxşı nəticə verir. Sərgidə təmizliyə, insanların sağlamlığına təsir göstərən amillərə dair şagirdlərin rəsm əsərləri, əl işləri nümayiş etdirilə bilər. Tədbirdə xəstəliklər, onların səbəblərinə, yoluxma yollarına dair hekayə, şeir, səhnəcik ifa edilir. Sağlamlıqla bağlı səhnəcikdə insanın dişləri, ağız boşluğu, burnu, gözləri, beyni, dərisi, ürəyi, ağ ciyərləri, qara ciyəri, mədəsi, bağırsaqları və böyrəklərinin bir-biri ilə dialoqu təşkil edilir. Onlar vəzifələrini söyləyir, xəstəliklərini etiraf edirlər. Həkim paltarı geyinmiş şagirdlər onları dinləyir və xalq təbabəti vasitəsilə müalicə olunmalarına dair məsləhətlər verirlər. Tədbirdə insanların xəstəliklərinə səbəb olan ekoloji amillər sadalanır, onların yaxşılaşması üçün müvafiq tədbirlərin həyata keçirilməsinin zəruriliyi aydınlaşdırılır. Xəstəliklər, onların səbəbləri, qarşısının alınması yolları haqqında deyilənlər ümumiləşdirilir, müəllim və şagirdlərin fəaliyyəti qiymətləndirilir.

«Yaşıllıq sağlamlıqdır» mövzusuna həsr edilmiş tədbirin süjet xətti şairin dediklərinə uyğun qurulur:

Əkilən hər ağac bar verə bilməz,  
Qayğıkeş, işgüzar bağban olmasa.  
Xəstə şəfa tapıb, sağala bilməz,  
Dərdə çarə tapan loğman olmasa.

Burada yaşıllığın sağlamlıqda əhəmiyyətinin dərk edilməsi, bitkilərin qorunması və artırılmasına dair ifadələrə yer verilir. «Yaşıl dostlarımız» adlı sərginin təşkili çox faydalıdır. Məktəbdə yaşıllaşdırma işləri aparılır. «Hərəyə bir ağac və ya bəzək bitkisi əkək» təşəbbüsü irəli sürülür. Bu tədbirin payız və yaz aylarına salınması məktəb ərazisində bitkilərin əkilməsini reallaşdırır. Tədbirdə bitkilər və sağlamlıqda onların roluna dair materialların ifa edilməsi şagirdlərin təbiətə münasibətini formalaşdırır.

Həmişəyaşıl ağaclarla qışda yarpaqlarını tökən ağacların debatının təşkil edilməsi iştirakçıların marağına səbəb olur. Tədbirdə bitkilər, onların havanı təmizləməsi ilə insanların sağlamlığını təmin etməsi, çox faydalı təbii qida mənbəyi rolunu oynaması, ağacların geyim, mənzil avadanlığı və odun kimi insanlara xidmət etməsindən söz açılır. İnsanların ruhunu, zövqünü oxşayan, estetik gözəllik yaradan bəzək bitkiləri ilə, onların sağlamlığını təmin edən dərman bitkilərinin

dialoqu iştirakçıları məmnun edir. Şagirdlər bitkilərin insan həyatında rolunu dərk edir, onların qorunmasının, artırılmasının vacibliyini başa düşürlər. Tədbir yekunlaşdırılır, qonaqların fikirləri dinlənilir, iştirakçıların və müəllimin fəaliyyəti qiymətləndirilir.

«Zərərli vərdişlərdən uzaqlaşaq» mövzusunda tədbirin təşkili də maraqlıdır. Kiçikyaşlı məktəblilər zərərli vərdişlərin nə olduğunu öyrənirlər. Başa düşürlər ki, insanların səhhətinə, rahatlığına xələl gətirən adətlər zərərli vərdişlər adlanır. Belə vərdişlər sağlamlığın pozulması ilə nəticələnir. Bu vərdişlərə telefondan, televizordan, kompyuterdən ifrat dərəcədə istifadə olunması, qulaqcıqlarla mənasız musiqilərin dinlənilməsi, saqqız çeynəmək, siqaret çəkmək, ətraf mühitin çirkləndirilməsi və s. aid edilir.

Belə tədbirlərdə şagirdlər adları çəkilən vərdişlərin təkcə sağlamlığa deyil, həm də insanın ləyaqətinə, şəxsiyyətinə, mənəviyyatına zərərli olduğunu dərk edirlər. Kiçik yaşlarından həmin vərdişlərin zərərini başa düşən uşaqlar onlardan uzaqlaşır, yaxşı ilə pisi ayırmaqda səhvə yol vermirlər.

Şagirdlərin sağlam həyatına töhfə verən belə tədbirlərin keçirilməsi təlim-tərbiyənin keyfiyyətini yüksəldir, məktəblilərin sağlam insan kimi formalaşmalarını reallaşdırır.

### Ədəbiyyat


1. Kərimov Y.Ş. Uşaq məktəbə gedir. Bakı, «Nağıl evi», 2002.
2. Hacıyeva H.M. Orta məktəblərdə biologiyanın tədrisində tibbi biliklərin verilməsinin imkan və yolları (monoqrafiya). Bakı, «Araz», 2007.
3. Hacıyeva H.M., Məhərrəmov Ə.M. Ətraf aləmlə tanışlığın tədrisi metodikası (dərslik). Bakı, «Araz», 2006.


### Медико-гигиенического воспитания во внеклассных мероприятиях


**Резюме**

Статья посвящена прививанию медико-гигиенического воспитания при внеклассных мероприятиях в начальных классах.

Отмечаются навыки прививания медико-гигиенического воспитания во внеклассных мероприятиях, разрабатывается их форма, содержание. Учителям предоставлена методическая рекомендация по проведению мероприятий в медико-гигиеническом направлении.


### Teaching of medical-hygienic knowledge in extracurricular events


**Summary**

An Article is dedicated to teaching of medical-hygienic knowledge in extracurricular events on primary classes. Importance of teaching of medical-hygienic knowledge in extracurricular events was grounded and their formation and contents was developed in this Article. Teachers were given methodic recommendations on holding of medical-hygienic events.

## EŞİTMƏSİ QÜSURLU UŞAQLARA HƏRƏKƏT BİLDİRƏN SÖZLƏRİN ÖYRƏDİLMƏSİ


**Dilarə Dostuzadə,**
ARTPİ-nin inklüziv təhsil şöbəsinin böyük elmi işçisi





**Açar sözlər**: mimika, əl hərəkətləri, sözlü nitq, ünsiyyət, əqli inkişaf.

**Ключевые слова**: мимика, движение руки, словесная речь, общение, умственное развитие.

**Key words**: mimic, action, verbal speech, dialogue, intellectual development.


Normal eşidən uşaqlar ana dilinin lüğət ehtiyatını böyüklər və yaşıdları ilə qarşılıqlı ünsiyyət prosesində, onları yamsılayaq erkən mənimsəyirlər. Eşitməsi qüsurlu uşaqlarda isə eşitmə pozğunluğu nitqin normal inkişafının qarşısını alır. Nəticədə uşaq sözləri əmələ gətirən danışıq səslərini və onların müxtəlif tərkiblərdə birləşib, ifadə etdiyi məna çalarlarını qavramaqda çətinlik çəkir, sözlü nitqə yiyələnə bilmirlər. Bu da onun təfəkkürünün inkişafını ləngidir və uşağı əyani-əməli təfəkkür səviyyəsində saxlayır.

Eşitməsi qüsurlu uşaqlar xüsusi təlim şəraiti ilə əhatə olunduqdan sonra şifahi və yazılı nitqə yiyələnə bilirlər. Onlar başqalarının danışığını görmə analizatorlarının köməyi ilə qavrayır və düzgün tələffüz vərdişlərinə yiyələnərək ətrafdakıları başa düşmək, onlarla ünsiyyətə girmək imkanı əldə edirlər. Uşağın sözlü nitqə ünsiyyət vasitəsi, təfəkkür aləti kimi yiyələnməsi təlimin düzgün qurulmasından, surdopedaqoji tələblər və prinsiplərə riayət edilməsindən asılıdır. Yalnız bu zaman sözlü nitq eşitməsi tam pozulmuş uşaqlar üçün əsas ünsiyyət vasitəsinə və təfəkkür alətinə çevrilə bilər.

Eşitməsi qüsurlu uşaqların sözlü nitqə yiyələnmələri, spesifik xüsusiyyətlərinə görə fərqlənsə də, qeyri-adi yolla gedə bilməz. Sözlü nitq ünsiyyət və təfəkkürə xidmət etmək üçün öyrədildiyindən, təlim prosesində həmin funksiyanın yerinə yetirilməsi əsas məqsəd kimi götürülməlidir.

Məktəbdə sözlü nitq təlimində əsas diqqəti qrammatik formaların məzmununun açılmasına yönəltməklə, tələffüz vərdişlərinin formalaşdırılmasına, əşya bildirən sözlərin öyrədilməsinə daha çox vaxt sərf edildiyindən, uşaqların əldə etdikləri bilikləri ünsiyyət prosesində tətbiq edib, şifahi sözlü nitq vasitəsilə fikirlərini bildirmək bacarığının formalaşdırılması üzrə iş aparılmır.

Müşahidələr göstərir ki, eşitməsi qüsurlu şagirdlərə öyrədilən sözlərin böyük əksəriyyəti yalnız əşyaların adını bildirir. Onların öyrəndikləri sözlər içərisində əşyanın əlaməti və hərəkəti ilə bağlı sözlər çox azdır. Buna görə də uşaqlara əşyanı

göstərib «bu nədir?» deyə soruşduqda, bir neçə əşyanın adını daktil (barmaq yazısı), daktil-şifahi və ya şifahi olaraq deyə bilir, gündəlik icra etdikləri hərəkətləri isə sözlərlə ifadə etməkdə çətinlik çəkirlər. Eşitməsi qüsurlu uşaqlar hərəkəti qavrayır, lakin onu sözlə ifadə edə bilmirlər.

Şagirdlər məktəbəqədər inkişaf dövründə əşyanın hərəkəti ilə bağlı olan anlayış və təsəvvürləri özlərinə məxsus fərdi mimiki işarələrlə ifadə edirlər. Onların əksəriyyətinin hərəkətlə bağlı işlətdikləri mimiki işarələr kar adamların mimiki-əl-hərəki dilində işlətdikləri jest və işarələrə uyğun gəlmir. Eşitməsi tam pozulmuş uşaqlar yalnız ailədə ünsiyyət zamanı işlətdikləri müxtəlif fərdi mimiki işarə ehtiyatından istifadə etdiklərindən bir-biri ilə, müəllim isə onlarla ünsiyyətə girə bilmir. Buna görə də müəllim, tərbiyəçi istər-istəməz mimiki-əl-hərəki nitqdən istifadə edir. İlk günlər uşaqların yiyələndikləri fərdi mimiki işarələrin kar uşaqlar arasında qəbul olunmuş ümumi mənalı jestlərlə əvəz olunması üzrə təlim işi aparılmalıdır.

Yuxarı sinif şagirdləri məktəbə yeni qəbul olunmuş uşaqlarla mimiki-əl-hərəki nitqi ilə ünsiyyətə girib, jest dilini inkişaf etdirərək onun ünsiyyət tələbatını ödəyən vasitəyə çevrilməsinə şərait yaradırlar.

Eşitməsi qüsurlu uşaqlar məktəbinin I sinfinə uşaqların yalnız cüzi hissəsi məktəbəqədər tərbiyə müəssisələrindən gəlir. Bu uşaqların məktəbəqədər yaş dövründəki sözlü nitq üzrə hazırlığı mimiki-əl-hərəki dili əsasında aparıldığı üçün onlar mimiki işarə ehtiyatının zənginliyi cəhətdən ailədən gələn uşaqlardan fərqlənirlər.

Təlimin ilkin mərhələsində bu istiqamətdə iş aparılıb, şagirdlərə sözlü nitq materialı öyrədilərsə, müəllim-tərbiyəçilər şagirdləri *oxumaq*, *öyrənmək*, *yazmaq*, *oturmaq* (sinif otağı ilə tanışlıq), *yemək*, *içmək*, *bişirmək*, *yanmaq*, *doğramaq*, *tökmək*, *paylamaq*, *yığmaq*, *qabı silmək*, *qabı yumaq*, *gətirir*, *aparır* (yeməkxana və mətbəxlə tanışlıq), *yatmaq*, *uzanmaq*, *dincəlmək*, *lampanı söndürmək*, *lampanı yandırmaq*, *soyunmaq*, *geyinmək* (yataq otağı ilə tanışlıqda), *yuyunmaq*, *əl yumaq*, *üzü yumaq*, *silinmək*, *dişi təmizləmək*, *saçı daramaq* (vanna otağı ildə tanışlıq) və s. hərəkət bildirən sözlərlə tanış edib, həmin hərəkətləri sözlərlə ifadə etməyin mümkün olduğu barədə ilkin təsəvvür yaratsalar, sözlü nitq təlimi üçün zəmin hazırlamış olarlar.

Eşitməsi qüsurlu uşaqlar məktəbinin I sinfinə daxil olmuş şagirdlərin hərəkətləri hansı nitq formasında ifadə etməsinin xüsusiyyətlərini və məktəbəqədər yaş dövründə öyrəndiyi ünsiyyət formasının səviyyəsini yoxlamaq məqsədilə müəllim-tərbiyəçi ilə birlikdə uşaqlara müxtəlif hərəkətləri əks etdirən (oğlanın oxumasını, əl-üzünü yumasını, yemək yeməsini, çarpayını səliqəyə salmasını, yatmasını, qızın yazmasını, kitab oxumasını, ananın paltar yumasını, atanın qəzet oxumasını, uşağın oynamasını, itin hürməsini, atın qaçmasını) şəkillər göstərib, «Oğlan nə edir?», «İt nə edir?», «At nə edir?» «Uşaq nə edir?» suallarını mimika ilə soruşduq. Məlum oldu ki, şagirdlərin hamısı hərəkəti mahiyyətcə düzgün qavrayır, lakin qavradıqları hərəkəti mimiki işarələrlə müxtəlif şəkildə ifadə edirlər. Uşaqların heç biri həmin şəkillərdə olan əşya və hərəkətlərin adlarını sözlə ifadə edə bilmədi. Şagirdlərin şəkillərdə verilmiş hərəkətləri ifadə etmək üçün

işlətdikləri mimiki işarələr karlar tərəfindən mimiki-əl-hərəki ünsiyyətində işlədilən jestlərlə eynilik təşkil edir, lakin bunların istifadə etdikləri mimiki işarələr ümumiləşdirici məna kəsb etmədiyindən atın və oğlanın qaçmasını, qızın kitab, atanın qəzet oxumasını eyni mimiki işarə ilə deyil, müxtəlif jestlərlə ifadə edirdilər. Onlara əksər hallarda *nə etdi?* sualını verərkən, uşaqlar susur, çiyinlərini çəkib «Bilmirəm» deyirdilər. Biz yardımçı mimiki hərəkətlərlə ifadə olunmuş suallar verib, onların həmin hərəkəti necə və hansı mimiki işarə ilə ifadə edə bildiklərini müəyyənləşdirirdik.

Müəllim şagirdlərlə müsahibəni aşağıdakı kimi aparırdı:

– Oğlan nə edir? (Şagird çiyinlərini çəkir, bilmədiyini işarə edir.)

– O yeyir? Qaçır? (Müəllim təqlidlə qaçışı yamsılayır. Şagird başını bulayaraq «yox» işarəsini icra edir.).

– Bəs nə edir? (Şagird əlini stolun üstündəki kitaba uzadıb, sonradan barmaqlarını gözlərinə yaxınlaşdırıb-uzaqlaşdırmaqla «baxır» mimiki-əl işarəsini ifadə edir).

– Bu oğlan nə edir? (Şagird həmin şəkildə oğlanın təsvir olunduğu vəziyyəti alıb əl-üzünü yumasını təqlid etməklə cavab verir.)

Sonra müəllim Mətanəti yazı taxtasının qarşısına çağırır.

– Mətanət, qız nə edir? ( Şagird kitabı götürüb, ona baxır. «Kitab oxuyur» cavabını mimiki-əl işarəsi ilə göstərir).

– Qız kitaba baxır? (Şagird başını tərpətməklə təsdiq edir.)

– Bu qız nə edir? (Şagird əli ilə ətəyindən tutaraq yumaq işini göstərən hərəkəti təsvir edir, yəni paltar yuyur.)

Müəllim oğlanın yatmasını əks etdirən şəkli göstərərək mimikanın müşayiəti ilə soruşur:

– Oğlan nə edir? (Şagird başını sağ əlinə söykəyib, gözlərini yumur, «Yatır» cavabını verir.)

– Bəs it nə edir? (Şagird itin hürə-hürə qaçmasını təsvir edən hərəkətlə qapıya tərəf gedərək, «Qaçır» cavabını göstərir.)

Şagirdlər bütün hərəkətləri məktəbəqədər dövrdə yiyələndikləri fərdi mimiki işarələrlə ifadə etdilər. Bu materiallar təsdiq edir ki, şagirdlər əşyanın hərəkətini əyani olaraq qavrayır və özlərinə məxsus tərzdə ifadə edirlər.

Uşaqların əksər hissəsi onlara daha yaxın konkret cisim və hadisələri, hər gün müşahidə etdikləri bəzi hərəkətləri mimiki işarələrlə ifadə edib, öz istək və tələbatları haqqında başqalarını xəbərdar edə bilirlər.

Məktəbə yeni qəbul olunmuş eşitməsi qüsurlu şagirdlərin mimiki-əl-hərəki nitqinin inkişaf səviyyəsində özünü göstərən müəyyən fərqlər başlıca olaraq iki amildən asılıdır:

- eşitməsi qüsurlu uşağın fərdi inkişaf xüsusiyyətlərindən;
- onun məktəbəqədər dövrdə istifadə etdiyi ünsiyyət formasından.

Məktəb təcrübəsinin öyrənilməsi göstərir ki, ətrafında olan adamlarla ünsiyyətə can atan, fəal uşaqların xarici aləm haqqındakı konkret təsəvvürləri dolğun olduğu kimi, onların məktəbə daxil olana qədər əldə etdikləri «mimiki lüğət ehtiyatı» da zəngin olur. Əksinə, zəif, adamlarla birgə fəaliyyətdən qaçan,

onlarla ünsiyyətə girməyə cəhd göstərməyən qapalı uşaqların idrak prosesləri və mimiki-əl-hərəki nitqində işlətdiyi fərdi işarələr daha sadə olub, onların ətrafdakılarla ünsiyyətə girmələrinə imkan vermir.

Eşitməsi qüsurlu uşaqların ümumi inkişafına və xüsusi təlimdəki müvəffəqiyyətlərinə təsir edən amillərdən biri də ailənin uşağın ünsiyyətinin formalaşması qayğısına qalmasıdır. Xüsusi ailə təlimi ilə əhatə olunmuş şagirdlərin mimiki-əl-hərəki dili yaxşı inkişaf etdiyi üçün onların əqli inkişafı da başqa yoldaşlarına nisbətən daha üstündür, çünki bu mimiki işarələrlə müəyyən mənalar ifadə edilir. Bu jestlər hələlik sözlü nitqə yiyələnməmiş eşitməsi qüsurlu uşaqlar üçün yardımçı deyil, əsas ünsiyyət vasitəsidir.

Eşitməsi qüsurlu uşaqlar hərəkətin təqlid edilərək yamsılanmasına imkan verən jestlər vasitəsilə təkcə hərəkətin özünü deyil, həmin hərəkətlə əlaqədar olan əşyaları da bildirirlər. Belə ki, ibtidai siniflərdə şagirdlərin mimiki nitqində *su– su içmək; quş– kəpənək – cırcırama– uçmaq; bıçaq–doğramaq– kəsmək; lampa– yandırmaq; şotka– təmizləmək; süpürgə – süpürmək* və s. mənalar eyni jestlə ifadə olunur. Bütün əşya və hərəkət bildirən anlayışlar yalnız fel mənalı təsviri jestlərlə ifadə edilir. Adi hərəkətlər (*üzmək, yazmaq, oxumaq*) şagirdlərin mimiki-əl-hərəki nitqində əl-qol vasitəsilə ifadə edilir. Buna görə də uşaqlar həmin sözləri nitqdə işlədərək müəyyən bir məzmunu öz müsahibinə çatdırmaq istədikdə eyni mənadan istifadə edirlər. Belə ki, «süpürgə» əvəzinə «süpürmək», «içmək» əvəzinə «su», «bıçaq» əvəzinə «kəsmək», «lampa» əvəzinə «yanmaq», «quş» əvəzinə «uçmaq», «təmizləmək» əvəzinə «şotka» işlətdikləri kimi, əksinə, fellərin yerinə isimləri işlətdikləri üçün onların nitqində özünəməxsus mənasızlıq və aqramatizm özünü göstərir.

İbtidai siniflərdə şagirdlər hərəkət bildirən sözləri təkcə şifahi danışıq dilində deyil, daktil sözlü nitqdə və yazılı dildə də mənalarına görə düzgün işlədə bilmirlər. Şagirdlər hərəkətlə bağlı olan yaxın mənalı sözlərin məna çalarlarını dərk edə bilmədiklərindən, onların birini digərinin yerində işlədirlər. Bu, eşitməsi qüsurlu şagirdlərin sözlü nitqində özünü göstərən xarakterik xüsusiyyətlərdən biridir. Bu fikri təsdiq etmək üçün şagirdlərin işlətdikləri (daktil və yazılı nitq formasında) bəzi nümunələrə müraciət edək.

I sinif şagirdi Cəmilə «yemək» əvəzinə «yemləyir», «dənləyir» əvəzinə «dən verir», «quşlar uçdular» əvəzinə «quş evdən» sözlərini işlətmişdir. Həmin sinifdə oxuyan Eldar isə «asır» sözünün yerinə «sallanır», «asılmışdır» əvəzinə isə «asmaq» sözünü işlədirdi. Başqa bir şagird isə «tutmaq» əvəzinə «bərk», «möhkəm», «əl» sözlərini işlətmişdir.

Bundan əlavə, şagirdlər *soruşdu – xəbər aldı; dedi– danışdı; söylədi– cavab verdi* kimi yaxın mənalı sözləri qarışıq salıb, onların məna çalarlarını dəqiq başa düşə bilmədiklərindən, həmin söz və ifadələrdən özlərinin sərbəst sözlü nitqində istifadə edərkən səhvlərə yol verirlər.

Şagirdlərin təsəvvürləri və əyani-əməli-obrazlı təfəkkür səviyyəsində yiyələndikləri anlayışların dəqiqləşməsi və diferensiasiya edilib möhkəmləndirilməsi sayəsində onların lüğət ehtiyatı zənginləşməklə yanaşı, sözlərin mənası da dəqiqləşir.

I sinifdə oxuyan şagirdlər «karandaş» sözünü «yazmaq» feli yerində işlədirlərsə, onlara sonrakı nitq təlimi prosesində «yazmaq» hərəkətini bildirən «yazmaq» sözü öyrədildiyindən, uşaqların şüurunda «karandaş» sözünün mənası daha dəqiqləşir. Əgər sözlərin mənasının mənimsədilməsi, məzmununun dəqiqləşdirilməsi üzrə iş aparılarsa, bu, lüğət ehtiyatının zənginləşdirilməsinə, uşaqların idrak fəaliyyətinin inkişafına və yiyələndikləri anlayışların mənaca genişlənib dərinləşməsinə xidmət edər.

Müəllim-tərbiyəçilər sözlərin mənasını yalnız mimiki-əl-hərəki dilə tərcümə etməklə, hərəkətlə bağlı şəkilləri göstərməklə kifayətlənməyib, təlimin ilkin mərhələsində daktilologiyadan istifadə edərək, eşitməsi qüsurlu uşaqlara canlı, sözlü nitqi aşılamaqla surdopedaqoji tələb və prinsiplərə uyğun qurulmuş təlim işi aparsa idilər, şagirdlər «gəldi», «gətirdi» kimi felləri, «iş» ismini «işləyir» feli ilə, «tut» sözünü «tutur», «at» sözünü «atır», «yol» sözünü «yolur», «yu» sözünü «əl», «oxumaq» sözünü «məktub» sözü ilə əvəz etməzdilər.

Göründüyü kimi, səs tərkibini tələffüz etmək üçün zəruri olan arti-kulyasiya hərəkətlərindən başlayaraq danışığı dodaqdan başa düşməyə, ana dilinin fonetikasını, morfoloji xüsusiyyətlərini, qrammatik quruluşunu, hətta ünsiyyət tələbatının formalaşması kimi nitq və dil məsələlərinə eşitmə nəzarətinin olmadığı şəraitdə sözlü nitqin mənimsədilib inkişaf etdirilməsi özünəməxsus çətinliklərlə bağlıdır.

Uşaqlar təkcə I-II siniflərdə deyil, III-IV siniflərdə də «öyrənmək», «oxumaq», «yazmaq», «sinif və dərs ləvazimatları», «məktəb» sözlərini ifadə etməklə yanaşı, adi hərəkət bildirən felləri və məişətdə işlətdikləri əşyaların adlarını da bilməlidirlər.

Eşitməsi qüsurlu şagirdlərin hərəkət bildirən sözləri mənasına uyğun formada işlədə bilməmələrinin səbəbini təkcə karlığın nəticəsi ilə izah etmək olmaz. Burada əsas səbəblərdən biri də təlim işinin surdopedaqoji tələblərə uyğun qurulmamasıdır.

**Ədəbiyyat**

1.S.Ə. Qasımov. Xüsusi məktəblərdə anomal uşaqların nitq inkişafı. Bakı, «Maarif», 1998.

2.S.Ə. Qasımov. Ana dilinin mənimsədilməsinin xüsusiyyətləri. Bakı, «Maarif», 1999.

4. L.S. Выготски. Педагогическая психология. М., «Педагогика», 1991.

**Изучение детьми с проблемами слуха слов обозначающих действия.**

**Резюме**

Для детей с проблемами слуха словесная речь является способом общения, способствующим также и развитию мышления. В статье отмечено, что это зависит от правильной организации сурдопедагогической работы, процесса обучения и правильного преподнесения речевого материала.

**Mastering by children with problems of hearing of words,designating actions.**

**Summary**

For children with problems of hearing the verbal speech is a way of dialogue promoting as well development of thinking. In clause is marked, that it depends on correct organization сурдопедагогической of operation, process of training and correct to teach of a speech material.

# NİTQİ QÜSURLU UŞAQLARIN SƏS TƏHLİLİNƏ HAZIRLANMALARI

**Səlahət Musayeva,**
Xətai rayonu, 235 nömrəli xüsusi
uşaq bağçasının müdiri



**Açar sözlər:** məktəbəqədər yaşlı uşaq, nitq inkişafı, nitqi qüsurlu, loqoped, məşğələ.

**Ключевая слова:** дошкольник, развитие речи, дефекты речи, логопед, занятия.

**Key words:** the preschool child, the development of speech, defects of speech, speech therapist, training .

Profilindən asılı olmayaraq, bütün məktəbəqədər təhsil müəssisələrinin məqsədi uşaqları məktəb təliminə hazırlamaqdır. Bunun üçün tələb olunan əsas keyfiyyətlərdən biri də uşaqların düzgün səs mədəniy yətinə yiyələnməsidir. Gözəl nitq fikrin aynasıdır. Aydın nitqi olan uşaq fikrini düzgün ifadə edir, bildiklərini asanlıqla ətrafdakılara çatdırır, bu isə məktəbdə onun daha yaxşı oxumasına imkan yaradır.

Cəmiyyətimizdə qüsurlu nitqə malik uşaqlar az deyildir. Çalışdığım körpələr evi-uşaq bağçasında nitqi qüsurlu uşaqların nitq nöqsanlarının islahı üzrə loqopedlərimiz tərəfindən xüsusi iş aparılır. Nitqi qüsurlu uşaqlarla səs təhlili üzrə işə, əsasən, orta yaş qrupundan başlanır. Bağçada tərbiyə alan sağlamlıq imkanları məhdud, nitqi qüsurlu uşaqları müşahidə zamanı aşkar olur ki, onlar bəzi səsləri düzgün tələffüz edə bilmirlər. Belə çətinliklər, əsasən, təhlil–tərkib metodu ilə savad təlimi zamanı özünü daha çox büruzə verir. Məhz buna görə nitqi qüsurlu uşaqlarla səs təhlili üzrə iş aparmazdan əvvəl onların nitqində səslərin düzgün tələffüzünə nail olmağa çalışırıq. Onlar danışarkən sözün əvvəlini və ya axırını "yeyir", sözün ortasında isə bəzi səsləri aydın olmayan tərzdə tələffüz edirlər. Belə hallarda loqopedlər artikulyasiya aparatının inkişafına xüsusi diqqət yetirirlər. Sözlərin düzgün tələffüzünə nail olmaq üçün ilk növbədə sait səsləri düzgün tələffüz etməyi öyrətmək lazımdır.

Loqoped L.Q.Antifeyeva öz iş təcrübəsində sait səslərin öyrədilməsi prosesində uşaqlara müraciət edir:

– Uşaqlar, siz cizgi filmində nə görmüsünüz?

Müxtəlif cavablar aldıqdan sonra loqoped meşədə azmış qızın öz yoldaşlarını necə, hansı səslə çağırmasını soruşur.

– Uşaqlar, qız meşədə azmışdı. O, yoldaşlarını necə səsləyirdi?

Loqoped əllərini ağzının yanında yarımdairə şəklində tutaraq belə bir səs çıxarır:

– A-U..., A-U..., A-U....

Uşaqlar bu səsi təkrarlayırlar.

– Bəbələr yemək istəyəndə necə səs çıxarırlar?

Uşaqlar cavab verməkdə çətinlik çəkirlər, loqoped yemək istəyən körpənin səsini çıxarır və uşaqların da bu səsi təkrarlamasaını təklif edir:

– U-a..., u-a..., u-a...

Beləliklə, səslərin təhlili üçün ilkin pillə qoyulur. Uşaqlara "AU" və "UA" hərf birləşmələrini tələffüz etmək və həmin birləşmələrdə hansı səslərin olduğunu müəyyən etmək öyrədilir.

Loqoped K.Hacıyeva təbiətdəki səslərin uşaqlar tərəfindən duyulmasına və tələffüzünə xüsusi əhəmiyyət verir. Uşaqlar küləyin, arının, milçəyin, suyun, ilanın, yağışın səsini müəyyən edərək hər hansı səs birləşmələrinin tələffüzünə nail olurlar.

Loqoped S.Əlizadə müxtəlif əşyaların səslərinin fərqləndirilməsini öyrədərkən əvvəlcə kubiklə, açarla stolu, sonra isə qaşıqla nəlbəkini döyəcləyir. Uşaq bu əşyaların səsini eşidir və onları görür. Sonra loqoped arakəsmənin arxasında dayanaraq həmin əşyaların səsini çıxarır və uşaqdan "Mən nə ilə döyəcləyirəm?" deyə soruşur (kubiklə, açarla və ya qaşıqla). Beləliklə, loqoped uşaqlarda eşitmə diqqətinin inkişafına nail olmağa çalışır.



Loqoped bu metodla heyvanların və quşların səsləri ilə də uşaqları tanış edir. (qoyun–"MƏ", inək "MO", qaz "QA" və s.) Bu səs birləşmələrinin tələffüzü və onların hansı səslərdən təşkil olunması uşaqlara izah edilir.

Uşağa səs, söz terminlərini başa düşməyi və onlardan istifadə etməyi öyrətmək lazımdır. Uşaq başa düşməlidir ki, "alma" sözdür. Bu sözü deyərkən əvvəlcə hansı səsin eşidildiyini müəyyən etmək isə onun üçün çətindir.

Uşaqlara sözdəki səslərin necə səslənməsini oyunun köməyi ilə daha asanlıqla başa salmaq olur. Loqoped alma şəklini göstərərək uşaqlardan soruşur:



– Kim deyər, bu gün biz hansı meyvə haqqında danışacağıq ?

Uşaq:

– A . ma (alma),

Loqoped:

– Uşaqlar, siz, "alma" deyəndə ağzınız neçə dəfə açılıb yumulur ? Baxın, mən göstərirəm: al-ma.

Uşaqlar qeyri-iradi olaraq ağızlarını açaraq "al-ma" deyirlər.

Loqoped:

– Uşaqlar, bu sözü deyəndə biz əvvəlcə nə eşidirik?

Vəziyyət bir neçə dəfə təkrarlandıqdan sonra uşaqlar sözdə birinci "al" səs birləşməsinin, sonra isə "ma" səs birləşməsinin olduğunu deyirlər.

Loqoped bu dəfə oyunu ev heyvanlarından birinin şəklinə əsasən (pişik) aparır və uşaqları oyuna cəlb edir.

Uşaqlara mənimsəmə və təhlil üçün söz verilir. Onlardan sözün əvvəlində və sonunda müəyyən səsi tapmaq, səslərin sayını müəyyən etmək tələb olunur. Uşaqlar çoxlu səhvə yol verirlər. Bununla əlaqədar sözün səslərə görə öyrədilməsi üzrə iş aparmaq lazımdır. Sözün tərkibinin təhlili, səslərin düzülüş ardıcıllığının müəyyən edilməsi üzrə müxtəlif məşqlər aparılmalıdır.

Biz məşğələdə uşaqların rəng, forma və ölçü ilə tanışlığını da oyun formasında keçiririk. Bu məqsədlə məşğələləri aşağıdakı istiqamətdə təşkil edirik:

- ***əşyaların ardıcıllığına görə*** – "Tıq-tıq xanım", "Sərçə", "Qarı və buzov" (Azərbaycan xalq nağılları), "Turp" (rus xalq nağılı), "Əlcək" (Ukrayna xalq nağılı) ;
- ***həcmə görə*** – "Tülkü və hacıleylək" (Azərbaycan xalq nağılı), "Üç ayı" (L.N.Tolstoy) nağılı;
- ***rəngə görə*** – C. Məmmədov, "Dörd kəpənək", "Güllər və kəpənəklər oyunu", V.Suteyev, "Xoruz və rənglər" nağılı;
- ***formaya görə***–"Qoğal"(rus xalq nağılı),"İki acgöz ayı balası"(macar nağılı).

Həmin mövzular üzrə məşğələlər aşağıdakı kimi aparılır.

**Əşyaların ardıcıllığı** üzrə oyun-məşğələyə nəzər salaq.

***Oyun: "Turp"*** ( rus xalq nağılının motivləri əsasında )

***Oyunun məqsədi*** – Əşyaların ardıcıllığı haqqında təsəvvürü dəqiqləşdirmək.

Uşaqları *sıra, yer, əvvəl, orta, axır* (sıranın axırı), *sağ, sol, irəli, geri, qabaq, arxa, yan tərəf, yanında, birinci, axırıncı* məfhumları ilə tanış etmək.

***Resurslar:*** "Turp" nağılına aid stolüstü teatrın fiqurları, bostan və tərəvəz sahəsini əhatə edən hasar, nağıl personajlarına aid əşyalar.

***Motivasiya.*** Qapı döyülür. Əlində qutu olan tərbiyəçi otağa daxil olaraq deyir:

– Salam, uşaqlar! Bu qutunu bizə bir sehrbaz göndərib. O dedi ki, uşaqlar qutudakı fiqurları tanısalar, tərbiyəçi ilə birlikdə nağıl qurub danışarsınız. Uşaqlar, gəlin baxaq görək, qutudakı fiqurları tanıya biləcəksiniz?

Loqoped əvvəlcə turp fiqurunu çıxarır, sonra baba, nənə və digər fiqurları göstərərək soruşur:

– Uşaqlar, bu fiqurlar hansı nağılın qəhrəmanlarıdır?

Uşaqlar fiqurlara əsasən söhbətin "Turp" nağılından gedəcəyini söyləyirlər.

**Oyunun gedişi**

Loqoped uşaqlara çox böyük turpun çıxarılmasında babaya kömək etməyi təklif edir. Danışılanlar stolüstü teatrın fiqurları vasitəsilə müşayiət olunur: "Baba turp əkdi, turp yetişəndə böyük, çox böyük bir turp oldu. Baba turpu çıxarmaq istədi.*(Loqoped hasarın içərisində yerləşdirdiyi turpun sağ tərəfində babanın fiqurunu elə qoyur ki, uşaqlar onu aydın görə bilsinlər.)* Baba dartdı, dartdı, turpu çıxarda bilmədi. Baba nənəni köməyə çağırdı. *(Loqoped qəsdən nənənin fiqurunu əks tərəfdən turpun yanına*

*qoyur)*. Baba turpdan tutdu, nənə də turpdan tutdu, dartdılar, dartdılar, turpu çıxarda bilmədilər.

Uşaqların iştirakı ilə loqoped fiqurlardan cərgə təşkil edir: turp, baba, nənə.

Sonra oyun davam edir.

– Nənə nəvəni köməyə çağırdı. Baba turpdan, nənə babadan, nəvə isə nənədən tutdu. (*Loqoped yenə də "səhv" edir: nəvəni cərgəyə deyil, turpun əks tərəfinə qoyur).* Dartdılar, dartdılar, yenə də çıxarda bilmədilər. Nağıl uşaqlara tanış olduğu üçün onlar dərhal loqopedin "səhv"ini düzəldərək nəvənin fiqurunu nənənin arxa tərəfinə yerləşdirirlər.

–Nəvənin yeri haradadır? deyə loqoped soruşur.

Uşaqlar:

–Nənənin arxasında.

Beləliklə, bütün fiqurlar nağılda olduğu kimi bir-birinin ardınca düzülür, siçan isə sıranın axırında dayanır.

Loqoped:

–Baxın, sıranın axırında siçandan sonra heç kim dayanmadı. Onlar hamısı birlikdə babaya kömək etdilər, dartdılar, dartdılar, böyük turpu yerindən çıxartdılar.

Sonra loqoped fiqurları yığışdırır və uşaqlardan xahiş edir ki, fiqurların hansı ardıcıllıqla düzüldüyünü yada salsınlar. Lazım olan yeri jestlə göstərərək:

– Bura kimin yeridir? Birinci kim dayanmışdı? Axırıncı kim idi? Cərgənin əvvəli haradır? Sağ ələ yaxın, sol ələ yaxın nə deməkdir? və s. suallarla uşaqlara müraciət edir.

Bəzi uşaqlar (nitqi fəal olmayanlar) jestlərin köməyi ilə – baxışları ilə, başlarının hərəkəti ilə cavab verir, münasibət bildirirlər. Nitqi fəal olan uşaqlar isə sözləri yadda saxlayaraq cavab verirlər.

Sıranın ardıcıllığının öyrədilməsi məqsədilə "Turp" nağılı əsasında oyunu həm məşğələdə, həm də məşğələdən kənar vaxtlarda təşkil etmək məqsədəuyğundur. Hər bir halda məqsəd uşaqların ardıcıllıq haqqında təsəvvürlərini dəqiqləşdirmək və lüğətlərinə yuxarıda göstərilən sıra ardıcıllığına aid sözləri daxil etməkdir.

**Ölçü anlayışı** ilə tanışlıq üzrə məşğələyə nəzər salaq.

**Oyun: "Ad günü"** ( L.N.Tolstoyun "Üç ayı" nağılının motivləri əsasında.)

**Oyunun məqsədi:** əşyaların həcmi haqqında uşaqların təsəvvürünü dəqiqləşdirmək; Uşaqları həcm anlayışı ilə tanış etmək.

**Resurslar:** "Üç ayı" nağılının stolüstü teatr üçün fiqurları, oyuncaqlar dəsti və ya müxtəlif ölçüdə əşya şəkilləri.

## Oyunun gedişi

Loqoped balaca Maşanın fiqurunu uşaqlara göstərərək deyir:

– Bu gün Maşanın ad günüdür. Ayılar ona qonaq gəliblər.

Ayılardan biri lap böyük, o biri bir qədər kiçik, üçüncüsü isə lap kiçik idi. Loqoped tədricən biri-birindən ölçüsünə görə fərqlənən fiqurları növbə ilə oyuna daxil edir. Sonra isə uşaqlara müraciət edərək deyir:

– Uşaqlar, siz bu ayıları tanıyırsınız? Afərin, uşaqlar! Düz deyirsiniz, lap böyük ata ayı Mixail İvanoviçdir. Bir qədər kiçik ana ayıdır. Onun adı Anastasiya Petrovnadır.

Lap balaca isə onların oğlu Mişutkadır. Ayılar meşədən çoxlu göbələk, meyvə və çiçək toplayaraq Maşaya hədiyyə gətiriblər.

Loqoped Maşa fiqurunun qarşısına ölçüsünə görə müxtəlif olan üç rəngdə çiçək (şəkil və ya həqiqi çiçək ola bilər ) qoyub soruşur:

–Maşa, bu çiçəklərdən hansını sənin üçün ata ayı, hansını ana ayı və hansını balaca Mişutka hədiyyə gətirib? Uşaqlar, gəlin birlikdə fikirləşək, görək hansı çiçəyi Maşa üçün hansı ayı gətirib?

Loqoped uşaqlara şəklə baxmağı təklif edir:

– Çiçəklər qəşəngdir, hamısının rəngi qırmızıdır, ancaq çiçəklərin biri böyük, o biri bir qədər kiçik, üçüncüsü isə lap kiçikdir. Deməli, bu çiçəklərin rəngi eyni olsa da, ölçülərinə görə müxtəlifdirlər. Ayılar da ölçülərinə görə müxtəlifdirlər: ata ayı böyük, ana ayı ata ayıdan bir qədər kiçik, Mişutka isə lap kiçikdir. Maşa düzgün tapdı. Böyük çiçəyi ata ayı gətirib. O, ən böyük və güclüdür. İndi tapın görüm, Maşa üçün ən kiçik çiçəyi hansı ayı gətirib?

Uşaqlar dərhal həmin çiçəyi Mişutkanın bağışladığını deyirlər.

– Bəs orta ölçüdə olan çiçəyi kim bağışlayıb? Böyük çiçəkdən bir qədər kiçik, kiçik çiçəkdən isə bir qədər böyük çiçəyi Maşa üçün hansı ayı hədiyyə gətirib?

Çiçəklərin müxtəlif ölçüdə olması "Üç ayı" nağılının fiqurlarının ölçüsünə müvafiq olaraq müqayisə edilir. Loqoped-tərbiyəçi fiqurları sıra ilə bir-birinin yanına düzür. Uşaqlar isə çiçəkləri və ya digər əşyaları ayıların ölçüsünə uyğun olaraq qruplaşdırırlar: böyük əşyaları Mixail İvanoviçin yanına, bir qədər kiçik, orta ölçülü əşyaları Anastasiya Petrovnanın yanına, lap kiçik əşyaları isə Mişutkanın yanına qoyurlar. Beləliklə, uşaqlar hansı əşyaları hansı ayının gətirdiyini aydınlaşdırırlar.

Nitqi qüsurlu uşaqlardan ibarət orta yaş qrupunda **həcm** anlayışının öyrədilməsi və uşağın lüğətinə daxil olunması süjetli-rollu oyunlar vasitəsilə daha yaxşı təmin edilir. Bu məqsədlə orta yaş qrupunun uşaqları ilə **"Mağaza"** oyununu təşkil edirik.

**Məqsəd:** uşaqlara müxtəlif həcmli əşyaları tanımağı və müqayisə etməyi öyrətmək. "Həcm" sözünün mənasını başa salmaq və lüğətə daxil etmək.

**Resurslar**: "Üç ayı" nağılına aid əşya şəkilləri və ya nağıl qəhrəmanlarının fiqurları. (Tərbiyəçi öz fantaziyasına uyğun olaraq nağıldakı personajların adını oyun prosesində milliləşdirə bilər.)

### Məşğələnin gedişi

Loqoped:

– Uşaqlar, bu gün mən təzə mağaza açıram. Mağazada müxtəlif ölçülü stullar, səbətlər, fincanlar, qaşıqlar, kasalar, çarpayılar, başmaqlar, cücüləri tutmaq üçün torlar və bankalarda bal satılır. (Mağazada eyni adlı, müxtəlif ölçülü əşyalar yan-yana, üç cərgədə düzülmüşdür.) Ayılar üçün nə istəsəniz, ala bilərsiniz, ancaq çalışın, hədiyyələri bağışlayarkən səhv etməyin, onun həcminə fikir verin. Mixail İvanoviçə həcmi böyük, Anastasiya Petrovnaya həcmi bir qədər kiçik, Mişutkaya isə lap kiçik əşyanı bağışlayın.

Uşaqlar bir-bir mağazaya gələrək hərəsi üç əşya alır və həmin əşyaları həcminə görə uyğun gələn ayı fiqurunun yanına (və ya qucağına) qoyurlar. Əgər uşaq çətinlik çəkirsə, loqoped (və ya tərbiyəçi) ona istiqamət verməklə kömək edir:

– Belə böyük əl torunu kimin üçün almısan? İndi isə gəl havada Anastasiya Petrovna üçün əl torunun şəklini çəkək.

Oyun davam etdikcə uşaqlar oyunun əsl məqsədini başa düşürlər.

Loqoped **rəng** əlamətini öyrətmək məqsədilə **"Xoruz və rənglər"** mövzusunda (V. Suteyevanın eyni adlı əsəri əsasında) aşağıdakı kimi oyun qurur.

**Məqsəd:** uşaqların rənglər haqqında təsəvvürünü dəqiqləşdirmək və zənginləşdirmək, onları əsas rənglərin adları ilə tanış etmək və *rəng* sözünü fəal lüğətlərinə daxil etmək.

**Resurslar:** xoruz və qız fiqurları, 2 ədəd xoruz rəsmi çəkilmiş şəkil (birinci şəkil mövzunun məzmununa uyğun olaraq əlvan rənglənmiş, ikinci şəkil isə rənglənməmişdir); diametri təxminən 2sm olan dairəvi rəngli boya və ya akvarellər.

**Oyunun gedişi**

Loqoped məşğələyə başlayaraq deyir:

–Uşaqlar, bu gün Göyçək Fatmanın ad günüdür. Əlvan xoruz onun evinə qonaq gəlib.*(Loqoped xoruz və qız fiqurlarını stolun üstünə qoyur.)* Xoruz Göyçək Fatma üçün hədiyyə də gətirib.

Loqoped şəkli götürərək elə tutur ki, uşaqlar onun üz tərəfini görmürlər, Göyçək Fatma isə, sanki ekranın arxasında gizlənirmiş kimi, loqopedin əlindəki şəklin arxasında gizlənir.

Xoruz soruşur :

– Ay Göyçək Fatma, bu şəkildəki kimdir?

Göyçək Fatma:

– Bu sənsən, ay xoruz? Vay, necə çirkinsən!

Xoruz:

–Ay Göyçək Fatma, nə üçün mən o şəkildə çirkinəm?

Loqoped şəkli uşaqlara göstərərək deyir:

–Uşaqlar, necə bilirsiniz, Göyçək Fatma bunun səbəbini tapa biləcəkmi? Gəlin biz Göyçək Fatma ilə birlikdə fikirləşək. Əvvəlcə siz stolun üstündəki xoruz fiquruna, sonra isə şəkildəki xoruza baxın. Şəkildəki xoruz qəşəngdir? *(Uşaqlar cavab verirlər ki, qəşəng deyil.)* Nə üçün qəşəng deyil?

Əgər uşaqlar bu iki xoruzun müxtəlif rəngdə olduğunu tapmaqda çətinlik çəkirlərsə, loqoped xoruzun tüklərinin rəngini müqayisə edir:

– Baxın, bu, oyuncaq xoruzun başıdır, onun tüklərinin rəngi sarı, özü isə yumşaqdır. Bu isə xoruzun dimdiyi, pipiyi, qanadlarıdır. Uşaqlar, şəkildəki xoruzun başı necədir? Nə rəngdədir? Xoruzun başı rənglənməyib.

Bu qaydada loqoped xoruzun bədən hissələrini uşaqlarla birlikdə müqayisə edir.

O, sualları elə qoyur ki, nəticədə uşaqlar özləri şəkildəki xoruzun da rənglənməsinin lazım olduğu qənaətinə gəlirlər. Loqoped uşaqların diqqətini stolların üstündəki rəngli boyalara cəlb edərək deyir:

– Uşaqlar, gəlin stollarınızın üstündəki rəngli boyalara baxaq, görək şəkildəki xoruzun başını necə boyamalıyıq?

Uşaqlar fırçalarını götürüb, lazım olan boyaları tapır, işlədikcə rənglərin adlarını deyir və *rəng* sözünü tələffüz edirlər. Loqoped uşaqların *xoluz, xoyuz, xolus, ləng, yəng* kimi yanlış tələffüzlərinə düzəliş verir.

Məşğələnin ikinci hissəsində loqoped mövzunu möhkəmləndirmək məqsədilə **"Qəribə qutu"** oyununu təşkil edir. Qutuda müxtəlif rəngli kərpic fiqurları vardır. Loqoped uşaqların stollarını birləşdirərək bir cərgədə düzür və onlar əyləşirlər.

Sonra loqoped qutunu arxasında birinci uşağın oturduğu stolun üstünə qoyur. Uşaq qutudan bir kərpic götürüb, qutunu yanındakı yoldaşına tərəf sürüşdürür. Uşaqlar hərəsi bir kərpic götürür və bu zaman hansı rəngdə kərpic götürmək istədiklərini sözlə də ifadə edirlər, məsələn: "Mən göy kərpic götürürəm, bəs sən?", "Mən sarı kərpic götürürəm" və s.

İkinci və üçüncü dəfə də qutu birinci uşaqdan başlamaqla sürüşdürülür. Beləliklə, hər uşaq üç kərpic götürür, onları sıra ilə düzürlər. Loqoped əlində dəsmal uşaqların yanında gəzə-gəzə deyir:

–Dəsmal, dəsmal, bu sıralardan birini ört.

Dəsmal uşaqların düzdüyü sıralardan birini örtür. Kimin sırası örtülürsə, loqoped həmin uşaqdan onun kərpiclərinin yerini, rəngini soruşur. Tədricən uşaqlar rənglərin adlarını və onların sırada soldan sağa düzülmə ardıcılığını yadda saxlayırlar.

Loqoped *yəng, ləng, kəypic, sayı* kimi tələffüzlərə düzəliş verir.

Oyunu başqa formada da təşkil etmək olar, məsələn, sıranın əvvəlində göy, ortasında sarı, axırında isə qırmızı kərpic qoyulur. Uşaqlara gözlərini yummaq təklif olunur. Sonra sıranın üstü və ya qarşısı örtülür və uşaqlardan soruşulur:

– Göy (sarı,qırmızı və s.) kərpic harada dayanmışdı?

*Göy, qırmızı, sarı* sözlərinin düzgün tələffüzünə nəzarət edilir.

Daha bir məşğələ uşaqlarda əşyanın forması anlayışını yaratmaq üçün keçirilir.

Beləliklə, məşğələlərdə uşaqların səs mədəniyyəti, lüğət ehtiyatının zənginləşməsi, dəqiqləşməsi və fəallaşması üzrə, nəticə etibarilə, rabitəli nitqlərini inkişafı üzrə iş gedir.

**Ədəbiyyat**

1. KərimovY.Ş. Məktəbəqədər yaşlı uşaqların nitq inkişafının metodikası. Bakı, 1997.

2. "Məktəbəqədər müəssisələrdə təlim-tərbiyə proqramı"na dair müntəxəbat. Bakı, 2008.

3. Рыбина Е. О подготовке детей логопедической группы к звуковому анализу. «Дошкольное воспитание». 1986-ой год, №11.

4.Cəfərova L.K. Dadaşzadə D.M. Uşaq bağçasında savad təlimi. Bakı, "Nərgiz", 2004.

**Подготовка к слуховому анализу детей с ограниченными возможностями речи**

**Резюме**

В статье ставится вопрос о подготовке детей с ограниченными возможностями слуховому анализу. Указывается на то, что независимо от профиля, цель дошкольных учреждений состоит в подготовке детей к школьному обучению. Для этого нужно, чтобы детй овладели чистыми, правильными и ясными речевыми навыками .

**Faulty preparation of an analysis of children's speech of sound**

**Summary**

The article raises the question of training of children with disabilities auditory analysis. Indicated that regardless of the profile, the goal of preschool is to prepare children for school. To do this, the mastery of children pravilnomi clean and clear language skills.

# *SİNİFDƏNXARİC İŞLƏR*

## SİNİFDƏNXARİC TƏDBİRLƏRİN TƏŞKİLİ

**Nəzakət Kərimova,**

Xudat şəhər 2 nömrəli orta məktəbin müəllimi



Sinifdənkənar tədbirlərin təşkilinə kömək məqsədilə "Müəllim günü", "Bayraq günü", "20 yanvar – hüzn günü", "Beynəlxalq Ana dili günü"nə aid materialların hazırlanmasını lazım bildik. Hər bir müəllim onlara istinadən öz ssenarilərini hazırlaya bilər.

### 1. Müəllim günü

**I aparıcı:**

– Hörmətli tədbir iştirakçıları, əziz müəllimlər! Sizi peşə bayramınız münasibətilə təbrik edirik! Bu çətin, lakin şərəfli işinizdə sizə möhkəm can sağlığı, səbir, yeni-yeni uğurlar arzulayırıq!

**II aparıcı:**

– Müəllim gününə həsr olunmuş ədəbi-bədii tədbirimizi açıq elan edirik.

Himn çalınır. Hamı oxuyur.

**I aparıcı:**

– Əziz müəllimlər, bu günkü tədbirimizdə sevimli şairlərimizdən S.Rüstəm, B.Vahabzadə, R.Yusifoğlu və başqalarının müəllim haqqında şeir və mahnılarını dinləyəcəksiniz. Söz məktəbin gənc heydərçilərinə verilir:

I şagird: – Dostlarım, nə qədər ucalsanız da,
Mən demirəm hər gün, barı bir kərə,
Baxın, baxdığımız bu şəkildəki,
Başımız üstəki müəllimlərə.
Bizdən çox ucadır onların yeri!
Dostlarım, nə qədər ucalsaq da biz,
Hər zaman onların şagirdləriyik
Sabah onlar kimi qocalsaq da biz!

II şagird: – Müəllim! Qayğınla böyüyür insan!
Sən əqlə, kamala qanad verirsən!
Ana dilimizin gur bulağından
Körpə balalara su içirirsən!

III şagird: – Daşda naxış açan memara bir bax,
Bu sənət heç kəsə gəlməsin asan.
Gör sənin sənətin necə çətindir,
Canlı beyinlərdə naxış açırsan!

IV şagird: – Alim kəşf eləyir, yazır əsərlər,
Sənin də bunlarda alın tərin var.
Sən də yaradansan, kitablar deyib,
Alimin özüdür canlı əsərin.

V şagird: – Əlli il dodağın "Əlifba" dedi,
Sönmədi qəlbinin eşqi, həvəsi!
Birinci şagirdin babadır indi,
Sonuncu şagirdin onun nəvəsi!

Şagirdlərin ifasında "Əziz müəllim" mahnısı ifa olunur! (xor)

Anamın dilisən, elimin əli,
Sazımın telisən, əziz müəllim!
Niyyəti təmizsən, doğma, əzizsən,
Qəlblərdə fərəhsən, əziz müəllim!

I şagird: –Müəllimlik müqəddəs bir sənətdir həyatda,
Müəllimin hər sözü həqiqətdir həyatda.
Üz-gözü, pal-paltarı mürəkkəbli körpələr,
Çırpınan ürəkləri xoş mətləbli körpələr,
İlkin "Vətən" sözünü müəllimdən öyrənir.

II şagird: – Ümummilli liderimiz H.Əliyev deyirdi ki, mən dünyada müəllim-ən müqəddəs, şərəfli insan tanımıram. Hər dəfə o, Naxçıvana gedəndə ilk növbədə müəllimləri ilə görüşərdi.

Başım ağarıbsa da,
Deyilsəm də mən cavan,
Yanımda bir müəllim adı çəkilən zaman
Tez ayağa qalxıram, bir məktəbli uşaq tək.

III şagird: –Müəllimə həmişə, hər yerdə hörmət gərək!
Müəllim də anadan müəllim doğulmayıb,
Müəllimin özü də müəllimsiz olmayıb.
Deyirəm, kaş yenidən bir məktəbli olaydım,
Barmaqları ömürlük mürəkkəbli olaydım!

IV şagird: – "Əlifbanı" öyrətdin, sən mənə bilik verdin,
Yüksəklərə ucaltdın, şərəfli, əziz qadın!

V şagird: – Mən on yaşa dolmuşam, çoxlu beşlər almışam,
Mənim ilk müəllimim, ey böyük müəllimim!

VI şagird: – Doymaq olmur heç zaman söhbətindən, sözündən.
Lap günəşə bənzəyir mehriban, şən üzündən,
Bizim sinif rəhbəri!

VII şagird: –Uşaqlardan bir nəfər gəlməsə, dərsə əgər,
Ya zəng edər, ya da ki, gedib ona baş çəkər,
Bizim sinif rəhbəri!

Şagirdlər müəllimlərinə gül-çiçək təqdim edirlər. Onları rəqsə dəvət edirlər.

**I aparıcı:** – Gözəl dostlar topladığım,
Fəsilləri adladığım,
Hərdənbir də darıxdığım,
Bir kiçik sinifim var.

Mənim qəlbdən sevdiyim,
Ona könül verdiyim,
Bir kiçik sinifim var.

**II aparıcı:** – Hamımızın qəlbində yanan nurdur müəllim!
Nadanlıqdan qorudu ana yurdu müəllim!
Vətənin keşiyində sayıq durdu müəllim!
Düşmənlərin gözünə enən tordur müəllim!
Yolumuzun üstündə yanan nurdur müəllim!

Tədbir bağlı elan olunur.

## 3. Bayraq günü

**Aparıcı:**

– Salam, əziz tədbir iştirakçıları! Bildiyiniz kimi, müstəqilliyimizi əldə edəndən sonra himnimiz 1992-ci il, mayın 27-də, gerbimiz 1993-cü il, yanvarın 19-da təsdiq olundu. Suverenlik, müstəqillik və milli birlik rəmzi olan bayrağımız 1992-ci il, fevralın 5-də təsdiq edilsə də, 1918-ci il, noyabrın 9-da qəbul olunub. Respublikamızın prezidenti cənab İ.Əliyevin sərəncamına əsasən 2010-cu ildən noyabrın 9-u "Bayraq günü" kimi bayram edilir. Tədbirimizi açıq elan edirik.

Himn çalınır. Hamı ayağa qalxıb oxuyur.

**Aparıcı:**

– Bildiyimiz kimi, ölkə başçısının sərəncamı ilə Bayraq meydanında respublikamızın bayrağı ucaldılmışdır. Gəlin sözü məktəbimizin gənc heydərçilərinə verək: (F.Teymuroğlunun "Himnimiz çalınanda" şeri)

I şagird: – Ey azəri yurdumun igid oğlu, mərd qızı!
Göylərin zirvəsinə yazdirin adınızı!
Qoy dünya ölkələri eşitsin sədanızı,
Bayrağımız ucalıb, himnimiz çalınanda!

II şagird: – Dədəmiz Dədə Qorqud ululardan uludur,
Heydər nəvəsiyik biz, yolumuz haqq yoludur.
Başım göyə ucalır, qəlbim qururla dolur,
Bayrağımız ucalıb, himnimiz çalınanda!

III şagird: –Əlini sinənə qoy, "Azərbaycan" deyərək.
Gir meydana, üçrəngli bayrağımı geyərək!
Məhvərindən çıxacaq ürəklər kükrəyərək,
Bayrağımız ucalıb, himnimiz çalınanda!

IV şagird: – Qoy yayılsın aləmə millətimin haqq səsi,
Üzeyirin bəstəsi, Əhməd Cavad naləsi!
Əlimizdə bərq vursun qələbə piyaləsi,
Bayrağımız ucalıb, himnimiz çalınanda!

**Aparıcı:** – Hörmətli tədbir iştirakçıları, xalq şairi B.Vahabzadənin "Bayraq" şerini dinləyək:

I şagird: – Torpağım üstünə kölgələr salan,
Mənim varlığımın cilası bayraq!
Zəfərdən doğulmuş, Göytürkdən qalan,
Qurdbaşlı bayrağın balası bayraq!

II şagird: –Üçrəngli bayrağın kölgəsində mən,
Qaraca torpağı Vətən görmüşəm!
Zəfər güllərini dövri-qədimdən
Bayraq işığında bitən görmüşəm!
Bayraq mənliyimdir, bayraq kimliyim,
Bayraq öz yurduma öz hakimliyim!

III şagird: – Harda əcdadımın ayaq izi var,
Bu zəfər bayrağım orda dikəlsin!
Keçdiyi yerlərdə dağlar, yamaclar
Onun hüzuruna salama gəlsin!

IV şagird: –Tarixdən qədimdir, zamandan qoca
Mənim bayrağıma sancılan hilal.
Aləmə nur saçdı tarix boyunca
Məbədlər başına tac olan hilal.

V şagird: –Daim ucalasan! Savaş günündə
Əsgər silahıyla səni tən görüm.
Yalnız zəfər çalmış şəhid önündə
Səni alqış üçün əyilən görüm.

**Aparıcı:** – Gəlin, Əli Kaminin Şahin Musaoğlunun sözlərinə yazdığı "Əsgər marşı"nı dinləyək:

Solo: Anam məni yetişdirib bu yerlərə göndərdi.
Bu bayrağı mənə verib, Allaha ismarladı.
– Boş oturma, çalış, – dedi, – xidmət eylə vətənə,
Südüm sənə halal olmaz, təslim olsan düşmənə!

Xor: Marş, irəli! (2) Azərbaycan əsgəri!
İtaətdir ilk borcumuz bu torpaqda, bilərik,
Bu bayraqda birləşdik biz, Vətən üçün ölərik!
Bu diyarın bayrağını atamdan çox sevərəm,
Hər gördükcə salam verib, göz yaşları tökərəm.

Xor: Marş, irəli! Marş, irəli! Azərbaycan əsgəri (2)

Ardı növbəti nömrədə.

*İsmayılbəy Qaspralı – 160*

# BIR ÖMRÜN MƏŞƏLI

**Vidadi Bəşirov,**
ADU-nun dosenti,
pedaqogika üzrə fəlsəfə doktoru



"Millət sənə daim hami olur. Fəqət yeganə şərtini unutma – hər nə yazacaq isən, qələmi üç qəpiklik qara mürəkkəbə batırma, ürəyinə batırıb, qanı ilə yazı yaz. Sözün ötər, vicdanlara yetər, amma əks halda bisəmərə qədər keçər, gedər... . Qardaşım, sənə bu sözlərim həm rica, həm nəsihət, həm vəsiyyətdir".

*İsmayıl bəy Qaspralı.*

**Açar sözlər:** ilkin təhsil, savad təlimi, demokratizm, türk-müsəlman, ictimai-siyasi, millət

**Ключевые слова:** начальное образование, обучение грамоте, демократицизм, турецко-мусульманский, социально-политический, нация.

**Key words:** primary education, literacy, democracy, the Tmurkish-Muslim socio-political, nation.

XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycanın mədəniyyət və milli oyanış hərəkatı tarixinin görkəmli simaları, bir qayda olaraq, xalqın ümumi tarixindən, ictimai-siyasi və sosial-iqtisadi həyatından, indi də öz əhəmiyyətini itirməmiş qiymətli ədəbi-tarixi və elmi-bəşəri mülahizələr irəli sürmüşlər.

Azərbaycanla sıx ictimai-siyasi, elmi-mədəni və şəxsi əlaqələri olmuş mütərəqqi ziyalılardan biri də türk-müsəlman xalqlarının milli və mənəvi intibahı yolunda acı məşəqqətlərdən keçən, işıqlı ziyalı, görkəmli maarifpərvər, Krım tatarlarının (türklərinin) milli ideoloqu kimi məşhurlaşan Qaspralı (Qasprinski) İsmayıl bəy Mustafa oğlu (1851-1914) olmuşdur. Kübar ailədə doğulmuş İsmayıl bəy bütün həyatını türk-müsəlman xalqlarının mədəni birliyinə, suverenliyinə həsr etmiş, xalq həyatının dərin bilicisi olaraq, onun milli məfkurəsindən öz yaradıcılığında xeyli faydalanmışdır.

Krım yarımadasın, xüsusən onun çeşidli dünyasını bəzəyən Bağçasaray hadisələri İ.Qaspralının yaradıcılığında möhtəşəm təəssüratlar qoymuşdur.

İlkin təhsilini ailədə, xüsusi müəllimdən almış (1858-1861) İsmayıl sonralar Ağməscid gimnaziyasında (Simferopol–1861-1863), Voronej ibtidai hərbi, Moskva orta hərbi məktəblərində (1863-1867), Parisdə Şərq dilləri liseyində (1871-1875) oxumuşdur.

Xalqın milli mənlik şüurunu oyatmaq, onu maarifləndirmək İ.Qaspralını daim düşündürür, narahat edirdi. O, zənmətkeş kütlələrin maariflənməsinə təsir etmək məqsədilə Azərbaycan mühiti ilə də işlək əlaqələr qurur, işgüzar fəaliyyət göstərərək, bu yolda həmvətənlərinə, müsəlman dünyasına qeyrətli ziyalı kimi namusla xidmət etməyə çalışırdı.

İ.Qaspralı, onun sirli-sehirli dünyası barədə tarixi tədqiqatlar nə qədər çox olsa da, onun əzablı sənət yolu bu gün də tədqiqini gözləyir. Aparılan tədqiqatların nəticələri göstərir ki, İ.Qaspralı əsl vətənpərvərliyi hər kəsin xalq mənafeyinə olan əmək fəaliyyətində, məhsuldar,

xəlqi yaradıcılığında görürdü. O, vətən övladlarının gələcəyini düşünərkən onların tərbiyə və təhsili qayğısına qalmaq kimi əsas məqsədi həyata keçirmək üçün daim yollar axtarmış və bununla da dövrün tələblərinə cavab verməyə çalışmışdır.



İ.Qaspralı xalqın azadlığı uğrunda mübarizənin tərkib hissəsi olan milli mənlik şüuru məsələsinin düzgün qoyuluşuna səy edir, onun saflığı uğrunda mübarizənin önündə gedirdi. O, milli mətbuatın ana dilində çıxarılması və onun vahid ədəbi dil normalarına tabe olmasını vacib şərtlərdən biri hesab edirdi. Savad təliminin yayılmasında, xalqin maariflənməsində ana dilində hazırlanmış oxu kitablarına böyük əhəmiyyət verirdi. Bu cəhətdən o, siyasi və milli məsələlər arasında dilə yiyələnməyə ciddi milli və ümumbəşəri problem kimi baxırdı.

Həmin tarixi dövrdə Azərbaycanda milli mənlik şüurunun formalaşdırılmasının səmərəli təşkili uğrunda mübarizə mərhələsində onun yaşayıb-yaratdığı Bağçasaraydan saçılan maarif şöləsi tezliklə regionun ayrı-ayrı qəzalarında, uluslarında yeni ruhlu dərsliklərin yaranmasına olan tələbatın ödənilməsinə xeyli kömək göstərirdi. O, milli mənlik şüurunu ehtiva edən ideyalarla xalqın içərisində olub, təhsilləndirici iş aparmaq səyi ilə özünün elləri dolaşan "Tərcüman" qəzetində türkdilli xalqların mücadiləsinə çıraq tutan "Dildə, fikirdə, işdə birlik" ideyasını irəli sürmüşdü. Onun vaxtilə tərtib etdiyi "Xoce-yi-sibyan" adlı "Əlifba" dərsliyi bu cəhətdən Rusiya müsəlmanlarının ictimai - tərəqqi yollarında, mədəni-maarif ziyasının alovlanmasında yeni mərhələnin başlanğıcını qoymuşdur.

"XIX əsrin ən böyük islahatçısı", "türk dünyasını oyadan" İsmayıl bəy Qaspralı "Tərcüman" qəzetində (1883-1914) dərc etdirdiyi yazıları ilə bütün türk xalqlarının məktəb və tərbiyə tarixinə yeni bir istiqamət – demokratik mühit, xəlqi baxış, azad düşüncə, insani ruh gətirdi.

Onun yenilməz ideyalarının məqsədi dövrlə uzlaşmayan təlimin sxolastik üsullarına, təhsilin həyatdan uzaq düşməsinə qarşı mübarizə aparmaq və dünyəvi milli məktəblərin mütərəqqi ideyalar əsasında yenidən qurulmasına nail olmaq idi. O yazırdı: "Bu millət (türk-tatar milləti –V.B) dağınıq, parçalanmış, zəif haldadır, digər millətlərə nisbətən elm və mərifətcə, şərəf və mədəniyyətcə çox geridə qalmışdır". Odur ki, dil, din, adət və ənənə birliyini millətin mənəvi silahı hesab edən İsmayıl bəy Qaspralı yeni üsullu məktəblərin bu sahədə millət balalarının nicatına böyük fayda verəcəyini, köhnə, sxolastik təlim ehkamlarını buxovlamaqla onun islahının mümkünlüyünü göstərirdi.

Onun ictimai-siyasi konsepsiyası, zəngin pedaqoji fikirləri "Tərcüman" qəzetində dərc olunmaqla yanaşı, ayrı-ayrı türk xalqlarının ideya ruporu olan milli mətbuat səhifələrində də işıq üzü görmüşdür. Bu cəhətdən müəllifin ideya unamını, məslək yolunu Azərbaycan əhalisinə də inandırıcı həqiqətlərlə çatdıran "Aşıq söz" qəzetində və "Molla Nəsrəddin" jurnalında uğurlu məqalələri çap olunurdu.

İ.Qaspralının boyük ümid doğuran ideyaları "Rusiya müsəlmanlığı" (1881), "İslamlığa dair nizamlar və imtiyazlar" (1885), "Avropa mədəniyyətinə bir nəzəri-müvazinə" (1885), "Rus-Şərq razılaşması" (1886), "Mirati-cədid" (1882), "Atlaslı cahan-nüma" (1892), "Qiraəti-türki" (1894) və s. məşhur ictimai-siyasi həqiqətləri qabardan əsərlərində öz təzahürünü tapmışdır.

İki əsrdə bir ömrün tükənməz məşəlini yandıran İsmayıl bəyin pedaqoji fəaliyyətində də vətənpərvərlik ideyalarının əks olunması, mütərəqqi məzmun kəsb etməsi onun dərin vətəndaşlıq, türkçülük şüurundan, vətən təəssübkeşliyindən, uzun müddət damğalanma hədəfinə məruz qalmış pantürkist və panislamist baxışlarından irəli gəlirdi.

Dövrünün məşhur ideoloqu olmuş Ö.F.Nemanzadə 1894-1896-cı illərdə Şəkidə maarif cəmiyyətinin təşkil etdiyi, Qafqazda birinci üsuli-cədid üzrə nizamlı milli türk məktəbinin fəaliyyətini səciyyələndirərək yazırdı: "Biz müəllimlər öz aramızda dörd illik ibtidai məktəb proqramı yazdıq və dərs cədvəli də düzəltdik.

O vaxtlar ən çətin məsələ məktəblər üçün kitab tapmaq idi. Qafqazda çap edilmiş türkcə məktəb kitabı yox idi. İstər Türküstan, Krım, istərsə də Qafqaz üçün məktəb kitabı Bağçasarayda "Tərcüman" sahibi İsmayıl bəy Qasprinski tərəfindən çap edilən türkcə qiraət, ilk hesab, coğrafiya kitabları idi" (3, s.8-11).

Ömər Faiqin arxiv xatirələrindən götürülmüş bu şərhlərdən aydın olur ki, 1883-cü ildə Krımda tatar dilində nəşr edilən "Tərcüman" qəzetində, onun naşiri və redaktoru, Krım tatarlarının milli ideoloqu İsmayıl bəy Qaspralı öz məsləkdaşlarını, gələcək nəsli, xüsusən müsəlman qadınlarını milli oyanışa səsləmək üçün, ana dilinə sahib olmağı və bu sahədə dərs vəsaitlərinin vacibliyini öz qəzeti vasitəsilə geniş kütləyə çatdırırdı.

Dövri mətbuat səhifələrində, xüsusən "Tərcüman" qəzetində, onun maarifçilik baxışlarındakı demokratizm, humanizm, milli-ümumbəşəri dəyərlər, təlim-tərbiyəyə dair məsələlərə bələdliyi haqqında da maraqlı məlumatlar öz əksini tapmışdır. Onun yazılarında məktəbdə ana dili tədrisi qayğısına qalması, hamılıqla təhsil ideyası, müsəlman-tatar balalarının sadiq vətən övladları kimi yetişib kamilləşməsi haqqında da maraq çəkən məqamlar çoxdur. İsmayıl bəyin məktəblərdə ana dili tədrisi qayğısına qalması, hamılıqla təhsil ideyası öz dövrü baxımından vətənpərvər ruhlu ən mütərəqqi çağırış idi. Bütövlükdə isə uyğur-türk-müsəlman xalqlarının maariflənməsi işində onun böyük əməyi olmuşdur. Arxiv sənədlərini araşdırarkən diqqətimizi belə bir qəzet məqaləsinin sərlövhəsi cəlb etdi: "Cey Dağıstani" İsmayıl Mirzə Qasprinski. "Tərcüman" qəzetinin naşiri. Məşhur müsəlman ictimai xadimi".

Dövri mətbuat müəllifi 1882-ci ildə oxucunu bu müfəssəl məlumatla tanış edir. Bu 32 il ərzində öz orqanının səhifələrində də o, öz ideyalarını təbliğ edirdi. İsmayıl bəy Rusiyanın bütün türk-tatarlarının dillərinin birləşdirilməsini təbliğ edirdi. O deyirdi: "Bütün Rusiyada tatar adlananların hamısı bir ailənin – uyğur türklərinin övladlarıdır. Onların bir ümumi ana dili – türk dili vardır.

Ayrı-ayrı dövrlərdə bu dildə baş verən dəyişikliklər, türk dilinin dialektlərə parçalanması tarixi, siyasi və s. şəraitlərin təsiri ilə baş vermişdir. İndi türklər Rusiyanın bir binası altında yaşadıqları halda, onlar öz talelərini vahid ümumi Vətən taleyi ilə bağlamışlar və gələcəkdə də onların həyatında heç bir başqa siyasi dəyişikliklər görünmür. Ona görə də qoy onlar vaxtilə hamısı üçün ana dili olan həmin ümumi dildə birləşsinlər. Türk tayfası, rus müsəlmanları öz qüdrətli ədəbiyyatını, poeziyasını və s. yenidən yaratmaq üçün öz dillərini birləşdirməlidirlər".

Təbliğ etdiyi ideyanı əsaslandırmaq üçün İsmayıl bəy öz qəzetini elə bir dildə nəşr edirdi ki, onun fikrincə, bu dil vahid türk dilinin nümunəsi olmalı idi.

Bu əsasda İsmayıl bəyin həm müsəlmanlar, həm də rus şərqşünasları arasında ideya düşmənləri var idi. Bu opponentlər deyirdilər: "Rus türklərinin hər bir ayrı düşmüş ailəsi əvvəlcə öz ana dilini, yaxud ləhcəsini yaxşıca öyrənməli, sonra isə ümumi dili öyrənməyə keçməlidir... " (2).

Məlumdur ki, XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycanın elm, mədəniyyət və milli hərəkat tarixinin vətənpərvərlik simaları olan F.Köçərli, C. Məmmədquluzadə, Ü.Hacıbəyov, F.Ağazadə (Şərqli), M.B.Məmmədzadə, M.Şahtaxtlı, A.Şaiq, H.Ə.Axundzadə, M.Mirabbaszadə, A.Azadbəyli, H.Sultanov, S.M. Qənizadə, M.Ə.Rəsulzadə, Ə.Hüseynzadə və

başqaları milli-mənəvi, pedaqoji görüşlərində İsmayıl bəy Qaspralının yaradıcılığından riqqətə gələrək onun islahatçı ideyalarına qoşulub, əlverişli şəraitdən öz xalqının mənafeyi üçün istifadə edirdilər.

Milli mənəviyyatın sabahını elmdə, təhsildə görən bu şəxsiyyətlər vaxtaşırı qəzet və jurnal səhifələrində çıxış edir, xalqı düşünmək, elm qayğısına qalmaq, onun parlaq istiqbalı üçün fədakarlıqla çalışmaq ruhunda tərbiyə edir, ictimaiyyətin xeyrinə olan işlərə daha möhkəm girişməklə, İsmayıl bəy Qaspralı kimi, bu yolda mütərəqqi ruhlu pedaqoji cərəyanların ön sıralarında addımlayırdılar.

Bu gün təqdirəlayiq haldır ki, türk-müsəlman dünyasının ictimai-tərəqqi ideyalarının yayılma arealı İsmayıl bəy Qaspralının ideya-mənəvi yaradıcılığından da bəhrə götürür. Müasir tədqiqatlar prizmasından baxilanda onun ideya-mənəvi xəzinəsi diqqətlə öyrənilir, şərəfli müəllim və məktəbdarlıq fəaliyyəti, ədəbi-bədii, siyasi-ictimai, etik-estetik, hüquqi-fəlsəfi görüşləri haqqında yeni axtarışlar aparırlar. Təsadüfi deyil ki, bu dahi şəxsiyyətin, iti zəka sahibinin anadan olmasının 160 illiyi münasibətilə qələmə alınan "Bütün türklərin tərcümanı" (müəllif filologiya elmləri doktoru Abid Tahirlidir) kitabı yeni nəfəslə araşdırılan qiymətli vəsait olub, bu mübarizə mücahidinin, həyat mürşidinin ədəbi-pedaqoji fəaliyyətinə çıraq tutur. Sənətkara və sözə qiymət vermək baxımından kitabın "Müqəddimə"sində, gənc nəslin ideya-siyasi tərbiyəsi üçün örnək olan təqdimatda çox haqlı olaraq deyilir: "Əsərdə həyat və fəaliyyəti ilə Azərbaycanla qırılmaz tellərlə bağlı olan böyük ideoloq, naşir, yazıçı-publisist, ideya və əməlləri ilə bütün dünya, xüsusilə Rusiya müsəlmanlarının taleyində, tərəqqisində misilsiz xidmətlər göstərmiş, onların ictimai-siyasi, mədəni, mətbu həyatında yeni mərhələ açmış, öz dildaş və dindaşlarının təfəkkür tərzində dönüş yaratmış İsmayıl Qaspralının ömür və yaradıcılıq yolundan bəhs olunur" (5, s.4).

Milli zəminlə yanaşı, vətənpərvərlik tərbiyəsi ideyalarında İsmayıl bəy Qaspralı üçün beynəlmiləlçilik, bəşərilik də konkret səciyyə daşımış, onun milli azadlıq, sosial tərəqqi yollarından bəhs edən fikirləri müstəsnalıq təşkil etmişdir.

### Ədəbiyyat

1. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. 2-ci cild. Bakı, "Lider",2005.
2. "Kaspi"qəzeti, 1914, № 204.
3. Nemanzadə Ö.F. Xatirələrim. Azərbaycan Milli Elmlər Akademiyasının M.Füzuli adına Əlyazmalar İnstitutu, fond 26.
4. Nemanzadə Ö.F. Xatirələrim. Bakı, "Gənclik", 1985.
5. Səvvar. İşığa doğru. "Ədəbiyyat qəzeti", 19 avqust, 2011-ci il, № 31.

### Пламя одной жизни
### Резюме

В статье исследуется идейно-духовное наследие гениальной личности, известного просвещенца, педагога мирового масштаба, мыслителя Исмаил-бек Гаспралы (Каспринского), (1851-1914 г.). Освещается его богатый жизненный путь, характеризуется идейно-духовное наследие.

Речь идет также о школьной и учительской деятельности, общественно-политических взглядах мыслителя.

### The light of a mans life
### Summary

The article gives a brief summary of Ismayil bay Qasparli(1851-1914) who was a great personality, well-known scientist, world-wide pedaqoque and specialist in study of literature.Here the way of his life and his ideological-educational conseption are also investigated.